


Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 48 (8071) CÜMƏ AXŞAMI, 28 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


# Azərbaycan-Gürcüstan münasibətləri Qafqazda sülhün və inkişafın zəminidir





## Rəsmi qarşılanma mərasimi

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Gürcüstanın Prezidenti xanım Salome Zurabişvilinin fevralın 27-də rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Gürcüstan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan Prezidenti Salome Zurabişvilini qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Gürcüstan Prezidentinə raport verdi.

Prezident İlham Əliyev və Prezident Salome Zurabişvili fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Gürcüstan Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Gürcüstanın və Azərbaycanın Dövlət himnləri səsləndi.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Salome Zurabişviliyə, Gürcüstanın nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Salome Zurabişvilinin qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.





## Salome ZURABİŞVİLİ:

# "Regiona ilk səfərimi dostumuz olan qardaş Azərbaycana edirəm"

Fevralın 27-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, prezidentlər görüşdə çıxış etdilər.

**Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

- Hörmətli xanım Prezident, mən Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz.

İlk növbədə, bu yaxınlarda prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi təbrik edirəm, Sizə uğurlar arzulayıram.

Əminəm ki, Sizin səfəriniz Gürcüstan-Azərbaycan dostluq əlaqələrinin inkişafı üçün çox önəmli addım olacaqdır. Əminəm, aparacağımız müzakirələr bir daha təsdiqləyəcək ki, Gürcüstan və Azərbaycan bir-birinə çox yaxın ölkələrdir və birgə apardığımız işlər böyük nəticələr verir.

Biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik və bu əməkdaşlıq gündən-günə dərinləşir. Siyasət, iqtisadiyyat, mədəniyyət, nəqliyyat, energetika sahələrində çox gözəl nəticələr var. Əslində, elə bir sahə tapmaq çətindir ki, biz o sahədə əməkdaşlıq etməyək. Əlbəttə ki, gələcək əməkdaşlıqla bağlı bizim çox aydın fikirlərimiz var. Əminəm ki, səfər zamanı biz gələcək əməkdaşlıq istiqamətlərini müzakirə edəcəyik.

Bir daha xoş gəlmisiniz.



❖ ❖ ❖

**Gürcüstan Prezidenti Salome ZURABİŞVİLİ dedi:**

- Təşəkkür edirəm, cənab Prezident.

Şadam ki, regiona ilk səfərimi bizim dostumuz olan qardaş ölkəyə edirəm. Mən Azərbaycana dost ölkənin Prezidenti kimi səfərə gəlmişəm. Gürcüstanın bütün prezidentləri Azərbaycanın dostu olub və mən də bu ənənəni davam etdirirəm. Bizim münasibətlərimizin alternativi yoxdur və perspektivli əlaqələrimiz var.

Bizim region üçün və dünya üçün yeni perspektivlər açılır. Bu baxımdan əlaqələrimizi dərinləşdirmək daha da böyük əhəmiyyət kəsb edir. Əminəm ki, biz perspektivlərlə bağlı yeni təşəbbüsləri müzakirə edəcəyik.

Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirəm.



# Prezidentin sosial tədbirləri əhalinin bütün təbəqələrini əhatə edir

İqtisadi və sosial məsələlərlə bağlı Prezident İlham Əliyevin yanında keçirilən müşavirədə cari ilin ilk ayının göstəricilərinə nəzər salınaraq islahatların yaxşı nəticələr verdiyi vurğulanıb. Tədbirdə ümumi daxili məhsulun artımının təxminən 3 faiz təşkil etdiyi bildirilib. Bu, son 2-3 il ərzində ən yüksək göstəricidir.

Ölkədə iqtisadi, makroiqtisadi vəziyyət sabitdir, bir ildən çoxdur manatın məzənnəsi stabil olaraq qalır, inflyasiya ən aşağı səviyyədədir.

Yanvar ayı ərzində qeyri-neft sektorunda sənaye istehsalı 14 faizə yaxın artıb. Bu da onu göstərir ki, növbəti illərdə qeyri-neft sektoruna xarici sərmayələr cəlb etmək prioritet məsələlərdən olacaq. Ümumiyyətlə, Azərbaycanla əməkdaşlıq etmək, ölkə iqtisadiyyatına investisiya yönəltmək istəyən şirkətlərin sayı getdikcə daha da artır.

Aparılan iqtisadi islahatlar büdcə daxilolmalarına müsbət təsir edib. Vergi və gömrük orqanları plandan əlavə xeyli vəsait toplayıblar. Dövlət Neft Fondunun gəlirləri əhəmiyyətli dərəcədə artıb. Bütün bunlar vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə imkan verir.

Sözügedən müşavirədə Prezident İlham Əliyev bu barədə demişdir: "Biz əlavə gəlirləri, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəltməliyik. Çünki bu, bizim üçün prioritet məsələdir, vətəndaşların sosial rifahının yaxşılaşdırılması ən başlıca vəzifəmizdir. Bu istiqamətdə artıq bir çox ciddi addımlar atılıb və atılacaq".

*Ardı 3-cü səh.*

# Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində növbəti addım

Artıq bütün dünyanın qəbul etdiyi həqiqətdir ki, Ermənistan tərəfindən ölkəmizə qarşı ərazi iddiası üzündən başlanan münaqişə nəticəsində 1 milyondan çox soydaşımız doğma yurdundan didərgin düşərək məcburi köçkünə çevrilmişdir. Özü də həmin prosesin başladığı vaxt ölkəmiz müstəqilliyinə yeni qovuşmuşdu.

O dövr məlum səbəblərdən iqtisadiyyatı zəif olan Azərbaycan öz vətəndaşlarına ciddi sosial dəstək göstərə bilmirdi. Buna görə də qaçqın və məcburi köçkünlər beynəlxalq təşkilatların göstərdiyi humanitar yardımların ümidinə qalmışdı.

Lakin Azərbaycan dövləti də bu kateqoriyadan olan vətəndaşların sosial müdafiəsi üçün əlindən gələni edirdi. "Əsrin müqaviləsi"ndən sonra əldə olunan neft gəlirlərindən ilk dəfə çadır şəhərciklərini ləğv etmək üçün istifadə edilməsi sayəsində həmin kateqoriyadan olan soydaşlarımızın sosial məişət şəraitinin xeyli yaxşılaşması məhz bunun nəticəsi idi. İlham Əliyev hələ 2003-cü ildə prezidentliyə namizəd olarkən çadır düşərgələrində məskunlaşan məcburi köçkünlərə vəd vermişdi ki, qısa müddətdə bütün çadır şəhərcikləri ləğv ediləcək.

Dövlət başçısı bu gün verdiyi vədi əməli işlə sübut edir. Artıq 12 çadır düşərgəsi ləğv edilərək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. Hazırda evlərlə, mənzillərlə təmin edilən məcburi köçkünlərin sayı 300 minə çatır ki, bu da 53 min 500 ailə deməkdir. Həmin kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün sərf edilən vəsaitin məbləği isə 7,1 milyard manatdır.

Ötən il dekabrın 24-də Abşeron rayonunda 1000 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi məcburi köçkünlər üçün salınan sayca 101-ci şəhərcik idi. Mənzillərlə yanaşı, burada sosial infrastruktur da yaradılıb. Şəhərcikdə uşaq bağçası, tibb məntəqəsi, icma mərkəzi, 800 şagirdlik məktəb məcburi köçkünlərin ixtiyarına verilib.

Elə həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilən daha bir yaşayış kompleksinin açılışında iştirak etdilər. 4 hektar ərazidə yerləşən kompleksdəki 12 binada 1500 mənzil var. Burada da sosial infrastrukturun yaradılması unudulmamışdı. Kompleksdə məktəb, uşaq bağçası, mərasim evi və digər zəruri infrastruktur obyektləri inşa edilmişdir. Kompleksin ərazisi yaşıllaşdırılmış, 540 şagirdlik yeni məktəb korpusunda şagirdlərin təhsil alması üçün hər cür şərait yaradılmışdır. Bununla yanaşı, 50 yerlik uşaq bağçası zəruri ləvazimatlarla təchiz edilərək körpələrin ixtiyarına verilmişdir.

Amma bu istiqamətdə görülən işlər davam etdirilir. Dövlət başçısı fevralın 25-də iqtisadi və sosial məsələlərlə bağlı keçirdiyi müşavirədə məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində cari ildə görüləcək işlər barədə demişdir: "Məcburi köçkünlərlə bağlı bu il çox geniş inşaat proqramları icra ediləcək. Əgər keçən il 5900 köçkün ailəsi üçün mənzillər, evlər tikilmişdirsə, bu il 6 mindən 7 minə qədər köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək. Müvafiq göstərişlər verildi. Həm bölgələrdə, həm Bakı şəhərində, Sumqayıt şəhərində bu proqram icra ediləcək". Dövlət başçısının çıxışından aydın görünür ki, ötən illə müqayisədə cari ildə daha çox ehtiyacı olan məcburi köçkün mənzillə təmin ediləcək.

Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar bununla da bitmir. Xəbər verildiyi kimi, Prezident İlham Əliyev bir neçə gün əvvəl "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin ayrılması haqqında" sərəncam imzalayıb. Həmin sərəncama əsasən, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği cari il aprelin 1-dən 50 faiz artırılacaq ki, bu da dövlət başçısının məcburi köçkünlərin sosial problemlərinin həllinə göstərdiyi növbəti qayğının təzahürüdür.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Uğurlu əməkdaşlıq formatı

## Prezidentlər ikitərəfli münasibətlərin daha böyük perspektivə malik olduğuna əmindirlər

Fevralın 27-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.



AZƏRTAC xəbər verir ki, prezidentlər görüşdə çıxış etdilər.

**Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

- Hörmətli xanım Prezident, hörmətli qonaqlar, sizi bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Mən xanım Prezidenti prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik etdim. Çox şadam ki, qısa müddətdən sonra xanım Prezident Azərbaycana səfər edir. Bu, çox gözəl göstəricidir.

Bu gün biz artıq təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik. Regional problemləri, bizim ikitərəfli və çoxtərəfli əməkdaşlığımızı müzakirə etdik. Bir daha gördük ki, bütün məsələlərlə bağlı bizim fikirlərimiz üst-üstə düşür. Əminəm ki, bu səfər Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafı üçün önəmli addım olacaqdır. Biz bugünə qədər bir çox məsələləri birlikdə həll etmişik. Gürcüstan və Azərbaycan yaxın dost, qardaş ölkələrdir. Biz əsrlərboyu mehriban qonşuluq şəraitində yaşamışıq və bu gün uğurla inkişaf edirik. Bizim birgə həyata keçirdiyimiz layihələr həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmlidir. Yəni, biz çox uğurlu əməkdaşlıq formatı yarada bildik. Əminəm ki, növbəti illərdə bütün sahələr üzrə əməkdaşlıq daha da dərinləşəcək və genişlənəcək. Bunu bizim siyasi iradəmiz diktə edir. Əminəm ki, biz bütün məsələlərdə hər zaman bir-birimizin yanında olacağıq, bir-birimizə dəstək göstərəcəyik, necə ki, bugünə qədər bütün məsələlərdə həmişə bir yerdə olmuşuq. Biz bu gün artıq həm xarici siyasət məsələlərini, həm də regiondakı vəziyyəti, bizim nəqliyyat, enerji layihələrinin icrasını müzakirə etdik. Əlbəttə ki, indi bu məsələləri geniş tərkibdə, daha geniş formada müzakirə edəcəyik. Əminəm ki, bu səfərin nəticələri çox müsbət olacaq və bizim əməkdaşlığımıza yeni töhfə verəcək.

Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

**Gürcüstan Prezidenti Salome ZURABİŞVİLİ dedi:**

- Cənab Prezident, təşəkkür edirəm. Şadam ki, Azərbaycana gəlmişəm. Bu, mənim regionda birinci səfərimdir. Bizim qonşu və dost ölkə Azərbaycanda olmaqdan məmnunluq duyuram. Bizim əməkdaşlığımız bizim üçün çox əhəmiyyətlidir. İlk növbədə, bizi böyük tarix, ənənələr birləşdirir. Biz 100 il əvvəl birlikdə müasir dövlət qurmağa başladıq. Biz müstəqilliyimizi bərpa etdik. Vaxtilə bizim kiçik federasiyamız da var idi. Biz müstəqilliyimizi birlikdə itirdik, ağır illərdən keçdik, yaşadıq. Bunlar bizim dövlət quruculuğumuza təsir etdi. Biz öz müstəqilliyimizi yenidən birlikdə bərpa etdik. Biz son illər eyni faciələri yaşadıq. Bu gün də biz ölkə üçün ərazilərin işğalının nə demək olduğunu yaşayırıq. Ərazi bütövlüyü hələ bərpa olunmayıb. İşğal məsələsi bizim üçün hələ də açıq yara kimi qalır. Bu, bir tərəfdən bizim inkişafımıza mane olur, digər tərəfdən biz bunlara, bu faciələrə baxmayaraq, dövlətimizi, iqtisadiyyatı gücləndirməyə nail olduq. Bizim yolumuz müstəqillik yoludur və belə də davam edəcəyik. Bunlar böyük uğurlardır.

Şadam ki, buradayam. Çünki bizim həm keçmiş, həm də gələcək haqqında çox söhbətlərimiz var. Bizim regionumuz çox böyük perspektivlərə malikdir.

# Azərbaycanla Gürcüstanın səmərəli əməkdaşlığı qlobal layihələrin reallaşmasına böyük təkan verir





Fevralın 27-də geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti xanım Salome Zurabişvili mətbuata bəyanatlarla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli xanım Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, xanım Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Sizi bu yaxınlarda prezident seçkilərində qazandığınız qələbə münasibətilə bir daha təbrik edirəm. Çox şadam ki, seçkilərdən qısa müddətdən sonra Siz Azərbaycana səfər edirsiniz. Bu, onu göstərir ki, Siz ölkələrimizin əlaqələrinə çox böyük önəm verirsiniz. Biz də Azərbaycan-Gürcüstan əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk. Çox şadıq ki, bu əlaqələr uğurla, sürətlə inkişaf edir. Bugünkü səfər və apardığımız müzakirələr, danışıqlar bir daha onu təsdiqləyir ki, bizim əlaqələrimizin çox gözəl gələcəyi vardır.

Xalqlarımız əsrlərboyu bir-birinin yanında olmuşdur, bir yerdə olmuşdur. Biz həmişə dostluq, qardaşlıq şəraitində yaşamışıq. Bu gün də dostluq və qardaşlıq əlaqələrimiz bizim dövlətlərarası əlaqələrimiz üçün əsas amildir. Biz dövlətlərarası əlaqələri bu möhkəm təməl üzərində qururuq. Bu gün Gürcüstan və Azərbaycan bütün sahələrdə çox uğurla əməkdaşlıq edir.

Bizim siyasi əlaqələrimiz yüksək səviyyədədir, müntəzəm olaraq yüksək səviyyəli görüşlər keçirilir, məsləhətləşmələr aparılır. Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi daim dəstəkləyirik. Gürcüstan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda ərazi bütövlüyü məsələləri ilə bağlı daim həmrəylik göstərir və bir-birini dəstəkləyir.

Əlbəttə ki, əməkdaşlığımızın böyük hissəsi energetika sektoruna aiddir. Bu gün bu məsələlər də geniş müzakirə olundu. Bildirməliyəm ki, bu əməkdaşlığın böyük tarixi var və biz birgə səylərlə çox önəmli böyük layihələri icra edə bilmişik. Əgər tarixə bir qədər nəzər salsaq görərik ki, hələ 1990-cı illərin sonlarında Bakı-Supsa neft kəmərinin tikintisi böyük hadisə idi. Bu, imkan verdi ki, Xəzər dənizi Qara dənizlə neft kəməri ilə birləşsin. Ondan sonra, əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri tikildi. Bütün bunları, biz, yəni, üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə birgə səylərlə həyata keçirdik. Bu gün bu layihələr bizim iqtisadi inkişafımızı böyük dərəcədə artırır. Bu marşrut üzrə bu gün "Cənub qaz dəhlizi" layihəsi uğurla icra edilir. Bu, bölgədə ən böyük infrastruktur layihəsidir. "Cənub qaz dəhlizi"nin reallaşmasına az vaxt qalıb. Keçən il bu layihənin icrası ilə bağlı çox önəmli il olmuşdur. Keçən il "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimi olmuşdur və onun əsas hissəsini təşkil edən TANAP layihəsi də istifadəyə verilmişdir. Artıq TANAP xətti ilə qazın nəqli təmin edilir. Bu layihələr ölkələrimiz üçün, bölgə üçün böyük əhəmiyyət daşıyır, geniş mənada əməkdaşlığı dərinləşdirir. Əgər layihələrin əvvəlində üç ölkə əməkdaşlıq edirdisə, bu gün bu ölkələrin sayı böyük dərəcədə genişlənir və yeni tərəfdaşlar bu layihələrə cəlb edilir.

Biz bu gün, eyni zamanda, nəqliyyat sahəsində əməkdaşlığa böyük diqqət göstəririk və bu da danışıqların mövzusu olub. Bu layihələr də ölkələrimizə çox böyük fayda gətirir. İlyarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı nəticəsində indi ölkələrimizin ərazisindən keçən yüklərin həcmi artır və artacaqdır. Biz hələ bu layihənin icrasının birinci mərhələsindəyik, ancaq artıq bunun faydasını görürük və artan yükdaşımalar deməyə əsas verir ki, biz düzgün yoldayıq. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışından sonra Azərbaycan öz qonşuları ilə, Xəzərin şərq hissəsində yerləşən ölkələrlə çox fəal danışıqlar aparmışdır, razılığa gəlinmişdir. Əminəm ki, bu razılıq əsasında indi yükdaşımalar böyük dərəcədə artacaqdır. Bu, bizim ümumi layihəmizdir. Bu yeni dəhliz imkan verəcək ki, qitələr birləşsin. Yenə də burada Azərbaycan, Gürcüstan və Türkiyə - ənənəvi üçtərəfli əməkdaşlıq formatı əsas rol oynamışdır, indi isə əməkdaşlıq edən ölkələrin sayı artır.

Əlbəttə ki, bu gün bütün başqa məsələlərlə, o cümlədən humanitar, mədəniyyət, təhsil və turizm sahələrində əməkdaşlıqla bağlı geniş fikir mübadiləsi aparıldı.

Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar əlaqələrimizin inkişafı üçün çox önəmli rol oynayırlar. Gürcüstan və Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkələrdir. Bu, bizim böyük sərvətimizdir. Ölkələrimizdə yaşayan bütün xalqların nümayəndələri özlərini çox rahat hiss edirlər. Bu, ölkələrimizin bugünkü və gələcək inkişafı üçün çox önəmli amildir.

Şadam ki, xanım Prezident Azərbaycanın şimal-qərb bölgəsinə səfər edəcək, orada yerli vətəndaşlarla görüşəcək, o cümlədən gürcü əsilli vətəndaşlarla. Bu, əlbəttə ki, onlar üçün də çox mühüm hadisə olacaq. Əminəm ki, orada yaşayan digər xalqların nümayəndələri də buna çox sevinəcəklər. Eyni zamanda, ölkəmizin gözəl guşəsi ilə tanışlıq əminəm ki, Sizdə xoş təəssürat yaradacaqdır.

Bir sözlə, deyə bilərəm ki, bizim bütün sahələr üzrə əməkdaşlığımızın çox böyük perspektivləri, ən əsası isə güclü siyasi iradə var. Gürcüstan və Azərbaycan bundan sonra da bir-birini dəstəkləyəcək. Biz reallaşan layihələri bundan sonra da inkişaf etdirəcəyik və yeni layihələr haqqında düşünəcəyik. Əminəm ki, xalqlarımızın, dövlətlərimizin çox gözəl gələcəyi var. Bugünkü rəsmi səfər bizim əlaqələrimiz üçün çox böyük əhəmiyyət daşıyır.

Bir daha, hörmətli xanım Prezident, Sizi səmimiyyətlə salamlayıram. Sağ olun.

❖ ❖ ❖

Sonra Gürcüstan Prezidenti Salome Zurabişvili bəyanatla çıxış etdi.

### Prezident Salome Zurabişvilinin bəyanatı

- Təşəkkür edirəm, cənab Prezident.

Sizin bütün fikirlərinizlə razıyam. Sizin fikirləriniz mənə çox yaxındır. Biz həqiqətən hər bir sahə üzrə fikir mübadiləsi apardıq. Biz bir yerdə tarixi yol keçmişik. Biz coğrafi cəhətdən də yaxın qonşularıq və tarix də bizi birləşdirir. Son əsrlər ərzində birlikdə uğurlu yollar keçdik, faciələrdən keçdik. Bilirik ki, dövlət quruculuğu nə deməkdir, nə tələb edir. Bütün bunlar bizi birləşdirir. Çünki biz bütün faciələri birlikdə yaşadıq və yenə də irəliləyişə, inkişafa, mədəniyyət sahəsində tərəqqiyə nail ola bildik. Hər bir məsələdə çox yaxınlıq və dostluq hiss edirəm.

Biz ötən əsrin sonu və bu əsrin əvvəlində birlikdə energetika sahəsində həqiqətən çox irimiqyaslı layihələr həyata keçirdik. Biz bütün dünyaya göstərdik ki, bu region mərkəzi regiondur, bu dəhliz sabit dəhlizdir və bu regiona böyük investisiyalar qoymaq olar. İndi qarşımızda duran əsas məqsəd daha böyükmiqyaslı layihələri gündəmə gətirməkdir.

Nəqliyyat dəhlizi çox vacibdir və həqiqətən bizim əməkdaşlığımızın təməl daşıdır. Nəqliyyat bugünkü dünyada çox potensiallı sahədir. Nəqliyyat sahəsi dünya üçün çox əhəmiyyətlidir. Asiyanın, Çinin və Avropanın birləşdirilməsi çox mühüm məsələdir və biz bu yolla gedirik. Bu, ən qısa yoldur, lakin biz hələ bu yolun imkanlarını tam inkişaf etdirməmişik və bu, bizdən asılıdır. Siz Azərbaycan tərəfindən hansı işlərin görüldüyü barədə məlumat verdiniz. Siz Xəzər dənizi ilə bağlı əldə olunmuş razılaşmaları qeyd etdiniz. Bu dənizdə nəqliyyat tam inkişaf etdirilməlidir. Avropa İttifaqının dəstəyi ilə biz Qara dənizdəki imkanlar üzərində işləyirik. Rumıniya, Bolqarıstan və Gürcüstan limanları arasında əlaqələri və logistikanı Avropa İttifaqının dəstəyi ilə inkişaf etdirmək istəyirik. Biz bu istiqamətdə də ümumi investisiyalar cəlb etməyə hazırıq. Biz Azərbaycanla birlikdə bu imkanlardan sona qədər istifadə etməliyik. Bizim Çinlə, eyni zamanda, Avropa İttifaqı ilə azad ticarət sazişimiz var.

Cənab Prezidenti Batumi konfransına dəvət etdim. Bu, bizim tərəfdaşlığımızın və Avropa İttifaqının 10 illiyi konfransı olacaq. Yəqin ki, nəqliyyat məsələsi burada əsas mövzu olacaq və biz birgə baxışlarımızı nümayiş etdirə bilərik. Cənab Prezident təklif etdi ki, bizim nümayəndələrimiz Çində də təqdimat keçirə bilərlər. Bunlar bugünkü potensialımızın reallığa çevrilməsi və perspektivlərimiz üçün çox vacibdir. Əminəm ki, bu, nəinki perspektivdir, bu, bizim sabahımız üçün əhəmiyyətlidir.

Lakin əlaqələrimiz bununla məhdudlaşmır. Biz insan əlaqələrinə, mədəniyyətə, təhsilə böyük əhəmiyyət veririk və bu sahələr inkişaf etdirilməlidir. Bu sahələrdə əlaqələr hələ tam lazımi səviyyədə deyildir. Hər iki tərəf bu məsələlərdə öz səylərini daha da fəallaşdırmalıdır. Biz istərdik ki, insani münasibətlər hər iki tərəfdən daha da fəallaşsın. Bu, bizim qərarlardan asılı olacaq. Biz istəyirik ki, Gürcüstanda Azərbaycan mədəniyyət günləri keçirilsin və Batumidə artıq planlaşdırılıb. Biz buna mütəmadi forma verməliyik və müxtəlif sahələrdəki əlaqələrimiz mədəniyyət sahəsində də fəallaşmalıdır.

Biz Gürcüstanın tolerantlığını UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil etmək istərdik. Lakin bu, Qafqazda bizim ümumi dəyərimizdir. Biz buna Qafqaz xarakteri verə bilərik və bu, regionumuzdan dünyaya çox mühüm mesaj olacaq. Dünyanın bu dəyərlərə ehtiyacı var.

Bu gün turizmin inkişafı haqqında da fikir mübadiləsi apardıq. Turizm sahəsi də inkişaf etdirilməlidir. Bu məkan turistlər üçün tam açıq olmalıdır. Biz dostluğumuza əsaslanaraq belə qərara gəldik ki, delimitasiya komissiyasına öz işlərini yeniləmək və bu çalışmaları sona çatdırmaq üçün tapşırıq verək. Sərhəd də bizi birləşdirən amildir. Ümid edirəm ki, bu məsələ bizim dostluq əlaqələrimiz əsasında həll olunacaqdır.

Bütün bu sahələrdə əməkdaşlığa və bu səmimi qəbula görə cənab Prezidentə təşəkkür edirəm. İnanıram ki, bu, başlanğıcdır, yeni, daha sıx əlaqələrimizin başlanğıcıdır. Mən bu arzu və bu ümidlə çıxışımı bitirmək istərdim. Sağ olun.

# Azərbaycan şirkətləri Gürcüstan büdcəsinə ən çox vergi ödəyən şirkətlər sırasındadır





Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Prezidenti xanım Salome Zurabişvilinin şərəfinə rəsmi ziyafət verilib. AZƏRTAC xəbər verir ki, dövlət başçıları rəsmi ziyafətdə çıxış etdilər.

Gürcüstan Prezidentini salamlayan Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək dedi:

- Hörmətli xanım Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, xanım Prezident, Sizi və rəhbərlik etdiyiniz Gürcüstan nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və "Xoş gəlmisiniz!" deyirəm.

Azərbaycan və Gürcüstan xalqları əsrlərboyu dostluq və mehriban qonşuluq şəraitində yaşamışlar. Müstəqillik qazandıqdan sonra ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın iradəsinə uyğun olaraq strateji tərəfdaşlıq xarakteri almışdır. Azərbaycan ilə Gürcüstan arasındakı siyasi, iqtisadi və humanitar əlaqələr ən yüksək səviyyədədir. Gürcüstanın Prezidenti vəzifəsinə seçildikdən sonra xanım Salome Zurabişvilinin xarici ölkələrə ilk səfərləri sırasında Azərbaycana rəsmi səfəri ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirir.

Ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev iqtisadi sahədə də yaxşı nailiyyətlərimizin olduğunu vurğulayaraq dedi:

- Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşlarından və Gürcüstanda əsas investorlardan biridir. Azərbaycan şirkətləri Gürcüstan büdcəsinə ən çox vergi ödəyən şirkətlər sırasındadır. Birgə həyata keçirdiyimiz irimiqyaslı enerji layihələri - Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri enerji resurslarımızın nəqlinin şaxələndirilməsi və bunun üçün müasir infrastrukturun yaradılması baxımından çox əhəmiyyətli hadisələrdir. Bu gün icra etdiyimiz irimiqyaslı transmilli "Cənub qaz dəhlizi layihəsi" ölkələrimiz üçün böyük əhəmiyyət daşıyır. Hazırda uğurla icra edilən bu layihənin dörd elementindən üçü - "Şahdəniz-2", Cənubi Qafqaz Kəməri və TANAP layihələri başa çatdırılmışdır. Əlbəttə ki, enerji əməkdaşlığı layihələri digər sahələrdəki əlaqələrimizdə də çox mühüm rol oynayır.

Mən xüsusilə nəqliyyat sahəsindəki əməkdaşlığımızı qeyd etmək istərdim. 2017-ci ildə açılışını etdiyimiz Bakı-Tbilisi-Qars dəmir yolu tarixi əhəmiyyətə malikdir. Qitələri birləşdirən bu dəmir yolu Azərbaycanın və Gürcüstanın tranzit potensialını böyük dərəcədə genişləndirir. Bu gün artıq Bakı-Tbilisi-Qars dəmir yolu ilə göndərilən yüklərin həcmində artım hiss olunmaqdadır.

Ölkələrimizin beynəlxalq təşkilatlarda da sıx əməkdaşlıq etdiklərini bildirən Prezident İlham Əliyev Azərbaycan ilə Gürcüstanın hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini də dəstəklədiklərini vurğulayaraq dedi:

- Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü, ölkəmizin Dağlıq Qarabağ regionunun və ətraf yeddi rayonunun hərbi işğal altında saxlanması regional sülh və təhlükəsizliyə ciddi təhdiddir. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası və Baş Məclisi, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, NATO, Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı qətnamə və qərarlarda Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, münaqişənin məhz bu prinsiplər əsasında həllinə qəti dəstək ifadə olunmuşdur. Keçən il Azərbaycan və Avropa İttifaqı arasında paraflanmış "Tərəfdaşlıq Prioritetləri" sənədində də Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı dəstəklənmişdir.

Prezident İlham Əliyev ölkələrimiz arasında sıx əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyini bildirərək dedi:

- Bu gün ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın inkişafı üçün digər sahələrdə də - turizm, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, elm, təhsil, mədəniyyət sahələrində də yaxşı imkanlar və perspektivlər mövcuddur.

Hörmətli xanım Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram, Sizə cansağlığı, işlərinizdə uğurlar, ölkənizə və xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

❖❖❖

Gürcüstan Prezidenti xanım Salome Zurabişvili çıxış edərək dedi:

- Cənab Prezident.

Hörmətli qonaqlar.

İcazə verin, səmimi qəbulunuz və qonaqpərvərliyiniz üçün Sizə minnətdarlığımı bildirim. Sizin bu cür qəbulunuz bizim millətlərə xas olan qonaqpərvərliyin sübutudur. Bu, Qafqaz mədəniyyətinin əlaməti və dəyişməz ənənəsidir.

Bugünkü səfər bir daha Gürcüstan ilə Azərbaycan arasında mövcud olan mehriban qonşuluq və dostluq münasibətlərini nümayiş etdirir.

Azərbaycanın böyük tarixi şəxsiyyətini - Əli bəy Hüseynzadəni xatırlamaq istərdim. O, Azərbaycanın "Türkləşmə, islamlaşma və avropalaşma" adlı dirçəliş proqramının müəllifidir.

Biz gürcülər üçün isə belə qəhrəman İlya Çavçavadzedir. O, "Vətən, dil, din" kəlamını bizim milli şüarımıza çevirərək avropalaşma ideyasını təbliğ edirdi.

Gürcülər və azərbaycanlılar azadlığa və dövlət quruculuğuna gedən yolu birlikdə keçiblər. Bu yol bu gün artıq bizim ümumi məqsədlərimizi müəyyən edir.

Gürcüstan Prezidenti Salome Zurabişvili hazırda müstəqil ölkələrimizin qarşıda duran vəzifələrin həlli üçün ardıcıl iş gördüklərini vurğulayaraq dedi:

- Münaqişələr və ərazi bütövlüyünün pozulması hər iki ölkənin faciəsidir. Bu gün biz öz suverenliyimizin və ərazi bütövlüyümüzün tanınması və bərpası üçün BMT-dən UNESCO-ya qədər beynəlxalq təşkilatlarda birlikdə mübarizə aparırıq. Bu faciələrə baxmayaraq, biz müasir dövlətlər qurmağa, iqtisadiyyatı inkişaf etdirməyə və böyük layihələri icra etməyə nail olduq.

Gürcüstan Prezidenti hazırda Azərbaycan, Gürcüstan və Türkiyənin böyük regional layihələrin uğurla reallaşdırılması üçün birgə səylərini davam etdirdiklərini bildirərək dedi:

- Bizim ölkələrimiz Asiya və Avropanı, Çini və Qərbi, Xəzər dənizini və Qara dənizi bir-birinə birləşdirən yollar üzərində yerləşirlər. Bu nəqliyyat dəhlizlərinə maraq gündən-günə artmaqdadır. Bu yolların maksimal dərəcədə yüklənməsi və lazımi dərəcədə əhəmiyyət kəsb etməsi üçün bizim regionda sabitliyin və sülhün qorunub saxlanılması olduqca vacib məsələdir. Hamımıza daha çox investisiya, tərəfdaş, turist, bazarlar lazımdır, bütün bunların hamısı isə bizim sabitliyimizdən asılıdır.

Prezident Salome Zurabişvili Azərbaycan ilə Gürcüstanın mədəniyyət sahəsində də uğurla əməkdaşlıq etdiklərini vurğuladı. Ölkələrimizin sənaye sahəsində də sıx əməkdaşlıq etdiklərini bildirən Gürcüstan Prezidenti dedi:

- Unutmayaq ki, neft sənayesinin tarixi bizim regionun əmin-amanlıq tarixidir. Onu yeni üslubda oxumaq və dünya üçün təqdim etmək millətlərimizə ancaq xeyir gətirəcək və yalnız münaqişələr prizmasında görünən regionumuz haqqında səhv təsəvvürləri dəyişəcəkdir.

Mədəniyyət və iqtisadiyyat sahələrində çoxlu layihələr mövcuddur, onlar ölkələrimizi, xalqlarımızı, gənclərimizi daha yaxın edə bilər.

Prezident Salome Zurabişvili ölkələrimizin paytaxtları arasında da fəal mübadilələr aparıldığını qeyd edərək bildirdi:

- Sizin ölkənizin ənənəvi əl işləri sənətkarlarını, rəssamları, bəstəkarları, yazıçıları tanıtmaq, aktual məsələlər haqqında forumlar keçirmək lazımdır. Məsələn, ətraf mühitin qorunması. Çünki Qafqazın bioloji cəhətdən şaxələnmiş flora və faunasını qorumaq məhz bizim öhdəmizə düşür. Bunun üçün həm beynəlxalq təşkilatlarda, həm dünya konfranslarında fəal olmalıyıq. Gənclərin bu istiqamətdə məsuliyyətini artırmaq, yeni yanaşmaları tətbiq etmək çox səmərəli birləşdirici amilə çevrilə bilər.

Gürcüstan Prezidenti bildirdi ki, ölkələrimizdə yaşayan etnik gürcülər və azərbaycanlılar bizi daha da yaxın edirlər. Prezident Salome Zurabişvili ölkələrimizin bundan sonra da qarşıda duran vəzifələrin həlli üçün səylərinin birləşdirməsinin vacibliyini vurğulayaraq dedi:

- Arzu edirəm ki, birgə səylərimizlə, böyük və yaxud kiçik qonşularımızın müsbət yanaşmaları ilə ölkələrimizin ərazi bütövlüyünə nail olaq. Mədəniyyətlərin və sivilizasiyaların ən maraqlı yol kəsişməsində yerləşən regionumuzda sülhün və sabitliyin möhkəmlənməsi əsas şərtdir. Dünya qarşısında onun nadirliyini qorumaq bizim borcumuzdur.

## Dominikan Respublikasının Prezidenti zati-aliləri cənab Danilo Medinaya

Hörmətli cənab Prezident!

Dominikan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

## Gürcüstan Prezidenti Salome Zurabişvili ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



Azərbaycanda rəsmi səfərdə olan Gürcüstan Prezidenti xanım Salome Zurabişvili fevralın 27-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, Gürcüstan dövlətinin başçısı görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini anıb, məzarı üzərinə tər güllər düzüb.

## Şəhidlərin xatirəsinə ehtiram



Gürcüstan Prezidenti xanım Salome Zurabişvili fevralın 27-də Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Salome Zurabişvili Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad etdi, "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Gürcüstanın və Azərbaycanın Dövlət himnləri səsləndi.

Azərbaycan paytaxtının mənzərəsini maraqla seyr edən Gürcüstan Prezidentinə Şəhidlər xiyabanının tarixi və Bakıda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

## Prezidentin sosial tədbirləri əhalinin bütün təbəqələrini əhatə edir

*Əvvəli 1-ci səh.*

Belə əhəmiyyətli tədbirlərdən biri minimum əməkhaqqının 38 faiz artırılması, yəni 130 manatdan 180 manata çatdırılması oldu. Bu, 600 min nəfər insanı əhatə etdi. Minimum pensiyaların məbləği 116 manatdan 160 manata çatdırıldı. Bu da təxminən 38 faiz artım deməkdir. Lakin dövlət bunu son hədd hesab etmir. Əməkhaqqı və pensiyaların artırılması daim gündəmdə saxlanan məsələdir. Bu da göstərir ki, gələcəkdə minimum əməkhaqqı və pensiyalar ardıcıl olaraq artırılacaq.

Erməni təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşmüş məcburi köçkünlərin, şəhid ailələrinin, müharibə əlillərinin qayğı və problemləri də daim dövlətin diqqət mərkəzindədir. Keçən il 5900 məcburi köçkün ailəsi mənzil, yaxud evlə təmin edilib. Bu il isə həmin rəqəm əvvəlkindən böyük olacaq. Artıq müvafiq göstərişlər də verilib. Bakı və Sumqayıt şəhərlərində, eləcə də bölgələrdə bu istiqamətdə geniş inşaat işləri həyata keçiriləcək.

Hazırda 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilir və bu proqram ilin sonuna qədər tam icra olunacaq.

Bu il şəhid ailələrinə, eləcə də 800 mənzil veriləcək ki, bu da keçənilkindən çoxdur.

Prezident İlham Əliyevin 25 fevral 2019-cu il tarixli "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamı dövlət başçısının daha bir humanist addımıdır. Bu sərəncam 576,8 min nəfərə yönəldilən sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması, eləcə də həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədini daşıyır. Məsələn, sosial müavinətlərin məbləğinin yaşa görə 130, birinci qrup əlilliyə görə 150, ikinci qrup əlilliyə görə 130, üçüncü qrup əlilliyə görə 110 manata çatdırılacağı nəzərdə tutulur. Sərəncama əsasən, sağlamlıq imkanları məhdud olan 18 yaşınadək uşaqlar ayda 150, ailə başçısını itirməyinə görə ailə üzvlərinin hər biri 80 manat alacaqlar. Müavinətlərin artırılması eləcə də valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına, müddətli hərbi xidmət qulluqçularının uşaqlarına da aiddir. Beşdən çox uşağı olan qadınların hər uşağa görə, uşağın anadan olmasına görə, habelə dəfn üçün ödənilən sosial müavinətlərin də artırılacağı nəzərdə tutulur.

Sözügedən sərəncamla Prezidentin təqaüdü ilə təmin edilənlərin əhatə dairəsi də genişlənəcək. Bir sözlə, dövlət başçısının sosial islahatlar paketi əhalinin bütün təbəqələrini əhatə edir.

Artımların edilməsi üçün normativ hüquqi aktların layihələri hazırlanaraq 15 gün müddətində dövlət başçısına təqdim olunacaq. Qeyd olunan müavinət və təqaüdlərin bu il aprelin 1-dən artırılması nəzərdə tutulur. Həmin artımlar üçün bu ilin 9 ayında əlavə olaraq 300 milyon manat, illik isə əlavə olaraq 400 milyon manat vəsait ayrılacaq.

Bütün bunlar göstərir ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial inkişafı baxımından xüsusilə fərqlənən il olacaq. Bunlar həm də vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin ardıcıl xarakter daşıdığının göstəricisidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycanın Baş naziri və Gürcüstanın Prezidenti birgə işçi nahar ediblər



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov və ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti xanım Salome Zurabişvili fevralın 27-də birgə işçi nahar ediblər.

AZƏRTAC xəbər verir ki, səmimi söhbət zamanı Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## *Gürcüstan Prezidenti:* "Regionda ilk səfərimi Azərbaycana etdiyimə görə çox şadam"

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov fevralın 27-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti xanım Salome Zurabişvili ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, ölkələrimiz arasında münasibətlərdən danışan Oqtay Əsədov Azərbaycan-Gürcüstan əlaqələrinin çox qədim tarixə malik olduğunu deyib. Parlamentin Sədri bildirib ki, əsrlərboyu ölkələrimiz və xalqlarımız arasında mehriban qonşuluq münasibətləri olub. Bu münasibətlər o dərəcədə inkişaf edib ki, müstəqilliyimizi bərpa edəndən sonra əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsinə çatıb.

Prezident Salome Zurabişvilinin bu səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcəyini vurğulayan Oqtay Əsədov Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə reallaşdırılan enerji və nəqliyyat layihələrinin əhəmiyyətindən danışıb.



*Foto F.BAĞIROVUNDUR*

Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişaf etdiyini deyən Milli Məclisin Sədri deyib ki, 2018-ci ildə ticarət dövriyyəmiz 580 milyon dollar olub. Biz şadıq ki, Azərbaycan Gürcüstanın ən böyük investorlarından biridir. Biz çoxlu sayda biznes forumlar keçirmişik ki, bunların da iqtisadiyyatımızın inkişafına böyük töhfələri var.

Oqtay Əsədov əlavə edib ki, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələri də yüksək səviyyədədir. Hər iki parlamentdə dostluq qrupları fəaliyyət göstərir. Sədr vurğulayıb ki, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü dəstəkləyir.

Gürcüstan Prezidenti Salome Zurabişvili Prezident kimi regionda ilk səfərini məhz Azərbaycana etdiyinə görə şad olduğunu deyib. Dövlət başçısı bildirib ki, Gürcüstan ilə Azərbaycanın dostluğunun qədim tarixi var. Əsrlərboyu mövcud olan dostluq əlaqələrimiz indi də davam edir. 2018-ci ildə ölkələrimiz müstəqilliyinin 100 illiyini qeyd etdi. Ancaq bu yüz ildə xalqlarımız çoxlu faciələr də yaşayıb. Dost ölkələrimiz müstəqilliyini yenidən bərpa edərək onu daha da möhkəmləndirib. İndi bizim güclü ölkələrimiz var.

Gürcüstan Prezidenti bildirib ki, parlamentlər səviyyəsində əlaqələrin daha da dərinləşməsi dövlətlərarası münasibətlərin inkişafına müsbət təsirini göstərir.

Prezident Salome Zurabişvili Azərbaycanın təşəbbüsü və liderliyi, Gürcüstanın fəal iştirakı ilə reallaşan enerji layihələrinin əhəmiyyətini xüsusi vurğulayıb. Qeyd edib ki, hər iki ölkənin əlverişli coğrafi mövqeyi nəzərdə tutulan proqramların həyata keçməsi üçün önəmli amillərdən biridir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb





Fevralın 27-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Gürcüstan Prezidenti Salome Zurabişvilini Azərbaycanda görməkdən məmnunluğunu bildirən Birinci vitse-prezident Mehriban Əliyeva bu səfərin dost ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Azərbaycana səfərindən şad olduğunu deyən Prezident Salome Zurabişvili burada keçirilən görüşlərin əlaqələrimizin inkişafı baxımından əhəmiyyətini qeyd etdi. Görüşdə ölkələrimiz arasında müxtəlif sahələr üzrə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Gürcüstan Prezidenti Salome Zurabişvili AZƏRTAC-a və AzTV-yə məxsusi müsahibə verib

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Gürcüstan Prezidenti Salome Zurabişvili fevralın 27-də Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC-a) və Azərbaycan Televiziyasına məxsusi müsahibə verib.

*- Xanım Zurabişvili, ilk növbədə, Sizə minnətdarlığımızı ifadə etmək istəyirik. Bilirik ki, iş qrafikiniz gərgindir və bir daha təşəkkür edirik. İlk növbədə, ikitərəfli münasibətlərdən başlamaq istərdik. Siz Cənubi Qafqaz regionunun iki dost dövləti olan Azərbaycan və Gürcüstan arasındakı hazırkı ikitərəfli münasibətləri necə dəyərləndirirsiniz?*

- Mükəmməl, mükəmməl, mükəmməl. Münasibətlərimiz tarixən mükəmməl olub. Çünki biz bu regionda olan və oxşar tarixi yaşayan iki ölkəyik. Eyni çətinliklərlə üzləşmişik, bir-birimizlə problemimiz olmadan eyni iğtişaşları və bəzən eyni faciələri yaşamışıq. Əksinə, bu çətin, lakin maraqlı vaxtlarda bir-birimizə dəstək olaraq bir-birimizdən güc almışıq. Münasibətlərimiz ona görə mükəmməldir ki, yaxın tariximiz çox maraqlı olub və bu müddətdə biz bütün region üçün mühüm olan, lakin, eyni zamanda, regionla məhdudlaşmayan bir sıra layihələrə imza atmışıq.

Energetika sahəsi əməkdaşlığımızda mühüm yer tutur. Bu, çox uğurlu əməkdaşlıq olub. Heç kəsin buna inanmadığı halda, biz Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərini və digər layihələri reallaşdıra bildik. Bu, böyük bir uğur hekayəsidir. Artıq bu layihənin tərəfimizdən tamamlanması əməkdaşlığımızın bitdiyi anlamına gəlmir. Münasibətlərimiz həm də ona görə mükəmməldir ki, biz bu gün iki ölkə arasında yeni perspektivləri də müzakirə etdik. Bu perspektivlər iki ölkə sərhədlərindən kənara da çıxır. Çünki biz elə bir regionda yerləşirik ki, bir çox nəqliyyat və ticarət xətləri buradan keçir. Regionda yeni mühüm bir layihəni ərsəyə gətirmək üçün bizim mövqelərimiz üst-üstə düşür. Mən həm Xəzər dənizini, həm Qara dənizi, həm də Şərq və Qərbi əhatə edən daha geniş coğrafiyanı nəzərdə tuturam. Bu, çox çətin, amma ümidverici bir layihədir. Düşünürəm ki, məhsuldar və dost münasibətlərimiz bizə bu kimi iddialı layihələrin öhdəsindən gəlmək imkanı verəcək. Hər iki ölkə çox iddialıdır.

*- Azərbaycan və Gürcüstan müxtəlif beynəlxalq təşkilatlarda və regional formatlarda fəal əməkdaşlıq edir. İki ölkə arasındakı siyasi əlaqələrin indiki səviyyəsi beynəlxalq müstəvidə mövqelərimizin dəstəklənməsində hansı rolu oynayır?*

- Biz beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birimizə dəstək olmuşuq, işğal edilmiş ərazilərlə, ərazi suverenliyi və bütövlüyü ilə bağlı qarşılıqlı mövqelərimizi dəstəkləmişik. Bir daha deyim ki, bu, bizim ortaq faciəmizdir. Lakin, eyni zamanda, ümid edirik ki, bir gün biz öz ərazi bütövlüyümüzü bərpa edə biləcəyik. Bu, bizim əhalimiz üçün, işğal olunmuş ərazilərin sərhədlərinin hər iki tərəfində yaşayan insanlar üçün çox ağrılı bir prosesdir. Lakin, bu, eyni zamanda, bizim ölkələr üçün çağırışdır. Biz çağırışı adladıq, ona müqavimət göstərdik və bütün bunlara baxmayaraq, bir-birimizə dəstək olmaqla iqtisadiyyatlarımızın inkişafına nail ola bildik, güclü və müstəqil dövlət qura bildik. Hər kəsin bu hadisələrin ölkələrimizə mənfi təsir göstərdiyini düşündüyü bir halda, biz uğurlu transformasiyanı apara bilmişik. Bu, bizim nəzarət etmədiyimiz uğur deyil. Bizim ərazi bütövlüyümüz məsələsi həmişə böyük problem olaraq qalmaqdadır. Lakin, eyni zamanda, bizim dövlətlərimiz bütün planlaşdırdıqlarına nail ola bilmişdir. Bir daha qeyd edirəm ki, biz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləməyə davam edəcəyik. Lakin biz daha çoxunu edə bilərik. Biz nəinki bu iddiaları qarşılıqlı şəkildə dəstəkləyə bilərik, eyni zamanda, bu beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı şəkildə müsbət məsələləri də müdafiə edə bilərik. Bu məsələlərdən biri ətraf mühitin mühafizəsidir. Hər iki dövlət Qafqazın bir region kimi təqdim etdiyi sərvətləri qorumalıdır. Bu regionun florası və faunası bütün dünya üçün mühüm əhəmiyyət kəsb edir. Bu regionda biomüxtəlifliyin qorunması çox vacibdir. Hesab edirəm ki, beynəlxalq konfranslarda üzərimizə götürə biləcəyimiz bəzi mövqeləri paylaşmaqla biz daha çox iş görə bilərik və bu baxımdan eyni mövqeləri müdafiə etmək üçün daha güclü olmalıyıq.



*- Cənubi Qafqaz regionu həll olunmamış münaqişələrdən əziyyət çəkir. Azərbaycan və Gürcüstan bir-birinin ərazi bütövlüyünü dəstəkləyir. Münaqişələrin beynəlxalq hüququn normaları çərçivəsində tənzimlənməsi üçün indiki imkanları necə qiymətləndirirsiniz?*

- Bugünkü perspektivlərin necə olması bizim əsas problemimizdir. Düşünürəm ki, bu gün sizin perspektivləriniz bizimkindən daha yaxşıdır. Çünki sizin irəliləyiş əldə edə bilməyiniz üçün bəzi əlamətlər var. Gürcüstanın Qafqazda hər iki ölkə ilə münasibətləri var. Əgər Gürcüstan rol oynaya bilsə biz hər zaman yardım etməyə hazırıq, çünki regionumuzda sülh bizim hamımız üçün olduqca vacibdir. Siz, həmçinin bilirsiniz ki, Gürcüstanda Gürcüstan vətəndaşları kimi yaşayan hər iki ölkədən olan insanlar var. Sülhün olması bizim üçün çox mühüm əhəmiyyət kəsb edir. Biz hər zaman öz ərazimizdə bu xalqlar arasında sülhün saxlanılmasına müvəffəq olmuşuq. Hər zaman heç bir münaqişənin ölkəyə daxil olmamasına müvəffəq olmuşuq. Düşünürəm ki, bu, Gürcüstan üçün böyük əhəmiyyət kəsb edir. İrəliləyişi görmək və ona yardım etmək Gürcüstan üçün çox vacibdir. Bizim tərəfdəki münaqişəyə, işğal olunmuş ərazilərə gəlincə, orada hələ ki işğal siyasətinə yenidən nəzər salmaq və ya getdikcə çox ağırlaşan bu siyasəti yumşaltmaq istiqamətində heç bir əlamət nümayiş etdirməyən güclü bir ölkə var. Biz hər gün insanlarla birgə sərhədlərin çəkildiyini görürük. Bu, çox mürəkkəb bir vəziyyətdir. Bizim əlimizdə çox imkan yoxdur, çünki diplomatik əlaqələrimiz mövcud deyil. Ona görə də biz daha çox tərəfdaşlarımıza, Qərb tərəfdaşlarımıza arxalanırıq ki, bu məsələni rusların diqqətinə çatdırsınlar və onları öz öhdəliklərinə əməl etməyə çağırsınlar. Eyni ilə Azərbaycan da Rusiyaya belə bir mesaj verə bilər ki, qonşuları ilə sülh və qarşılıqlı hörmət münasibətlərinin olması Rusiyanın özü üçün daha yaxşı olar. Bütün region, bəlkə də Rusiya daha yaxşı yaşayar.

*- Xanım Prezident, Azərbaycan və Gürcüstan Cənubi Qafqaz və Xəzər hövzəsi regionunda həyata keçirilən bir çox layihələrdə yaxından iştirak edir. Siz ölkələrimizin energetika və nəqliyyat sahələrində həyata keçirilən birgə layihələrdə iştirakını və həmin layihələrin perspektivlərini necə görürsünüz?*

- Düşünürəm ki, qeyd etdiyim kimi, perspektivlər mükəmməldir. Hazırda bu layihələrə bizim kənar qonşularımızın böyük marağı var. Bunlardan biri Avropa İttifaqıdır. İyulda Batumidə mühüm konfrans keçirəcəyik. Burada əsas diqqət Qara dənizin hər iki tərəfində böyük inkişafın imkanlarından biri kimi nəqliyyat məsələlərinə yönələcək. Bu mənada Xəzər dənizinin bir hissəsi çox mühümdür. Çünki biz nəqliyyat barədə danışırıqsa, bu o deməkdir ki, biz bütün dəhlizləri - orta dəhlizi və Qara dəniz boyunca dəhlizləri birləşdirməliyik. Düşünürəm ki, bu, XX əsrdəki Bakı-Tbilisi-Ceyhanın XXI əsrdəki ekvivalentidir. Hər ikisi inqilab və çox böyük inkişafdır. Düşünürəm ki, perspektivlər mükəmməldir, bütün tərəfdaşlarımızda - Türkmənistanda, Qazaxıstanda buna böyük maraq var. Xəzər dənizi ilə bağlı razılaşmanın əldə olunması çox yaxşı əlamətdir. Öz tərəfimizdən limanlarımız inkişaf etdirilir, biz üçüncüsünü inşa edirik. Qonşu ölkələrin Qara dənizin digər tərəfinə olan marağı da çox yüksəkdir. Beləliklə, perspektivlər yaxşıdır. Sözsüz ki, bunun üçün bizim regionda sabitliyə ehtiyacımız var. Ən vacibi budur. Bu gün sülh və sabitlik bizim əsas üstünlüyümüzdür, müsbət üstünlüyümüzdür. Biz bunu qoruyub saxlamalı və inkişaf etdirməliyik.

*- Xanım Zurabişvili, bu gün iki qonşu və dost dövlətin qeyri-enerji, xüsusən də turizm sahəsində əlaqələrini dərinləşdirmək üçün böyük potensial var. Sizcə, qeyri-enerji sahəsində prioritetlərimiz hansılar olmalıdır və bu məsələdə ikitərəfli əməkdaşlığın gələcəyini necə görürsünüz?*

- İkitərəfli əməkdaşlıq üçün imkanlar çox genişdir və hələ də kəşf etmədiyimiz sahələr çoxdur. Biz diqqəti əsasən enerji sahəsinə cəmləmişik. Lakin düşünürəm, mədəniyyət də bizim kimliyimizin, Qafqaz kimliyinin əsas tərkib hissəsidir. Hesab edirəm, cəmiyyətlər və mədəniyyətlər arasında mübadilə sahəsində hələ arzuolunan səviyyəyə çatmamışıq. Bu il biz Batumidə "Azərbaycan günləri" keçirməyi planlaşdırırıq. Bu, çox vacib tədbir olacaq. Tədbiri Tbilisidə də keçirməyi nəzərdə tuturuq. Bu məsələləri biz Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə müzakirə etmişik. O, mənim təklif etdiyim bəzi təşəbbüsləri, o cümlədən mədəniyyətlərarası mübadilələrlə bağlı təşəbbüsləri çox böyük maraqla qarşıladı. Həmçinin UNESCO kimi təşkilatlar çərçivəsində Qafqazın təmsilçiləri olaraq birgə təşəbbüslərimiz olsa, fəaliyyətimizi daha səmərəli təşkil edə bilərik. Hətta Ermənistanı da buraya əlavə edə bilərik. Çünki mədəniyyət elə bir sahədir ki, orada hər şey mümkündür. Mədəni kimliyimizi birgə inkişaf etdirməklə bağlı maraqlı perspektivlər də çoxdur. Turizm isə xalqlararası əlaqəni gücləndirməyin digər bir vasitəsidir. Bilirsiniz ki, Gürcüstanda turizmlə bağlı güclü inkişaf olub. Biz müxtəlif vasitələrlə bu inkişafı qonşu ölkələrlə bölüşə və beləliklə, Qafqazı bütün gözəlliklərin vəhdətdə olduğu bir yerə çevirə bilərik.

*- Ölkələrimiz arasında humanitar sahədə əlaqələrin daha da yüksək səviyyəyə çatdırılması üçün hər hansı layihələrin həyata keçirilməsi planlaşdırılırmı?*

- Bu, elə mənim dediyim məsələdir. Birbaşa mədəni mübadilələr çox vacibdir. Hər iki tərəf xalqlararası anlaşmanı gücləndirmək istiqamətində sərgilər, konsertlər və müxtəlif mədəni tədbirlər təşkil etməlidir. Biz, həmçinin tələbə mübadiləsi istiqamətində çox çalışmalıyıq, çünki bu sahədə istənilən səviyyəyə çatmamışıq. Biz kiçik bir regionda yaşayırıq. Uzun müddətdir ki, biz çox yaxın qonşularıq və dövlətlərimiz arasında dostluq münasibətləri mövcuddur. Təbii ki, cəmiyyətlərimiz arasında da bu münasibətlərin inkişafına çalışmalıyıq.

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



Gürcüstanın Prezidenti xanım Salome Zurabişvili fevralın 27-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Gürcüstanın Prezidenti Salome Zurabişvilini Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Nadir Hüseynov və digər rəsmi şəxslər qarşıladılar.

# Qaraçay-Çərkəz Respublikasında Qafqaz Xalqları Ali Dini Şurasının növbəti iclası keçirilib

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə fevralın 27-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasında səfərdə olub.

Bu barədə AZƏRTAC-a Qafqaz Müsəlmanları İdarəsinin mətbuat xidmətindən məlumat verilib.

Çerkesskə səfər çərçivəsində QMİ sədri A.Paşazadə Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezov tərəfindən qəbul edilib. Görüşdə respublika rəhbəri Azərbaycana bu yaxınlarda etdiyi səfərin xoş təəssüratlarını bölüşüb.

Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezova çatdıran A.Paşazadə xalqlarımız arasında qarşılıqlı görüş və səfərlərin böyük önəm daşıdığını, ölkələrimiz arasında dostluq, qardaşlığın dərinləşməsinə, həyatın bütün sahələrində, o cümlədən iqtisadi və mədəni-mənəvi müstəvilərdə əlaqələrin inkişafına xidmət etdiyini vurğulayıb. Fevralın 26-da Azərbaycanda Xocalı soyqırımının 27-ci ildönümünün geniş şəkildə qeyd olunduğunu deyən A.Paşazadə XX əsrdə erməni ekstremistləri tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımı cinayətinin dünyada tanıdılmasının vacibliyinə diqqət çəkib.

Qaraçay-Çərkəz Respublikasının başçısı R.Temrezov QMİ sədri A.Paşazadəni Şimali Qafqaz və Azərbaycan xalqları arasında sülhün möhkəmləndirilməsi, dinlərarası münasibətlərin inkişafı və dostluğun dərinləşdirilməsi işinə verdiyi şəxsi töhfələrinə görə "Qaraçay-Çərkəz Respublikası qarşısında xidmətlərinə görə" ordeni ilə təltif edib.

Şeyxülislam A.Paşazadə Çerkessk şəhərində sədri olduğu Qafqaz Xalqları Ali Dini Şurasının (QXADŞ) növbəti toplantısının keçirilməsi barədə respublika rəhbərinə məlumat verib və bildirib ki, budəfəki toplantı Şimali Qafqaz müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyevin anadan olmasının 65 illik yubileyinə həsr olunub. Şimali Qafqaz müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri İsmayıl Berdiyev görüşdə iştirak edib.

Daha sonra Çerkessk şəhərində QXADŞ-nın növbəti iclası keçirilib. İclasda QMİ sədri A.Paşazadə Şimali Qafqaz müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyevi anadan olmasının 65 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edib, bütün Qafqaz müsəlmanları, bölgə dindarları adından ona cansağlığı, uzun ömür və dəyərli fəaliyyətində yeni uğurlar arzulayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yubilyara təbrik məktubunu oxuyan Şeyxülislam A.Paşazadə təbriknaməni müftiyə təqdim edib.

QXADŞ-nın üzvləri olan Şimali Qafqaz müftiləri adından Şimali Osetiya-Alaniya Müftisi Hacımurat Qatsalov, habelə Bakı və Azərbaycan Arxiyepiskopu Aleksandr çıxış edərək müfti İ.Berdiyevin dini lider və Əlaqələndirmə Mərkəzinin sədri qismində fəaliyyətini yüksək qiymətləndirib, ona gələcək işlərində uğurlar diləyiblər.

Azərbaycan nümayəndə heyətində təmsil olunan Milli Məclisin deputatı Hüseynbala Mirələmov müfti İsmayıl Berdiyevin Azərbaycan və Qaraçay-Çərkəz xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsi işinə verdiyi töhfələri hər iki xalqın yüksək dəyərləndirdiyini bildirib, yubilyara ümumqafqaz əhəmiyyətli fəaliyyətində yeni nailiyyətlər diləyib.

İclasda QXADŞ-nın bu ilin yanvarında Vladiqafqazda keçirilən toplantısından sonrakı dövrün hesabat məruzəsi ilə şuranın sədri Şeyxülislam A.Paşazadə çıxış edib.

Şuranın iclasında, həmçinin cari məsələlər, Qafqaz xalqlarının qarşılıqlı dostluq, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində atılan addımlar müzakirə edilib.

Qaraçay-Çərkəz Respublikasına səfərdə Azərbaycan nümayəndə heyəti tərkibində Milli Məclisin deputatları H.Mirələmov, C.Paşazadə və H.Məmmədov iştirak ediblər.

Səfər başa çatıb.

# Biz niyə beləyik?!.

**Daş kimi asılmış bu sualın ağırlığı aylardır ki, ürəyimdə qövr edir...**

**Ərkin, gileyin, umu-küsünün, məzəmmətin, bir qədər də utancın aynasında görünən həyat mənzərələri hərdən əhdimi kəsir, qəlbimdəki yükü yeganə təsəllim olan qələm-kağızla az da olsa, yüngülləşdirməyə sövq edir.**

**Fikirlərimi sizinlə bölüşüb, sualıma cavab tapmaq istəyirəm...**

**Əminliyim budur ki, yazıya çevrilmiş narahatlığa, bu giley-güzara siz də şərik çıxasınız...**

Düşüncələrimdə bu sualla birgə yüz illər əvvəl ona cavab axtaran ürəyi nisgilli, əli qələmli ziyalılarımızın ***oyaq vicdanı, fədakarlığı, yorulmazlığı*** qədər parlaq nümunələr də var.

Onlar da heç o iddiada deyildilər ki, hamı onların yazdıqlarını oxuyacaq, düşünəcək, nəticə çıxaracaq...

Amma yenə yazırdılar...

Yazırdılar ki, bu sual təkcə bir müəllifin yox, onunla qarşılaşan minlərlə oxucunun narahatlığına çevrilsin...

Hərə öz payını götürsün, özünü və cəmiyyəti müsbətə doğru dəyişməkdən ötrü xeyirli yol arasın və beləliklə, düşüncələrdə işarıb əməllərə sirayət edən zərrələrdən bir **Günəş doğsun...**

Mənim də yeganə umacağım - bəlkə də elə o **Zərrəyədir...**

❖ ❖ ❖

*Ömrün müxtəlif məqamlarında qarşımıza çıxıb bizi bu böyük sualla üz-üzə qoymuş həyat anları bitməz-tükənməz... Bəzilərinin bəlkə heç fərqinə də varmırıq, bəzilərinin üstündən ötürük...*

*Amma bu sual ümumən* ***Vətənin, xalqın, dəyərlərin*** *taleyini əhatə edəndə laqeyd qalmaq mümkünsüzləşir...*

**Bir insan üçün dünyada ən müqəddəs olanlara - öz Vətəninə, Dövlətinə, Xalqına, mənəvi dəyərlərinə asi çıxanları görəndə, belələrinin qəzəbli ritorikasını, düşmən tərzini müşahidə edəndə düşüncələrim darmadağın olur...**

**"Biz niyə beləyik" sualının içimdə dolaşan dağ yükü bir az da ağırlaşır...**

Fikirləşirəm: xalqının istiqlalından, milli dövlətinin getdikcə artan gücündən, vətəndaşının təhlükəsizliyindən, gündəlik halal ruzisindən insan üçün daha fövqəl nə ola bilər ki, kimsə bu qədər aqressivləşsin, hirs-hikkəyə dolsun, düşmən kəsilsin?!.

*Xalq olaraq istiqlal haqqımıza qovuşmaq üçün nə məşəqqətlərdən keçmişik, necə acılar yaşamışıq - bunu yalnız Tarix yox, elə hər birimiz aydın xatırlayırıq.*

Azərbaycan xalqı öz istiqlalı uğrunda nə qədər qurbanlar verə bilərsə, ondan da çoxunu verib...

Necə ağır sınaqlar, maneələr keçib...

Daha kimlərinsə öz şəxsi iddialarını gerçəkləşdirməkdən ötrü bu xalqı ağır faciələrə, qana-qadaya sürükləmək haqqı yoxdur və ola da bilməz!..

*Tarixdə heç zaman bu qədər güclü olmamış Azərbaycanın indiki əzəməti, sözünün kəsəri həm də vaxtın göz yaşlarımızla qaraladığı həmin o hüznlü günlərdə bu yurdun müstəqilliyi, ərazi bütövlüyü uğrunda canını vermiş əzizlərimizin çin çıxan arzularıdır...*

❖ ❖ ❖

*Uzun illər cəmiyyəti müxtəlif miflərə inandırmış siyasi ideologiyanın iflasından sonra ideyalara böyük inamsızlığın yarandığı o dönəmlərdə* ***Heydər Əliyev*** *insanlarda torpağa, Vətənə, bu məmləkətin daha gözəl gələcəyinə inam formalaşdırdı.*

**Və Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə bir zamanlar Ulu Öndərin nişan verdiyi bu gözəl günlərə gəlib yetişdi...**

**Milli dövlətçilik tarixinin ən qüdrətli dönəminə çatdı...**

*Elə bir dönəminə ki, dünyanın siyasi xəritəsində Vətənin yeri hələ bu qədər uca, mətin, vüqarlı, yuxarı başda görünməyib...*

❖ ❖ ❖

Bədxahlarımız inamımızı hədəf seçməyə, nailiyyətlərimizə kölgə salıb cəmiyyətdə şübhə toxumu səpməyə, təfriqə salmağa çalışırlar.

Bəd niyyət bəllidir. Azərbaycançılıq düşüncəsindən, dövlətçilik təfəkküründən uzaq kəslərin küfrlü dili ilə istəklərinə çatmaq istəyənlərin ölkəni öz inkişaf yolundan iraq salaraq, yenidən tarixin sərt sınaqları qarşısında qoymaqdır arzuları...

**Azərbaycan gücləndikcə, bu qara niyyət də ağ kağıza düşmüş qara mürəkkəb ləkəsi misalı ətrafa yayılır... Uğurlarımızın sırası genişləndikcə, canımıza, qanımıza yerikləyənlərin təlaşı da artır.**

**Güclüsənsə, sarsıtmaq istəyəcəklər...**

**Uğurlusansa, mane olmağa çalışacaqlar...**

**Dayanmadan irəli gedirsənsə, yoluna daş yuvarlatmaq istəyənlər olacaq - təbii...**

Ancaq başa düşülməyən bircə məqamdır: bu torpaqlarda doğulub göz açan, bizimlə eyni dildə danışan, özünü eyni milli mənsubiyyətə, eyni Vətənə aid bilənlərin Azərbaycanı oda qalamaq istəyənlərin əlində həvəslə maşa olmaları...

Bəs bu gün xaricdəki havadarlarının dirijor çubuğu ilə sosial şəbəkələrdən Azərbaycan dövlətinə, bu dövlətin rəmzlərinə, xalqın dəyərlərinə qarşı nifrin püskürənlər kimdir?!.

❖ ❖ ❖

**Azərbaycandakı inkişaf prosesləri davamlıdır, ardıcıldır, tarixi təkamül qanunauyğunluqlarını əks etdirir.**

Bu prosesdə hansısa məqamların ilk baxışda mahiyyətinə uyğun qavranılmaması, müəyyən yeniliklərin gözlənildiyindən gec və ya tez baş verməsi, yaxud



bir qisim insanların inkişaf proseslərinə uyğunlaşa bilməyib, istənilən vəziyyətin tənqidinə köklənmələri də bəlkə təbiidir və bütün bunlar cəmiyyətin inkişaf məntiqindən irəli gəlir.

***Ancaq belə bir məqamda bizə ən çox lazım olan məhz Siyasi Mədəniyyətdir!..***

Müstəqilliyimizin ilk illərindəki siyasi təlatümlərin durulmasından, ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı böyük nailiyyətlərdən, insanlarımızın gün-güzəranının yaxşılaşmasından sonra indi cəmiyyətdə ***siyasi mədəniyyət*** barədə daha ciddi düşünmək lazım gəlir.

*Fikrimcə, tarixi uğurlarımızı ancaq belə bir mədəniyyətin gücü ilə qoruyub inkişaf etdirə bilərik.*

**Cəmiyyətin nizamı, dəyərlərin öz yerini tutması, birgəyaşayış qaydalarının formalaşması üçün buna çox böyük ehtiyacımız var...**

❖ ❖ ❖

Əfsus ki, demokratiyanı, insan hüquq və azadlıqlarını hələ də özbaşınalıq, hərki-hərkilik, başqasının şəxsiyyətini təhqir etmək imkanı kimi anlayanlar var.

Düzdür, belələrinin sırası getdikcə seyrəlir, müstəqilliyimizin ilk illərindəki küçə-meydan dövrünə xas qaragüruhçu yanaşma öz yerini dövlətə, hakimiyyətə sivil münasibətə, normal tənqidə verir. Amma qaragüruh havasında yaşayanlar yenə ara-sıra ortaya çıxır və belələrinin ritorikası, tərzləri istər-istəməz ətrafı təəccübləndirir.

Axı bu cür tərzlər, belə yanaşmalar cəmiyyət olaraq bizim üçün çoxdan keçilmiş mərhələdir. Mitinqlər, aksiyalar, şüarlar problem həll etmir. Siyasi aksiyalar dünyanın heç yerində siyasi mədəniyyət formalaşdırmır. Yeri gəldi-gəlmədi insanları küçə-meydanlara çağırmaq həvəsi ciddi bir sosial bazası olmadığı halda ətrafındakılarla hakimiyyəti bu cür üsullarla təhdid etmək şakəri keçmədimi?

**Tale üzümüzə baxdı ki, ötən əsrin sonlarına doğru tarixin bu sərt imtahanı qarşısına zamanın özünü yönəldəcək qədər güclü zəkaya malik *Heydər Əliyev kimi Böyük Şəxsiyyətin liderliyi ilə çıxdıq.***

*Xatırlayırsınızmı?*

*Heydər Əliyevin televiziyadan bircə çağırışı ilə yüz minlərlə adam gecəyarı meydana axışmışdı...*

**İndi Azərbaycandakı bu inkişaf, milli birlik, vəhdət mühitində necə, XALQ İlham Əliyevin bircə çağırışı ilə meydana çıxmazmı?!**

**Səfimizi pozmaq istəyənlərin üzərinə yeriməzmi?!**

Son günlərin əzəmətli yürüşü - Xocalı soyqırımı abidəsinə kütləvi axın - **xalq və iqtidar birliyinə** əyani sübut deyilmi?..

Küçə - meydan mübarizəsi dövrünü yenidən siyasi gündəmə qaytarmağa nə hacət?!

***Vaxtilə başı hakimiyyət davalarına qarışıb Qarabağı əldən verənlər, indi "Qarabağ" şüarını Prezident İlham Əliyevə qarşı çevirməyə uğursuz cəhd edirlər...***

**O Şəxsiyyətə qarşı ki, Qarabağın işğaldan azad edilməsi üçün ondan çox zəhmət çəkən yoxdur.**

*Diplomatik səngərlərdə düşmən üzərində qazandığı üstünlüklərlə, Azərbaycanın beynəlxalq aləmdə yüksələn mövqeyi ilə, qurduğu ordunun getdikcə artan qüdrəti ilə və bu ordumuzun ardıcıl, uğurlu zəfərləri ilə, ən əsası bu məsələdə tutduğu prinsipial mövqe ilə bizi addım-addım torpaqlarımızın azadlığına yaxınlaşdıran ondan başqa şəxs yoxdur...*

***Və ondan çox sevinən də yoxdur!..***

**Adını Azərbaycan tarixinə "Qarabağı azad etmiş Prezident" kimi yazmaq cənab İlham Əliyevin taleyidir!..**

***Və inşallah, bu, belə də olacaq!..***

*Bunu anlayaq, bacarırıqsa, kömək etməyə çalışaq, bacarmırıqsa, mənasız çəkişmələrlə, ucuz şüarçılıqla baş qatmayaq, heç olmasa, mane olmayaq...*

❖ ❖ ❖

**Prezident peşəkar strateq, dövlət adamı kimi cəmiyyətdə gedən müzakirələrin, hökumət qarşısında irəli sürülən maraqlı təkliflərin problemlərin həlli və dövlətin gələcəyi üçün nə qədər böyük önəm kəsb etdiyini bilir, faydalı təklifləri dəyərləndirir, ölkənin inkişafından ötrü nəsə real iş görmək istəyənlərə şans verir.**

Azərbaycanda deməyə sözü olan hər kəsin əlində bu imkan var. Ölkədə yazılı və elektron media kifayət qədər inkişaf edib, söz azaddır, insanların öz fikir və rəylərini ənənəvi mediada, sosial şəbəkələrdə sərbəst şəkildə ifadə etmələrinə hər cür şərait təmin edilib.

Bəs biz bu imkanlardan necə istifadə edirik?!

Bu barədə düşünmək belə ağrıdır adamı, amma həqiqətdən də qaçmaq olmur...

**Azərbaycanda sosial şəbəkə "sosial şəbədə" məzmunu alıb, fikri-niyyəti maariflənməkdən çox əylənməkdə, başqalarını qaralamaqda olan insanların cılız hisslər tribunasına, lağ-lağı meydanına, təhqir, şantaj arenasına çevrilib.**

*Dövlət rəsmilərindən, millət vəkillərindən, tanınmış insanlardan kimsə peşmandır ki, ictimai əhəmiyyət kəsb edən hansısa məsələ ilə bağlı rəy bildirsin, müəyyən məqamların izahına çalışsın. Dərhal sosial şəbəkələrdə hər kəlməyə bir şunquruq qoşan bir kimsə peyda olacaq. Söyüşün, təhqirin biri bir qəpiyə enəcək. Özü də yalançı imzalarla, saxta profillərlə...*

Mənəvi sərhədləri bir anda adlayıb keçirlər. Ağıllarına gələnləri yaza-yaza günlərlə əylənib yorulur və mövzu boyatlaşandan sonra başqa birinin növbəti açıqlamasını gözləyirlər. Bu olmayanda, digər mövzu mənbələrinin təftişi, yox yerdən ortaya çıxarılan məsələlərin dövriyyəsi başlayacaq ki, bəlkə virtual əyləncə, qaralama kampaniyaları üçün nəsə alındı...

*Daha məsələlərin mahiyyətinə varmaq, bir qədər dərinə getmək, problemlərin həllinə çalışmaq, cəmiyyət üçün faydalı cəhətlər üzə çıxarmaq, dövlətə ağlabatan təkliflər vermək, beləliklə, sağlam düşüncə mühiti formalaşdırmaq söhbəti yoxdur.*

Qəribədir... Böhtan olsun, təhqir olsun - təki nəsə olsun...

Bəs dəyərlər? Dəyərlər yaşamasa da olar?!.

Bu nədir, olurmu belə?!.

❖ ❖ ❖

Mən hələ uşaq ikən, "erməni barmağı" sözünü tet-tez eşidərdim…

*Harada əlləm-qəlləm iş, fitnə-fəsad, xəyanət, üzə gülüb arxadan qılınclama olurdusa, buna "erməni barmağı" deyərdilər...*

Bu sözün yaranma səbəbi ilə bağlı "Amerika kəşf etməyə" nə hacət?!.

Ermənini də, onun xislətini, cılız mahiyyətini də bütün dövrlərdə bilmişik və zərərini çox çəkmişik…

İndi dünyanın bu çətin, təlatümlü dövründə də Azərbaycana, onun Liderinə qarşı aparılan böhtan, şər kampaniyasında "erməni barmağı" dinc durmur, sağa-sola məkr yağdırır!..

Bir anlıq düşünək: dünyanın ən ünlü kinoindustriyalarının məhsulu olan filmlərin (sənədli, ya bədii) hansının subtitrlərində erməni soyadı yoxdur?..

Qlobal media holdinqlərini onların inhisarı olmadan təsəvvür etmək mümkünmü?!.

Böyük dövlətlərin KİV-nin istisnasız hamısında erməni və onun barmağı var və hər birində də azı bir "yan" soyadı...

Və bu qara ləkəli barmaqlar birləşib, şər-böhtan, bədheybət bir əli - erməni lobbisini, dünya erməniliyini yaradırlar...

Bəs bizim ziyalılarımız, teatr-kino xadimlərimiz, alimlərimiz, tarixçilərimiz?..

*Açıq danışmalı, hansı cəbhədə kimə savaş açdığımızı bilməli, hədəfləri düzgün göstərməli, qətiyyətimizi artırmalı və ən nəhayət, layiqli vətəndaş olmağı bacarmalıyıq!..*

Meydanda biz olmalıyıq, savaşı biz aparmalıyıq, biz danışmalıyıq, xain və xəbisləri biz susdurmalıyıq!..

Biz Azərbaycanlılar!..

Amma XAN ÇİNARA - ***Azərbaycana,*** onun ***Liderinə*** nəinki bu baltalar, heç bu hoqqabaz barmaqlar da zaval toxundura bilməzlər!...

Bu, həqiqətdir və onu ucadan deməliyik...

❖ ❖ ❖

Bir də görürsən biri dodaqaltı qımışıb gəldi: "Oxudunuz?! Filankəsdən yaman yazıblar yenə..."

*(Bəlkə də daha kobud deyirlər - mən yumşaq yazıram...)*

Əllər bir andaca telefona uzanır, kiminsə tapıb oxumasını istəyirlər...

*Baxıb görürsən ki, yazılanlar ya iftiradır, ya kiminsə fikirlərinin məqsədli təhrifidir, ya da ki, içində cəmiyyət üçün faydalı bir informasiya dəyəri və fakt yoxdur. Amma bu, yenə də kiməsə əyləncəli gəlir, kimsə özünün deyil, məhz başqasının adının bu şəkildə hallanmasından sanki məmnun olur və "məndən ötdü, qardaşıma dəydi" prinsipi ilə oxuduqlarının üstünə beşini də qoyub başqalarına çatdırmağa tələsir...*

Daha heç kim fərqində olmur ki, bu cür yanaşmalar həm də konkret bir fərdə deyil, **DƏYƏRLƏRİMİZƏDİR,** cəmiyyətdə əxlaq normalarını qorumalı olan, bu dəyərlərin birləşdirdiyi **İNSANLARADIR!..**

**Biz niyə beləyik?!.**

*Və əgər bu gün hamılıqla o dəyərlərə sahib çıxmasaq, cəmiyyətin mənəvi təmizliyinə çalışmasaq, siyasi mədəniyyətin yüksəlməsi üçün bir araya gəlməsək, sabah ayağı büdrəyənlərin və arxasınca min şəbədə qoşulanların biri də Özümüz olacağıq...*

*Sən, mən, o - hamımız!..*

Növbəylə, sırayla...

❖ ❖ ❖

**Bəlkə, nəhayət, anlayaq ki, axı başqa cür də yanaşmaq, yaşamaq, fikirləşmək olarmış?!.**

Dəfələrlə fikir vermişəm: biri dünyadan köçəndə dəfn mərasimi zamanı məzar başında hamı, elə bil, mələyə dönür...

İnsanların hüznlü çöhrəsinə nəzər salırsan, bütün sifətlərdə bir təəccüb donub qalır.

Hamı bu gəlimli-gedimli dünyanın sonunun, ömrün əvvəlindən sonuna qədər çalışıb-çarpışan, dünyalara sığmayan insanın axırının, iqbalının ikicə addımlıq qara torpaq olduğuna heyrətlənir, bu həqiqətdən nə qədər qaçmaq istəsə də, yenə onunla barışmalı olur...

Mərasim bitəndən sonra çoxu heç işinin başına da dönmək istəmir, elə buradan birbaşa evinə, ailəsinin, doğmalarının arasına qayıtmağa, ömrün qalan bütün qismini ancaq sevdiklərinə həsr etməyə can atır...

Amma... Elə ki, qəbiristanlığın qapısı geridə qaldı, yenə yollar haçalanır, hər şey tərsinə dönür...

Sifətlər də dəyişir, emosiyalar da, iddialar da...

Fərqli, təzadlı istiqamətlər başlanır, kin-küdurət alovlanır, nifrət, dedi-qodu, hirs-hikkə... Hər şey yenidən öz köhnə axarına qayıdır.

*Yenə mənasız ehtiraslar, qarşıdurmalar, insan üçün heç bir mənəvi dəyəri olmayan dünya malından,vəzifə kürsülərindən, sosial statuslardan ötrü boşuna sərf edilmiş ömür...*

*İnsanları bir-birindən iraq salan cılız hisslər toplandıqca böyüyür, böyüdükcə, hikkəyə çevrilir, içimizi parçalayıb dağıdır...*

**Hikkəmiz çəkimizdən ağır gəlir...**

Paxıllıq, qısqanclıq, gözügötürməzlik, başqasının uğuruna sevinməmək, səndən az-çox qabaqda olana, irəli gedənə bədxah münasibət, bəyənməmək, ayağından dartıb yıxmaq hissləri baş alıb gedir...

*"Kim mənim kimi düşünmürsə, məsələyə mənim kimi yanaşmırsa, deməli, mənimlə birgə deyil..."*

**Bu nə düşüncə tərzidir?!.**

❖ ❖ ❖

Bu ömürdən tarixin hansısa səhifələrində, yaddaşın künc-bucaqlarında nəsə ilişib qalacaqsa, o da ancaq saleh əməllərdir...

El üçün görülmüş işlərdir.

**Fərd deyil, el-oba namına, böyük mənada Vətən adına edilənlər qalır və xatırlanır.**

***İnsan Vətən və bir qədər geniş mənada götürsək, bəşəriyyət adında bütünləşən keçmişə, bu gün və gələcəyə verdiyi faydalarla əbədiyyət qazanır.***

**Prezident İlham Əliyevi tarixiləşdirən, xalq sevgisi qazandıran da elə budur!**

*Vətən üçün gördüyü bu müqəddəs işlərdir!*

*Həyata keçirdiyi siyasətin tarixi mahiyyətli əməllərə çevrilməsidir!..*

*Bu əməllərdən bütün elin faydalanmasıdır!..*

**Bu faydalar bizim üçündür, Vətən üçündür, bu Vətən isə hamımızındır!..**

**Azərbaycanın bağrına daş dəysə, hamımızın qəlbi qanayacaq...**

***Vətən - təkcə coğrafi ərazi, sərhədlər, bayraq, gerb, ordu demək deyil ki!..***

***Vətən - həm də bir dəyərdir!..***

***Vətənin ərazisi qədər dəyərləri də qorunmalıdır!..***

***Azərbaycan Respublikasının Prezidenti də bu Vətən kimi müqəddəs bir Dəyərdir!..***

**Bu Vətənin ən böyük vətəndaşı, sərkərdəsi də, siyasətçisi və iqtisadçısı da, alimi, müəllimi də, tarix və ədəbiyyat adamı da, körpədən böyüyə hamının nazını və cəfasını çəkən də ODUR!..**

*O, Azərbaycan sevgisi ilə, bu yurdun insanlarına isti münasibəti ilə, dövlətin gələcəyinə aydın və qətiyyətli baxışları ilə hamımızdan UCADIR...*

Dövlət rəhbərimizin bölgələrə səfərlərinə, sadə vətəndaşlarla səmimi görüşlərinə, ən əziz adamları kimi boynuna sarılan insanların ona olan məhəbbətinə nəzər yetirək...

İlham Əliyevin bu yurdun insanlarına sevgisini ifadə edən maraqlı görüntüləri yada salaq...

Şəhid anasının ayağına gələn, şəhid atasını ovudan **Ali Baş Komandanı,** zəlzələdən tifaqı dağılmış ağbirçəyin köməyinə **Xızır kimi** yetişib əlini öpən **dövlət rəhbərini,** Vətənin ucqarında insanlarla çiyin-çiyinə, ürək-ürəyə, səs-səsə "Azərbaycanım" oxuyan **VƏTƏNDAŞI** xatırlayaq...

*Elə bu günlərdəcə, prezidentimizin özünün də "möcüzə" adlandırdığı, geniş və yaraşıqlı, möhtəşəm Sumqayıt bulvarında istirahət edən insanların içinə qarışması, sadə və zəhmətkeş sumqayıtlıların onunla şəkil çəkdirmək üçün növbəyə durması necə də kövrək anlar idi...*

***Və düşünək: Azərbaycanı - bu Vətəni və torpağı hansımız onun qədər sevdik?!.***

***İnsanlarımızın rifahı üçün hansımız onun qədər can qoyduq, fədakarlıqlara qatlaşdıq?!.***

***Çətinliklərin, problemlərin, dörd bir yandan üzərimizə yönələn təzyiqlərin, təhdidlərin üstünə onun kimi gedə bildik?!.***

Qəribə haldır: yaxşı bir iş görüləndə, xoş bir nəticə ortada olanda hamı onu öz adına yazmağa çalışır, hər kəs sinəsini irəli verib min vəchlə can atır ki, özünü bu nəticəyə hansısa formada aid etsin, bu nəticədə adı görünsün.

Amma xoşagəlməz nəsə ortada olanda, tənqid məqamı yetişəndə, yaxasını kənara çəkib şəhadət barmağını havaya qaldırır, yuxarını göstərirlər...

Bütün bunları birbaşa dövlət rəhbərinin adına yazdırmaq istəyirlər...

**Sanki bu ölkədə, bu cəmiyyətdə bütün yaxşı əməllər, ürəkaçan nəticələr başqalarına, problemlər isə Prezidentə aiddir...**

*"Əhsən", vallah...*

*Bu nə "səmimiyyətdir"?!.*

*Bu nə yanaşmadır?!.*

*Belə ədalətsiz münasibət yetməzmi?!.*

❖ ❖ ❖

*Bir dövlət adamının şəxsiyyətinə, həyat və fəaliyyətinə qiymət verməkdən ötrü gərək biləsən:* ***Dövlət*** *nədir,* ***Dövlətçilik, Liderlik*** *nədir?! Tarix üçün yaşamaq nədir?!*

**Biz böyük dövlətlərin rəhbərlərinin cənab İlham Əliyevə ünvanladıqları teleqramlara, təbrik məktublarına baxaq, onlardakı məzmuna diqqət yetirək. Onda bir Lider kimi İlham Əliyevin ucalığını anlayacağıq, onun çağdaş dünya siyasətində necə aparıcı rola, güclü mövqeyə sahib olduğunu, öz şəxsiyyəti ilə tarixdə necə böyük ad qazandığını görəcəyik.**

*Dünya liderlərinin onun haqqındakı yüksək rəyləri - İlham Əliyevin şəxsində belə bir Lideri yetirmiş Azərbaycan xalqına verilən dəyərdir...*

**Bəs Prezidentimizin adı ətrafında simvollaşan milli dövlətçilik dəyərlərinə kim sahib çıxmalıdır?!.**

*Bu ölkənin insanlarının Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəxsiyyətinə olan sevgisinə və inamına nəzər salaq. Ömür-gün yoldaşı ilə birgə cəmiyyətin xoşbəxtliyi üçün çalışan bu Azərbaycan qadınının fədakar zəhmətinin cəmiyyətdə necə böyük rəğbət yaratdığını müşahidə edək...*

**Onun köməyə, şəfqətə, xeyirxah münasibətə ehtiyacı olan insanların problemlərinə necə həssaslıqla, anındaca reaksiya verdiyini, bu insanların qəlbində MEHRİBAN ANA kimi *ümid çırağı* yandırdığını görək...**

*Onların hər ikisinin bəşəri ideyaları öz nəcib əməlləri ilə yaydığını, tarixdən gələn milli-mənəvi dəyərləri necə böyük sevgi ilə qoruduğunu və bütün dünyada təbliğ etdiyini vətəndaş baxışı, vicdanı ilə izləyək və qiymətləndirək...*

*Həm də örnək götürək!..*

## SİYASƏT və MƏNƏVİYYAT

İndi Azərbaycandakı bu inkişaf, milli birlik, vəhdət mühitində necə,
XALQ İlham Əliyevin bircə çağırışı ilə meydana çıxmazmı?!
Səfimizi pozmaq istəyənlərin üzərinə yeriməzmi?!

Vətən - həm də bir dəyərdir!..
Vətənin ərazisi qədər dəyərləri də qorunmalıdır!..
Azərbaycan Respublikasının Prezidenti də bu Vətən kimi müqəddəs bir Dəyərdir!..
Bu Vətənin ən böyük vətəndaşı, sərkərdəsi də, siyasətçisi və iqtisadçısı da, alimi, müəllimi də, tarix və ədəbiyyat adamı da, körpədən böyüyə hamının nazını və cəfasını çəkən də ODUR!..
O, Azərbaycan sevgisi ilə, bu yurdun insanlarına isti münasibəti ilə, dövlətin gələcəyinə aydın və qətiyyətli baxışları ilə hamımızdan UCADIR...

Arxada gizlətdiyin, guya yumruq kimi birləşmiş və yumruq kimi təsəvvür etdiyin əl kimə lazım?!.
Əllərimizi irəli qaldırıb, hamılıqla - hamının gördüyü şəkildə, bir yumruq kimi birləşdirməyi bacarmalıyıq...
Sağlam, sabit, əxlaqi dəyərlərə söykənən Böyük Ailəmizi -
Müstəqil Azərbaycanımızı qorumaq üçün...

***Bax, belə!..***

***Suallar bitmir, tükənmir...***

***Siz deyin, Azərbaycana tarixin ən böyük nailiyyətlərini qazandırmış bu ŞƏXSİYYƏTLƏRİ kim qorumalıdır?!.***

***Dəyərlərimizə kim sahib çıxmalıdır?!.***

***Arxada gizlətdiyin, guya yumruq kimi birləşmiş və yumruq kimi təsəvvür etdiyin əl kimə lazım?!.***

***Əllərimizi irəli qaldırıb, hamılıqla - hamının gördüyü şəkildə, bir yumruq kimi birləşdirməyi bacarmalıyıq...***

***Böyük Ailəmizi - Müstəqil Azərbaycanımızı qorumaq üçün...***

***Sən, Mən və O...***

***Azərbaycan adında bütünləşən hər kəs...***

***Biz...***

***Biz azərbaycanlılar!..***

***Sevgili həmvətənlərim!..***

**İmamverdi İSMAYILOV,**
***Milli Məclisin deputatı,***
***Əməkdar jurnalist***

# Heydər Əliyev Fondundan körpələrə növbəti töhfə






Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Suraxanı rayonundakı 2 saylı uşaq evində olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Leyla Əliyeva uşaq evinin yeni idman meydançasında yaradılan şəraitlə tanış oldu.

İdman meydançası Heydər Əliyev Fondunun təşəbbüsü və Çinin Azərbaycandakı səfirliyinin dəstəyi ilə inşa edilib. Burada müxtəlif idman qurğuları quraşdırılıb, azyaşlılar üçün futbol və basketbol meydançası yenidən yaradılıb. Həyətyanı sahə abadlaşdırılıb.

Sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva uşaq evinin sakinləri ilə görüşdü, onlarla söhbət etdi.

Leyla Əliyeva Xocalı soyqırımına həsr olunan bədii kompozisiyanı izlədi.



Tədbirdə iştirak edən Çinin Azərbaycandakı səfiri Vey Cinhua ölkəsində və Azərbaycanda uşaqlara, xüsusən aztəminatlı və xüsusi qayğıya ehtiyacı olanlara yüksək diqqət göstərdiklərini bildirdi.

“Uşaqlar ölkənin gələcəyi, millətin ümidləridir. Biz 2 saylı uşaq evində yaradılan yüksək şəraitə, təhsil avadanlığına və güclü müəllim heyətinə görə ürəkdən şadıq. Buradakı uşaqlar bütün lazımi vasitələrlə, böyük qayğı ilə əhatə ediliblər. Bu uşaqlar ata-anaları ilə bir yerdə olmasalar da, yenə xoşbəxtdirlər. Çünki onlar hər cür qayğı ilə əhatə olunublar” - deyən diplomat diqqətə çatdırıb ki, bu, Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın uşaqların sağlam və savadlı böyüməsinə göstərdiyi diqqətin təzahürüdür.

Səfir uşaqlara xoşbəxt həyat, güclü və sağlam böyüyərək qabiliyyətli şəxslər kimi yetişməyi, gələcəkdə onların da Çin-Azərbaycan dostluğuna töhfə vermələrini arzulayıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və digər qonaqlar uşaq evinin sakinlərinin Xocalı soyqırımının 27-ci ildönümünə həsr etdikləri rəsm əsərlərinin sərgisi ilə də tanış oldular. Uşaqlar öz əsərləri barədə məlumat verdilər.

Qeyd edək ki, uşaq evlərinin sakinlərinin qayğılarını, burada onlar üçün yaradılmış şəraiti daim diqqət mərkəzində saxlayan Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2 saylı uşaq evi üçün 2016-cı ildə Zirə qəsəbəsində “Dalğa” yay düşərgəsi də inşa olunub.

# Qan xəstələrinin xaricə müalicəyə getmələrinə artıq ehtiyac yoxdur

## Bu sahədə tibbi xidmət ən müasir səviyyədə təkmilləşib




Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyevaya müəssisə barədə məlumat verildi. Bildirildi ki, 1944-cü ildən fəaliyyət göstərən institut hazırda üç hissədən ibarətdir: klinika, mərkəzi qan bankı və elm bölməsi. Klinikanın tərkibinə böyüklər üçün iki hematoloji şöbə, uşaq hematologiyası, reanimasiya və intensiv terapiya, konsultativ poliklinika, klinik-diaqnostik laboratoriya və talassemiyanın profilaktikası şöbələri daxildir. İnstitutun elm hissəsində bu sahənin aktual problemlərinə həsr olunan tədqiqatlar aparılır. Elmi araşdırmaların nəticələri nüfuzlu yerli və xarici jurnallarda nəşr edilir. 2017-ci ildə dövlət proqramı çərçivəsində institutda yeni immunohistoloji müayinələrin aparılması üçün laboratoriya da yaradılıb. Burada immunohistokimyəvi müayinələrin köməyi ilə qanın bədxassəli xəstəliklərinin tam diferensial diaqnostikası, hədəf terapiyanın monitorinqi və xəstəliyin proqnozu müəyyən edilir. Artıq leykozların diaqnostikası və müalicəsi məqsədilə xəstələrin digər ölkələrə getməsinə ehtiyac qalmır.



Leyla Əliyeva uşaqların səhhəti, müalicəsi zamanı istifadə edilən üsullar ilə maraqlandı.

Heydər Əliyev Fondunun vitse-prezidenti tibb ocağında müalicə alan uşaqların tezliklə sağalmalarını arzuladı. Qan xidməti üzrə dövlət proqramının yerinə yetirilməsi nəticəsində hazırda müalicə müəssisələrinin təhlükəsiz və keyfiyyətli qan və qan komponentləri ilə təmin edilməsi məsələsi həll edilib. Donorluğun təbliği sahəsində müasir üsullardan istifadə edilməsi ildən-ilə donorların sayının və tədarük edilən qan və onun komponentlərinin miqdarının artmasına gətirib çıxarıb. Hazırda respublika üzrə donorların sayı 90 min 490 nəfərdir.



Leyla Əliyeva institutun mərkəzi qan bankında da oldu. Bank donor qanının tədarükü, işlənilməsi, yoxlanılması və paylanması ilə məşğul olur. Mərkəzi qan bankının respublikada 8 bölməsi fəaliyyət göstərir. Burada nikaha daxil olan şəxslər talassemiyalara görə müayinədən keçirilir. Heydər Əliyev Fondunun vitse-prezidenti burada müalicə alan uşaqlarla görüşdü, onlarla söhbət etdi.

# “Mehriban Əliyevanın qayğısı bizə tək maddi yox, həm də mənəvi dəstəkdir”

## Heydər Əliyev Fondunun dəstəyi ilə daha bir qrup Qarabağ müharibəsi əlili protezlərlə təmin olunub






Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, yaralanmış hərbçilərin yüksək texnologiyalı protezlərlə təmin olunması proqramı çərçivəsində daha bir qrup Qarabağ müharibəsi əlili protezləşməyə cəlb edilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fonduna müraciət edən 30-dək hərbçinin hər birinin fərdi xüsusiyyətləri, aktivlik dərəcələri, həyat tərzləri nəzərə alınmaqla yüksək texnologiyalı məhsullar seçilib.

Tətbiq olunan protezlərin texniki imkanları normal həyat dinamikasına imkan yaradır, istifadəçi daha rahat, təbii və təhlükəsiz hərəkət edir.

Protezlərlə təmin olunan Qarabağ müharibəsi əlilləri artıq aktiv həyata geri dönərək əmək fəaliyyətlərini davam etdirir. Onların sırasında hərbi xidmətlərinə davam edən, paralimpiya idman növləri ilə məşğul olanlar da var. Paralimpiyaçıların sözlərinə görə, onlar müasir protezlərlə məşq və yarışlara rahatlıqla qatıla bilirlər. “Bizim üçün belə bir addım tək maddi dəstək deyil, həm də böyük mənəvi dəstəkdir”, - deyən hərbçilər onlara göstərilən diqqət və qayğıya görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Xatırladaq ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən hərbçilərin yüksək texnologiyalı protezlərlə təminolunma proqramı çərçivəsində 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlər müasir protezlərlə təmin edilmişdi. Eyni zamanda, 2018-ci ildə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunmuşdu.

# Milli Məclisin komitə iclasları keçirilib

Milli Məclisin Aqrar siyasət komitəsinin dünən keçirilən iclasında “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsi müzakirə edildi. Komitənin sədri Eldar İbrahimov dedi ki, Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihəsinə əsasən, Məcəllənin 56-cı maddəsinə 10-cu bəndin əlavə edilməsi təklif olunur.

Qanun layihəsi tikinti məqsədləri üçün torpaq sahəsinin ayrılması ilə bağlı müraciət etmiş şəxsə həmin torpaq sahəsində aparıla biləcək tikinti barədə əvvəlcədən xidmət haqqı ödəməklə rəy verilməsini nəzərdə tutur. Bu rəyin məqsədi torpaq sahəsində həyata keçirilməsi nəzərdə tutulan tikinti niyyətinin yerləşdiyi ərazinin şəhərsalma sənədlərinə uyğunluğunu müəyyən etməkdir. Nəticədə, torpaq sahəsini əldə edən şəxs orada hansı tikilini apara bilməsini proqnozlaşdıra biləcək, öz ehtiyaclarına uyğun torpaq sahəsini əldə etmək imkanı yaranacaq, habelə gələcəkdə istədiyi tikintini həyata keçirəndə hansısa problemlə qarşılaşması ehtimalı aradan qalxacaq.

Xidmət haqqının ödənilməsi halları, qaydası və məbləği qanun qüvvəyə mindikdən sonra müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq ediləcək.

Müzakirələr zamanı Aqrar siyasət komitəsinin sədr müavini Eldar Quliyev, deputatlar Novruzəli Aslanov, Tahir Süleymanov və digərləri layihə ilə bağlı fikirlərini bildirdilər. İclasda iştirak edən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aparat rəhbəri Anar Quliyev məsələyə münasibət bildirdi.

Yekunda qanun layihəsi Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olundu.

***

“Prezident İlham Əliyevin imzaladığı “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” fərmanı çox mühüm sənəddir. Sənəd bu sahədə fundamental mərhələyə keçid oldu”.

Bu fikirləri Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin dünən keçirilən iclasında komitə sədri Əli Hüseynli səsləndirdi. Elə iclasda müzakirəyə çıxarılan “Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsini də bu istiqamətdə həyata keçiriləcək proseslərin tərkib hissəsi adlandırmaq olar.

Qanun layihəsinə edilən dəyişikliyi təqdim edən komitə sədri bildirdi ki, sözügedən məcəllə hazırlanarkən beynəlxalq ekspertlərin rəyləri və ən yaxşı təcrübələr nəzərdən keçirilib. Ancaq zaman keçdikcə məcəllənin icrası gözləntiləri tam doğrultmayıb. Dövlət başçısının imzaladığı məlum fərman isə məcəllədəki boşluqları dolduracaq.

Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim etdiyi dəyişikliklərdə məcəllənin bir neçə maddəsi tamamilə yenilənib. Məcəllənin 11-ci maddəsinə edilən dəyişiklik müvafiq qurumlar tərəfindən tikinti layihələrinin şəhərsalma sənədlərinə uyğunluğunun yoxlanılmasının və tikinti fəaliyyəti sahəsində göstərdikləri xidmətlərinin ödənişli əsaslarla həyata keçirilməsini nəzərdə tutur. Hazırda isə məcəllədə ödənişlər yalnız tikinti layihələrinin ekspertizadan keçirilməsi üçün nəzərdə tutulur. Digər dəyişikliklər 75-ci maddənin təkmilləşdirilməsi məqsədi ilə təklif edilir. Bu təkliflər şəhərsalma fəaliyyətinin tənzimlənməsi və təkmilləşdirilməsi ilə bağlı dövlət başçısının 1 avqust 2018-ci il tarixli və 17 sentyabr 2018-ci il tarixli fərmanlarında nəzərdə tutulub. Tikintiyə icazə verilərkən ilk öncə tikinti layihəsinin şəhərsalma sənədlərinə uyğunluğunun yoxlanılması təklif edilir. Rəyin müsbət olduğu təqdirdə isə müvafiq rəylərin verilməsi üçün sorğu göndərilə bilinməsi layihədə əksini tapıb.

Müzakirələr zamanı Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov, deputatlar Fəzail Ağamalı, Qüdrət Həsənquliyev, Tahir Kərimli, Məlahət İbrahimqızı çıxış edərək bildirdilər ki, dəyişikliklər məcəllənin təkmilləşdirilməsinə, bu sahədə mövcud olan bürokratik əngəllərin aradan qaldırılmasına xidmət edəcək. Layihə Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***

Fevralın 27-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitə sədri Ziyad Səmədzadə iclası açaraq son vaxtlar Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi həyatında böyük keyfiyyət dəyişikliklərinin baş verdiyini deyib. Bildirib ki, ölkə iqtisadiyyatında mühüm məsələlərin tənzimlənməsi istiqamətində zəruri işlər görülür. Dövlət başçısının əhalinin sosial rifahının daha da yaxşılaşdırılması ilə bağlı imzaladığı fərman və sərəncamlar cəmiyyətdə böyük rəğbətlə qarşılanır.

Komitə sədri diqqətə çatdırıb ki, birinci oxunuşda müzakirəyə çıxarılan “Özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrinin) 2019-cu il 1 mart tarixinə mövcud olan əmlak və torpaq vergiləri üzrə borclarının tənzimlənməsi haqqında” qanun layihəsi ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunub.

Qanun layihəsi barədə Əmlak Məsələləri Dövlət Komitəsinin sədr müavini Rüstəm Şahbazov məlumat verib. Bildirilib ki, ölkə başçısının 2016-cı ildə imzaladığı dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı fərmanından irəli gələn tapşırıqlara əsasən bu gün bu istiqamətdə müvafiq qurumlar lazımi addımlar atırlar. Təqdim olunan qanun layihəsi müəssisələrin borclarının silinməsi, onların səmərəli fəaliyyətinin bərpası üçün önəmli rol oynayır. Bu sənəd özəlləşdirilməsi nəzərdə tutulan 137 müəssisəni əhatə edir.

Məruzədə qeyd edilib ki, qanun özəlləşdiriləcək dövlət müəssisələrinin sağlamlaşdırılması və onların borclarının tənzimlənməsi məqsədi daşıyır. Sənəddə deyilir ki, dövlət əmlakının (müəssisəsinin) satıcısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum ilə birlikdə özəlləşdirilməsi barədə qərar qəbul edilmiş dövlət əmlakının (müəssisəsinin) bu qanunun qüvvəyə minmə tarixinə olan əmlak və torpaq vergiləri üzrə borclarını dəqiqləşdirir. Özəlləşdirilən dövlət əmlakının (müəssisəsinin) qiymətləndirilməsi zamanı onun balans öhdəliklərində əks olunmuş debitor və kreditor borcları özəlləşdirmə planında ayrıca göstərilir.

Layihədə bu qanunun qüvvəyə minmə tarixindən sonrakı dövrdə özəlləşdirilməsi başa çatan dövlət əmlakının qanunun qüvvəyə minmə tarixinədək olan əmlak və torpaq vergiləri üzrə borclarının silinməsi qaydaları əks olunub. Qaydalara görə, dövlət əmlakının özəlləşdirildiyi tarixdən etibarən bir il ərzində bu borcların 30 faizi ödənildikdə ödənilməmiş borcların 70 faizi, iki il ərzində bu borcların 50 faizi ödənildikdə ödənilməmiş borcların 50 faizi, üç il ərzində bu borcların 70 faizi ödənildikdə ödənilməmiş borcların 30 faizi silinir. Qanunun bu il martın 1-dən qüvvəyə minməsi nəzərdə tutulur.

İclasda çıxış edən deputatlar Əli Məsimli, Şəmsəddin Hacıyev, Vahid Əhmədov, Elçin Quliyev, Ağalar Vəliyev, İqbal Məmmədov qanunun əhəmiyyəti və aktuallığı barədə danışıblar. Onun xalqın rifah halının yaxşılaşdırılması, sahibkarların üzləşdiyi çətinliklərin həlli, investorların cəlb edilməsi baxımından önəmli olduğunu söyləyiblər.

Müzakirələrin yekununda “Özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrinin) 2019-cu il 1 mart tarixinə mövcud olan əmlak və torpaq vergiləri üzrə borclarının tənzimlənməsi haqqında” qanun layihəsi birinci oxunuş üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

## “Bakı Metropoliteni” QSC-nin yaradılmasından 5 il keçir

Bu gün ölkəmizin iqtisadi inkişafının zəminində dayanan əsas amillərin yüksək səmərəliliyi, funksional mahiyyət mexanizminin düzgün işə salınması, ilk növbədə, düzgün qurulmuş, düşünülmüş və illərin təcrübəsinə istinadən gələcəyə hesablanmış iqtisadi siyasətin, idarəetmədə yeni baxışın tətbiqidir. Müstəqilliyimizin ilk illərində hakimiyyəti ələ alan təcrübəsiz, idarəçilik səriştəsinə malik olmayan insanların əlindən sükanı alan xalq, onu özünə həqiqi lider hesab etdiyi ulu öndərə etibar etdi və xalqın təkidli çağırışı ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev bu vəzifəni xalqın hərtərəfli dəstəyi, inamı və məhəbbəti sayəsində məharətlə həyata keçirdi.



*“Bu, ən kütləvi nəqliyyat vasitəsidir. Növbəti illərdə yeni stansiyaların tikintisi hesabına biz bütün şəhərimizin infrastrukturunu müasirləşdirəcəyik və insanların rahatlığı üçün çox böyük işlər görüləcəkdir”.*

***İlham ƏLİYEV***

# Nailiyyətlər gələcək inkişafın təməlidir

2003-cü ildə ulu öndərin əsasını qoyduğu həyat məktəbinin yetirməsi olan İlham Əliyevi dövlətin idarə sükanı arxasına layiq görən xalq bir daha öz müdrikliyini nümayiş etdirdi. Azərbaycan müstəqilliyinin qoruyub saxlanmasının əsas şərtlərindən olan iqtisadi yüksəlişin çətin yollarında bütün sınaqlardan uğurla çıxdı. İlham Əliyev tərəfindən irəli sürülən iqtisadiyyatın yeni inkişaf modelinin fərqli cəhəti onun sosialyönlü strateji xətti və bununla da Azərbaycan modelinə verdiyi millilik səciyyəsidir. İqtisadi inkişafa bu prizmadan yanaşmanın bariz nümunəsi müasir iqtisadi inkişafın təməl prinsiplərinə uyğun olmayan dövlət büdcəsindən subsidiya hesabına fəaliyyət göstərən Bakı Metropolitenidir. Bunun da əsas səbəbi əhalinin əsasən az imkanlı təbəqələrinin istifadə etdiyi metropolitenin şəhər ictimai nəqliyyatı sahəsində əvəzolunmaz nəqliyyat vasitəsi olmaqla dövlətin sosial siyasətinin tərkib hissəsini təşkil etməsidir. Lakin iqtisadi inkişafın Azərbaycan modeli həm də bazar iqtisadiyyatının başlıca qanunlarının tələblərinin sosial əsaslı layihələrlə uzlaşdırılmasını şərtləndirir. 2014-cü il fevralın 27-də dövlət başçısının sərəncamı ilə Bakı Metropoliteninin və “Azərtunelmetrotikinti” Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə səhmləri dövlətə məxsus “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti də bu tələbin məntiqi nəticəsi olaraq meydana gəldi.

Yeni iqtisadi modellərin yaranması, onların funksionallığının daha səmərəli şəkildə təmin olunması üçün ilk növbədə yeni düşüncə tərzinə, müasir iqtisadi qanunları təhlil etmək qabiliyyətinə malik, bu qanunlarla işləmək vərdişi olan insan resurslarının idarəetməyə cəlb edilməsi gərəkdir. Məhz bu səbəbdən elə həmin gün Azərbaycan Prezidentinin növbəti 290 saylı sərəncamı ilə “Bakı Metropoliteni” QSC-nin sədri vəzifəsinə respublika əhəmiyyətli tikinti obyektlərinin, eləcə də metro stansiyalarının qurulmasında yaxından iştirak etmiş Zaur Mir Tofiq oğlu Hüseynov təyin olundu. Yeni menecmentin müəssisəyə gəlişi ilə paytaxtın bu ictimai sərnişindaşıma nəqliyyat növünün fəaliyyətinə çağdaş dövrün texnoloji yenilikləri, müasir korporativ idarəetmə mexanizmlərinin tətbiqi yolu ilə elmi-texniki tərəqqinin tələbləri ilə ayaqlaşa bilən kadrların hazırlanması, onların bilik səviyyələrinin dəyərləndirilərək seçilməsi və yerləşdirilməsi, ixtisaslarının artırılması, mövcud vaqon parkının maddi-texniki bazasının gücləndirilməsi ilə təmirin yeni əsaslarla qurulması və tarixdə ilk dəfə vaqonların əsaslı təmirinin təşkili təmin edilərək, dünya standartlarının ən yüksək tələblərinə cavab verən və dünyanın inkişaf etmiş ölkələrinin metropolitenlərinə nümunə ola biləcək bir ictimai nəqliyyatı ortaya qoymaqla ölkə ictimaiyyətinə şəffaf fəaliyyəti ilə seçilən bir müəssisənin formalaşdırılmasına nail olundu.

İlk növbədə, metronun inkişafı üzrə dövlət proqramının reallaşdırılması qarşısında duran maneələr, əngəllər vaxtında aradan qaldırılmalı idi. Səhmdar cəmiyyətinin qapalı olması isə bu layihələrə dövlət nəzarətinin təmin olunması, sırf bazar iqtisadiyyatının deyil, eləcə də onun sosial mahiyyətinin qorunması demək idi. İndi metronun inkişafı ilə bağlı bütün məsələləri vahid mərkəzdən kompleks şəkildə idarə etmək və yönəltmək, eyni zamanda dünya təcrübəsinin ən faydalı nümunələrini birbaşa və maneəsiz tətbiq etmək, eləcə də sosial mahiyyətli layihələri asanlıqla yerinə yetirmək mümkün olacaqdı.

Metropolitenin inkişafı dedikdə, əlbəttə, ilk növbədə, yeni metro xətlərinin tikintisi, perspektiv inkişaf planının yerinə yetirilməsi üzrə görülən işlər nəzərdə tutulur. Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdə qarşıya qoyduğu əsas vəzifələrdən biri hazırda metronun həm tikintisində, həm də istismarında ən müasir və qabaqcıl texnologiyaların tətbiqi idi: *“Bu gün yeni texnologiyalar tətbiq olunur. Biz Azərbaycanda, Bakıda bu texnologiyalardan istifadə etməliyik. Əvvəlki təcrübə çox qiymətlidir. Ancaq bugünkü təcrübə, əlbəttə ki, həm işlərin daha da böyük səmərə ilə görülməsinə xidmət göstərəcək, həm də maksimum keyfiyyət təmin olunacaqdır”.*

Proqrama görə 20 il ərzində yeraltı dəmiryolunun 3-cü xətti açılmalı idi. Tikinti sahəsində qarşıda duran vəzifələrin yerinə yetirilməsində ən yaxın dövr üçün görüləcək əsas iş Bənövşəyi xəttin ilk stansiyalarının təhvil verilməsi idi.





Dövlət proqramı təkcə yeni xətlər deyil, mövcud xətlərin inkişafı üzrə də qarşıya mühüm məsələlər qoymuşdu. Onların həlli istiqamətində əsaslı layihələrin həyata keçirilməsi təmin edilməli idi. Məsələn, perspektiv nəzərə alınmadan dərin özüllü stansiyaların təkçıxışlı layihələndirilməsi stansiyalarda sərnişin axınının səmərəli təşkili problemləri bütün kəskinliyi ilə ortaya çıxarmışdı. 2009-cu ildə ölkə başçısının iştirakı ilə açılmış “28 May” stansiyasının ikinci çıxışından sonra “Elmlər Akademiyası” stansiyasında bu işin sürəti artırılmalı, stansiyaların yenidən qurulması, əsaslı təmir işləri davam etdirilməli, istismar sahəsinin maddi texniki bazası gücləndirilməli, hərəkətin təşkili və idarə olunmasında yeni texnologiyaların tətbiqinin miqyası genişləndirilməli idi.

“Bakı Metropoliteni” QSC-nin fəaliyyətinin ilk yarım ilində qarşıya qoyulan bu vəzifələrin həyata keçirilməsi istiqamətində ciddi və səmərəli addımlar atıldı. İstismar sahəsinin fəaliyyətinin təmin edilməsi baxımından metropolitenin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli yeniliklər edildi. “Nərimanov” elektrik deposunda ehtiyat hissələrin tədarükündə, detal, maşın və mexanizmlərlə təchizatda köklü dəyişikliklər baş verməklə, günün tələblərinə uyğun iş norması və prinsiplərinin qurulmasına başlandı. Bunun nəticəsində qatarların nasazlıq səbəbilə xətdən çıxarılması halları kəskin surətdə azaldı. Burada vaqon parkının müasir standartlar səviyyəsinə qaldırılması xüsusi qeyd edilməlidir. Uzun müddət istismar olunan vaqonların əsaslı təmir vaxtının yetişməsi barədə qəbul edilmiş qərara əsasən onların modernləşdirilməsi prosesinin perspektivdə köklü şəkildə dəyişdirilməsi, vaqonların əsaslı təmirinin yerli şəraitdə həyata keçirilməsi imkanları araşdırıldı. Həmin dövrdə vaqonların əsaslı təmiri Moskva elektrik qatarlarının təmiri üzrə zavodun Tbilisi filialında aparılırdı.

İlk yarım ildə görülən işlər sırasında mühümlüyü ilə qeyd olunmağa layiq olan, təhlükəsizliyin təminatında əhəmiyyətli rol oynayan metroloji ölçü vasitələrinin yenilənməsi istiqamətində önəmli addımların atılması idi. Nəticədə yeraltı polad magistralımızın tarixi üçün ən əhəmiyyətli tədbirlərdən biri olan metropoliten infrastrukturunun diaqnostikası kompleksinin qurulması üzrə işlərə başlandı.

Sürətlə müasirləşən, ən yeni texnologiyaların geniş tətbiq edildiyi bir vaxtda yeni texnologiyalarla işləyə bilən kadrların hazırlığı da aktuallaşdı. Bu məqsədlə yaradılan təlim-tədris mərkəzi hazırda bu məsələnin öhdəsindən layiqincə gəlir.

Səhmdar cəmiyyətin fəaliyyətinin ilk dövrlərində xidmət mədəniyyətinin yüksəldilməsi sahəsində həyata keçirdiyi ən böyük tədbirlərdən biri kimi stansiyaların görkəmini eybəcərləşdirən ticarət köşklərinin, görkəmsiz, bəsit məzmun və primitiv formalı reklam lövhələrinin ləğvi qeyd olunmalıdır.

Artıq “Bakı Metropoliteni” QSC özünün 5 illik fəaliyyətinə yekun vurur. Bu müddətin yuxarıda sadalanan vəzifələrin yerinə yetirilməsi üçün kiçik olmasına baxmayaraq, görülən işlərin həcmi, miqyası genişdir. Nəqliyyat, xüsusən də metropoliten elə bir xidmət sahəsidir ki, orada işin keyfiyyəti, istehsal olunan məhsulun (xidmətin) insanlara yararlığı, mədəni səviyyəsi dərhal özünü büruzə verir və istehlakçıların reaksiyası da özünü çox gözlətmir. Metroda xidmət mədəniyyətinin səviyyə meyarı, ilk növbədə, insanların vaxtında və təhlükəsiz surətdə mənzil başına çatdırılmasıdır. Bunun üçün qatarların hərəkət cədvəlinə riayət olunmalı, bu cədvəldə tələb olunan hərəkət vahidləri ilə təmin edilməlidir.

QSC-nin fəaliyyətə başladığı ilk aylarda lokomotiv təsərrüfatı bu vəzifənin öhdəsindən çətinliklə gəlirdi. Təmir bazasının zəif olması qatarların texniki vəziyyətində öz əksini tapırdı. Gün ərzində 2-3 qatar xətdə işini tam başa vurmadan depoya plandankənar göndərilirdi. Təmirdən sonra xəttə verilmiş qatarın depodan çıxıb, elə “Nəriman Nərimanov” stansiyasından geri qayıtma halları da az deyildi. Bu da, əlbəttə, hərəkət cədvəlinin yerinə yetirilməsində öz əksini tapırdı, hərəkət xidmətinin işçilərini sərnişinlər qarşısında pis vəziyyətdə qoyurdu.

Deponun vaqon təmiri sexlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi üzrə təcili və təxirəsalınmaz tədbirlərin görülməsi təsirsiz qalmadı. Nasazlığa görə xətdən çıxarılan qatarların sayı bir neçə dəfə azaldı. Hətta QSC sədrinin yanında keçirilən həftəlik müşavirələrdə hesabat dövründə xətdən nasaz qatar çıxarılmadığı barədə məlumatlar da səslənirdi.

Eyni zamanda, vaqon parkının yeniləşdirilməsi üzrə işlər də mütəmadi şəkildə davam etdirilib. “Transmaşholdinq” Səhmdar Cəmiyyətinin səhmlərinin bloklayıcı paketinin sahibi olan Fransanın “Alstom” şirkəti ilə imzalanmış memorandumun şərtlərinə uyğun olaraq, “Metrovaqonmaş” ASC-nin istehsal etdiyi 15 vaqondan 10-u 2016-cı ilin aprel ayında Bakıya gətirildi. Yeni vaqonlarla tanış olmaq üçün “Nərimanov” elektrik deposuna gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə qatarlar barədə “Bakı Metropoliteni” QSC-nin sədri Zaur Hüseynov məlumat verdi. Dövlət başçısına bildirildi ki, yeni qatarlar texniki innovasiyalar baxımından 4-cü nəslə mənsubdur. Bu nəsil qatarların idarə edilməsi mikroprosessor əsasında həyata keçirilir. Əvvəlkilərdən fərqli olaraq, yeni qatarların dartı mühərrikləri dəyişən cərəyanla işləyir. Əgər əvvəlki nəsil qatarların mühərriklərinin gücü 114 kilovat idisə, yeni vaqonlarda bu rəqəm 170 kilovat təşkil edir. Köhnə vaqonların çəkisinə gəlincə, əvvəllər bu göstərici baş vaqon üçün 38, aralıq vaqon üçün 36 ton idi. İndi isə bu göstəricilər müvafiq olaraq 34 və 29 tondur. Vaqonların banı paslanmayan metaldandır və vaqonlararası birbaşa keçid var. Bütün vaqonlarda daha mükəmməl havalandırma sistemi quraşdırılıb. Salonlarda “qaçan sətir” sistemi və təhlükəsizliyin təmin edilməsi üçün müşahidə kameraları qoyulub.

Həmin gün dövlət başçısına qısa vaxtda Bakı Metropoliteninin infrastrukturunun beynəlxalq standartlara uyğun yenidən qurulması istiqamətində görülmüş işlər barədə məlumat verildi və bu sahədə əhəmiyyətli işlərdən biri olan diaqnostika kompleksi barədə danışıldı. Metropoliten infrastrukturunun texniki vəziyyətinin müayinə və qiymətləndirilməsində bu kompleksin əhəmiyyəti son dərəcə böyükdür. Xaricdə istehsal olunan ən müasir serverlər və fasiləsiz cərəyan təminatı, lazer optik sistemləri, cərəyan çeviriciləri, işçi kompüter avadanlığı, GPS-koordinasiya qurğusu və digər müasir sistem və qurğularla təchiz olunmuş diaqnostika kompleksi qatarların hərəkətinin tam təhlükəsizliyini, səlisliyini və sərnişindaşımanın rahatlığını təmin edir. Kompleksin başqa bir əsas vəzifəsi qatarların avtomatik sürət tənzimləmə sisteminin kod və siqnallarını nəzarətdə saxlamaqdır. Bundan başqa, diaqnostika kompleksinin verdiyi imkanlardan bəhrələnərək rels dövrələrində cərəyan asimmetriyasının təyin edilməsi, tunellərdə qızmaya məruz qalma ehtimalı olan bütün avadanlıq və texniki qurğulara teplovizion nəzarətin aparılması mümkündür. Kompleks, həmçinin qatarların səlis və rahat hərəkətinə maneə yarada biləcək bütün fiziki amillərin qeydiyyatı və analizinə, qüsurların qabaqcadan proqnozlaşdırılması və avtomatik nəzarətə götürülməsinə, bütün əməliyyatların xətti video şəklində qeydə alınmasına və digər tədbirlərin aparılmasına imkan verir.

2015-ci ilin sonunda Moskvada keçirilmiş mötəbər sərgi-seminarda “dünyada analoqu olmayan” kimi qiymətləndirilən kompleksin işi ilə maraqlananların dairəsi get-gedə daha da genişlənir, yeniliyimiz Rusiya, İtaliya, Hindistan, Gürcüstan mütəxəssislərinin diqqətini çəkib. 2018-ci ilin oktyabrında Almaniyanın paytaxtı Berlində nəqliyyat innovasiyalarına həsr olunmuş nüfuzlu beynəlxalq “İnnotrans” sərgisinin pavilyonlarının birində dəmir yollarının diaqnostikasından bəhs edən videoçarxın əsas hissəsi Bakı Metropoliteninin infrastrukturunun çoxfunksiyalı diaqnostika kompleksinə həsr olunub.

Bu gün metropolitençilər diaqnostika kompleksini hərəkətin təzlükəsizliyinin bir nömrəli təminatçısı hesab edirlər. Kompleks yolların, tunel və tunel avadanlığının, yolun üst quruluşunun, işarəvermə qurğularının, elektrik təchizatı sisteminin, qatarların, vaqon təsərrüfatının bütün elementlərini müayinə edir, texniki göstəricilərin normalar həddinə uyğunluğunu nəzarət altında saxlayır. Ayda iki dəfə xəttə çıxan bu vaqon-laboratoriya bütün metro infrastrukturuna aid ölçmələri aparır, nəticələr bütün aidiyyəti olan xidmət sahələrinə çatdırılmaq üçün serverə yerləşdirilir.

***Bəxtiyar ƏZİZLİ,***
***“Azərbaycan”***







# İnkişafın Abşeron nümunəsi

2018-ci il Azərbaycan üçün, sözün əsl mənasında, möhtəşəm uğurların əldə edildiyi dövr kimi yadda qaldı. Siyasi və iqtisadi nailiyyətlərlə zəngin olan ötən il həm də mühüm ictimai hadisələrlə əlamətdar idi. İlham Əliyevin müəllifi olduğu qlobal layihələrin işə düşməsi, növbəti peykimizin orbitə çıxarılması tək regionda deyil, dünyadakı mövqelərimizi də bir qədər möhkəmləndirdi.



Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü, ulu öndər Heydər Əliyevin 95 illik yubileyi, ordumuzun Günnüt zəfəri və hərbi paradlar xalqımızın xoş ovqatını daha da artırdı. İlin ən böyük siyasi hadisəsi isə ötən ilin aprelində keçirilən prezident seçkiləri oldu. Xalqımız ən doğru seçimini edərək Prezident İlham Əliyevin ətrafında səfərbər oldu, Heydər Əliyev yolunun davamına səs verdi.

## 2018-ci il Abşeron rayonu üçün uğurlu oldu

Ötən il tariximizə genişmiqyaslı inkişaf dinamikası ilə yadda qalan dövr kimi yazıldı. Bu dövrdə Azərbaycanın inkişafı əvvəlki illərə nisbətən bir qədər də vüsət aldı. Bütün bu məsələlər yanvarın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ətraflı müzakirə edildi. Dövlət başçısının qeyd etdiyi kimi, 2018-ci il ölkəmiz üçün uğurlu olub, dünyada və bölgədə gedən mənfi proseslərə baxmayaraq Azərbaycan hərtərəfli və dinamik inkişaf edib. Prezident İlham Əliyevin diqqətə çatdırdığı əsas iqtisadi göstəricilər də ötən ilin inkişaf dövrü olduğunu göstərir. Belə ki, ötən il ümumi daxili məhsul 1,4 faiz, qeyri-neft sektoru 1,8, sənaye istehsalı 1,5, kənd təsərrüfatı isə 4,6 faiz artıb. Valyuta ehtiyatları 45 milyard dollara çatıb, ölkədə 118 min daimi iş yeri açılıb.

2018-ci ildə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası başa çatdı. Bununla bağlı keçirilən konfrans əslində 2004-cü ildən - ilk dövlət proqramının icrasına başlanılmasından ötən dövrdə görülən işlərin hesabatı idi. Bu dövrdə ümumi daxili məhsulun 3,3 dəfə, sənaye potensialının 2,6 dəfə, maaşların 7, pensiyaların 9 dəfə artması, 2 milyon iş yerinin yaradılması və sair uğurlar göstərir ki, respublikamız olduqca qürurverici və möhtəşəm inkişaf yolu keçib.

2018-ci il Abşeron rayonu üçün də uğurlu illərdən olub. Bu barədə dünən Abşeron Rayon İcra Hakimiyyəti başçısı yanında Şuranın iclasında ətraflı söhbət açıldı.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Xırdalan şəhərində ucaldılmış abidəsi önünə tər güllər düzərək xatirəsini ehtiramla yad etdilər.

Sonra Xırdalandakı Heydər Əliyev mərkəzində keçirilən iclasda RİH başçısı İradə Gülməmmədova Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və üçüncü dövlət proqramının icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyevin proqram xarakterli nitqindən irəli gələn vəzifələr baxımından rayonda görülən işləri təhlil etdi. Qeyd etdi ki, ötən il Abşeronun sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində abadlıq-quruculuq işləri davam etdirilib, rayon ərazisində su-kanalizasiya sistemlərinin yenidən qurulması, avtomobil yollarının əsaslı təmiri, elektrik enerjisi, təbii qaz ilə təchizat və digər sosial problemlərin həlli istiqamətində mühüm layihələr həyata keçirilib.

Diqqətə çatdırıldı ki, 2018-ci il Abşeron üçün siyasi baxımdan da əlamətdar olub. Ən mühüm siyasi hadisə olan prezident seçkiləri şəffaf, heç bir qanun pozuntusu olmadan keçirilib. Əvvəlki seçkilərdə olduğu kimi, abşeronlular bu seçkilərdə də fəallıq nümayiş etdiriblər. İki seçki dairəsi üzrə seçicilərin 77 faizi seçkilərdə iştirak edib və onlardan 89 faizi cənab İlham Əliyevə səs verib.

## Sənaye məhsulunun həcmi 24 faiz artıb

Prezident İlham Əliyevin qarşıya qoyduğu ən mühüm vəzifələrdən biri rayonlarda sahibkarlığın inkişafı, özəl investisiyaların daha çox cəlb edilməsi, xüsusilə kənd təsərrüfatı və sənaye istehsalı üçün əlverişli şəraitin yaradılması, məşğulluq səviyyəsinin artırılması və əhalinin maddi rifahının yüksəldilməsidir. Bütün bunlar Abşeron RİH rəhbərliyi tərəfindən əsas vəzifələr kimi daim diqqət mərkəzində saxlanılır.

Bu barədə danışan İradə Gülməmmədovanın sözlərinə görə, Prezident İlham Əliyevin 22 mart 2018-ci il tarixli sərəncamına əsasən, dövlət büdcəsində əsaslı vəsait qoyuluşu xərclərindən Abşeron rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə 2 milyon manat vəsait ayrılıb. Bununla əlaqədar Qobu qəsəbəsi ərazisində 0,7 hektar ərazidə xalça istehsalı emalatxanasının tikintisi başa çatdırılaraq istifadəyə verilib. Müəssisənin fəaliyyətə başlaması ilə 160 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

2018-ci ildə iqtisadiyyatın müxtəlif sahələri üzrə ümumilikdə 291 milyon manat özəl investisiya cəlb olunub və 6209 yeni iş yeri açılıb. Hesabat dövründə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayon ərazisində və rayona təhkim olunmuş torpaqlarda fəaliyyət göstərən sahibkarlara 28 investisiya layihəsi üçün 23 milyon 458 min manat güzəştli kredit verilib.

Bütün bunların nəticəsidir ki, ötən il rayonda istehsal edilən sənaye məhsulunun həcmi 24 faiz artaraq 228 milyon manata çatıb. Sənaye müəssisələrində işləyənlərin sayı 8075 nəfər olub, işçilərin orta aylıq əməkhaqqı 348 manat təşkil edib.

İl ərzində rayonda tikinti işlərinin həcmi 102 milyon manat təşkil edib, mənzil tikinti kooperativləri tərəfindən çoxmənzilli yaşayış binaları üzrə 542 min kvadratmetrlik yaşayış fondunun tikintisi başa çatdırılaraq istismara qəbul edilib. Bundan əlavə rayon ərazisində 201 min kvadratmetr xidmət, istehsalat və ticarət üzrə qeyri-yaşayış obyekti, 249 min kvadratmetr isə istixana kompleksi istismara qəbul olunub.

Sahibkarlığın inkişafı rayonda yerli vergi daxilolmalarının artımına da səbəb olmuşdur. 2019-cu il də daxil olmaqla artıq 8 ildir ki, Abşeron rayonu dotasiya almadan yerli gəlirlər hesabına öz xərclərini maliyyələşdirir. Hesabat dövründə büdcəyə 41 milyon 646 min manat vəsait cəlb olunaraq proqnoza 115,1 faiz əməl edilib, rayonun yerli xərcləri isə 97,1 faiz icra olunub. 2019-cu ildə rayonun öz xərclərindən əlavə 24,9 milyon manat vəsaitin dövlət büdcəsinə ödənilməsi nəzərdə tutulur.







## Kənd təsərrüfatı istehsalında 34 faiz yüksəliş olub

Rayonda kənd təsərrüfatı sahəsinin, xüsusilə də bitkiçilik məhsulları istehsalının artımına nail olunub. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalının həcmi 34 faiz artaraq 74 milyon manata çatıb. İl ərzində 648 hektar tərəvəz sahəsindən 76213 ton məhsul yığılıb, 1417 hektar sahədə taxıl biçini itkisiz başa çatıb. Bundan başqa, hesabat dövrü ərzində 40 min 556 sentner ət, 524 min 256 sentner süd istehsal edilib. Yumurta istehsalı isə 137,6 milyon ədəd olub.

Rayonda süni yolla mayalanmış heyvanlardan il ərzində 659 baş diri buzov alınıb. "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 avqust 2015-ci il tarixli sərəncamına əsasən həmin heyvan sahiblərinə 65 min 900 manat subsidiya verilib. Bundan başqa, "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" Azərbaycan Prezidentinin 5 mart 2018-ci il tarixli sərəncamının icrası ilə əlaqədar arıçılıqla məşğul olan 75 nəfər sahibkarın 3047 arı ailəsi olması barədə sənədlər tərtib olunaraq onlara 30 min 470 manat subsidiya ödənilməsi üçün respublika komissiyasına təqdim edilib.

Abşeronda Prezident İlham Əliyev tərəfindən verilmiş tapşırıqlara uyğun olaraq kənd təsərrüfatı torpaqlarında zeytun və badam bağları sahələrinin genişləndirilməsi ilə bağlı işlər də diqqət mərkəzindədir. Hazırda Xəzər rayonu ərazisindən Abşeron rayonuna təhkim olunmuş kənd təsərrüfatı təyinatlı torpaqlarda "Grand Aqro" MMC tərəfindən 3570 hektar sahədə aqropark yaradılması istiqamətində işlər sürətlə davam etdirilir. Bununla bağlı 2018-ci ildə 168 hektar sahədə yeni badam bağı salınaraq, ümumi sahəsi 378 hektara çatdırılıb, damlama üsulu ilə suvarma şəbəkəsi quraşdırılıb, 39,2 kilometr uzunluğunda su xətti çəkilib, 160 min kubmetrlik 5 su hovuzu tikilib, 30 ədəd müxtəlif təyinatlı texnika alınıb.

## Hökməli-Qobu-Lökbatan, Güzdək-Buta, Mehdiabad-Pirşağı yolları yenidən qurulub

Abşeron ölkənin iri rayonları sırasında yer alır. Lakin nə qədər böyük olsa da, abadlıq və quruculuq işləri bütün rayonu əhatə edir. Diqqəti çəkən isə bu işlərin davamlı olmasıdır.

Ötən il Xırdalan şəhərində 30 binanın dam örtüyü, 14 binanın fasadı, 12 binanın pilləkənləri və kanalizasiya xətləri əsaslı təmir olunaraq sakinlərin istifadəsinə verilib. Ötən il şəhərin küçə və məhəllələrində 5100 paqometr səki daşı düzülüb, 2100 kvadratmetr tomet, 44600 kvadratmetr sahəyə yeni asfalt örtük döşənib. Bundan əlavə, 10 ədəd söhbətgah, 34 ədəd karusel və idman qurğusu quraşdırılıb, 3 bulaq inşa olunub. Rəşid Behbudov küçəsində əlillər üçün inşa edilmiş binaların qarşısında sakinlərin asudə vaxtlarını keçirmələri üçün park salınıb. Ümumiyyətlə, çoxmənzilli yaşayış binalarının ətrafında olan qanunsuz tikililərin aradan qaldırılması, sakinlərin istirahəti üçün şəraitin yaradılması ilə bağlı verilən tapşırıqlara əməl olunaraq son 3 ildə Xırdalan şəhərində binaların həyətlərindən ümumilikdə 265 qaraj götürülüb, 432 daş və metal hasar, 40 kiçik tikili sökülüb.

Rayonun digər yaşayış ünvanlarına gəldikdə, Ceyranbatan qəsəbəsində 8 çoxmənzilli yaşayış binasının dam örtüyü, fasadı, pilləkən qəfəsi, Mehdiabad qəsəbəsində 1 dördmərtəbəli, 7 girişli çoxmənzilli yaşayış binasının pilləkən qəfəsi təmir edilib. Aşağı Güzdək qəsəbəsində 6500 kvadratmetrlik ərazidə park salınıb, 100 ədəd oturacaq quraşdırılıb.

Ötən il uzunluğu 18 kilometr olan Hökməli-Qobu-Lökbatan yolu, 4,6 kilometr uzunluğunda Güzdək-Buta yolu, 7,2 kilometr uzunluğunda Mehdiabad-Pirşağı yolu əsaslı yenidən qurulub. Bundan əlavə, Bakı-Quba avtomagistralından Saray-Novxanı istiqamətindəki tikintisi yarımçıq qalmış dairəvi yolun 3 kilometr hissəsinə asfalt örtük döşənib. Bu yolun istifadəyə verilməsi Masazır kəndinin mərkəzi Əlağa Vahid küçəsindəki avtomobil sıxlığının aradan qaldırılmasında böyük rol oynayır.



Bundan əlavə, rayonun daxili imkanları hesabına yaşayış məntəqələrində küçə və yollarda 65 min kvadratmetr asfaltlama işləri həyata keçirilib. Rayon ərazisində mərkəzi avtomobil yollarının kənarlarında da abadlaşdırma işləri davam etdirilir. Park, yol kənarı və digər ərazilərdə 61 min ədəd zeytun, xan çinar, şam və digər növ ağaclar əkilib. Mehdiabad-Pirşağı, Hökməli-Qobu yolu boyunca hasarların hörülməsi, suvanaraq rənglənməsi işləri həyata keçirilib. Məmmədli kəndində mərkəzi Heydər Əliyev küçəsində yol kənarındakı divarlara 2160 kvadratmetr bəzək daşı vurulub.

## Kommunal xidmətlərdə çətinlik yoxdur

Abşeronda kommunal xidmətlər sarıdan da vəziyyət ürəkaçandır. Ötən il Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə rayonun Pirəkəşkül, Qobustan kəndlərində içməli su, Mehdiabad və Digah qəsəbələrində isə ayrılmış vəsait həcmində 5200 paqometr uzunluğunda kanalizasiya xətlərinin yenilənməsi işləri həyata keçirilib. Həmçinin Prezidentin müvafiq tapşırığı əsasında Masazır və Novxanı kəndləri ərazisində çirkab suların axıdılması üçün 16 kilometr uzunluğunda kanalizasiya xəttinin və iki nasosxananın inşası başa çatdırılıb.

Azərbaycan Hökuməti ilə Səudiyyə İnkişaf Fondunun birgə maliyyələşdirdiyi Xırdalan şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsi üzrə 2017-ci ilin iyul ayından başlanılmış işlər davam etdirilir. Ötən müddət ərzində müxtəlif diametrli 109 kilometr uzunluğunda içməli su, 61 kilometr uzunluğunda kanalizasiya xətti çəkilərək 16481 evə birləşdirilib. Ümumilikdə bu xətlərin çəkilişi işlərinin 65 faizi görülüb. İşlərin bu ilin sonuna qədər başa çatdırılması nəzərdə tutulur.

"Azərsu" ASC tərəfindən Masazır kəndinin Sarı Aşıq küçəsində 1600 paqometr içməli su xətti çəkilərək 200-dən çox fərdi yaşayış evinə birləşdirilib, rayon sukanal idarəsi tərəfindən Aşağı Güzdək qəsəbəsinə gələn su xəttinin yararsız vəziyyətdə olan 1700 paqometri dəyişdirilib. Daxili imkanlar hesabına Məmmədli kəndində qrunt sularının axıdılması məqsədilə açıq kanal çəkilərək mərkəzi kanalizasiya xəttinə birləşdirilib.

Rayon əhalisinin elektrik enerjisi ilə təminat sahəsində də layihələr həyata keçirilmişdir. Rayonun yaşayış məntəqələrində 56 yeni transformator qoyulub, 15 transformator təmir edilib, 2929 ədəd dayaq və 92 400 metr naqil dəyişdirilib, yaşayış məntəqələrində 139300 metr uzunluqda "SİP" kabelləşməsi aparılıb, 17058 ədəd sayğac quraşdırılıb. Hökməli, Qobu, Aşağı Güzdək, Saray, Masazır, Fatmayı, Görədil, Novxanı, Məmmədli yaşayış məntəqələrində elektrik təsərrüfatının yenidən qurulması istiqamətində işlər davam etdirilib. Masazır və Məmmədli kəndlərində inşa edilmiş 35 kv-luq yarımstansiyaların istifadəyə verilməsi nəticəsində əhalinin elektrik enerjisi ilə təchizatı xeyli yaxşılaşdırılıb.

Rayon əhalisinin təbii qazla təchizatı ilə bağlı Xırdalan, Saray, Qobu, Hökməli yaşayış məntəqələrində müxtəlif diametrli 14,6 kilometr uzunluğunda yeni təbii qaz xətləri çəkilib, 18 ədəd qaz təzyiq tənzimləyicisi və 8026 ədəd sayğac quraşdırılıb.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq olunub. Proqramda Abşeron rayonu ərazisində elektrik enerjisi, içməli su, təbii qaz, yol və digər infrastruktur layihələrinin icrası, sahibkarlığın inkişafı, investisiyaların cəlb edilməsi, Qobu qəsəbəsində Sənaye Məhəlləsinin yaradılması, metal məmulatlar, kabel, dəri məhsulları, karton qutuları, un, qənnadı, sərinləşdirici içkilər, tütün məmulatları, zeytun yağı, pivə, müasir tipli beton istehsalı, badam, zeytun, süd emalı müəssisələrinin yaradılması, aqroparkın fəaliyyətinin genişləndirilməsi, yeni məktəb və tədris korpuslarının inşası, Mərkəzi Rayon Xəstəxanası üçün bina tikintisinin başa çatdırılması və digər sosial layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Bundan əlavə, ölkə Prezidentinin müvafiq sərəncamı ilə ayrılmış vəsait hesabına Xırdalan şəhərində 6 çoxmənzilli yaşayış binası üzrə 27 liftin əsaslı təmiri işlərinin həyata keçirilməsi təmin ediləcək.

## Rayonun həyatında əlamətdar hadisələr çoxdur

Yığıncaqda qeyd edildi ki, ötən ilin dekabr ayında Abşeron rayonuna məxsus ərazidə bütün infrastruktura malik 1000 ailəlik yeni yaşayış kompleksinin inşası başa çatdırılıb. Qəsəbənin Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılışı rayonun həyatında əlamətdar hadisə kimi yadda qalıb.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə valideyn himayəsindən məhrum olmuş kimsəsiz uşaqlara Masazır kəndində daha bir 12 mərtəbəli çoxmənzilli yaşayış binasının inşası başa çatdırılıb. Ümumilikdə Masazır kəndində bu məqsədlə 365 mənzildən ibarət 3 çoxmənzilli yaşayış binası tikilib istifadəyə verilib.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə bağlı Türkiyə Respublikasının Bursa şəhərində keçirilmiş bayram tədbiri, Azərbaycan Polisinin, Prokurorluğun və Silahlı Qüvvələrin yaranmasının 100 illik yubileyləri, Abşeron rayonunun yaranmasının 55 illiyi ilə əlaqədar keçirilmiş mərasim də hesabat dövründə yaddaqalan tədbirlərdəndir.

2018-ci il ərzində rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin normal fəaliyyətlərinin təmin edilməsi istiqamətində işlər davam etdirilib. Yeni dərs ilində rayonun Mehdiabad qəsəbəsində 1200 şagird yerlik müasir məktəb binası istifadəyə verilib, rayonun daxili imkanları hesabına Xırdalan şəhərində 2 və 22 saylı körpələr evi-uşaq bağçası təmir olunub. Masazırdakı Yeni Bakı yaşayış kompleksində isə 6 qruplu 120 yerlik, Görədil kəndində 4 qruplu 80 yerlik körpələr evi-uşaq bağçasının tikintisində son tamamlama işləri görülməkdədir.

Əvvəlki illərdə olduğu kimi, hesabat dövründə də rayonun şəhid, əlil və imkansız ailələrinə diqqət artırılıb. Rayon icra hakimiyyəti başçısı yanında büdcədənkənar inkişaf və bərpa fondundan 242 nəfərə 48 min 300 manat yardım göstərilib. Rayon ərazisində məskunlaşmış 10844 məcburi köçkün ailəsinin qayğıları da daim diqqət mərkəzində saxlanılır. Həmişə olduğu kimi, məcburi köçkün rayonlarının işğal günü ərəfələrində həmin rayondan olan şəhid ailələri ilə görüşlər keçirilərək onlara maddi kömək göstərilib.

Hesabat dövründə vətəndaşların qəbuluna diqqətlə yanaşılıb. RİH başçısının həftə ərzində bir gün rayon icra hakimiyyətində, bir gün isə yerlərdə olmaqla sakinlərin səyyar qəbulları təşkil edilib. RİH başçısı tərəfindən ötən il 690 nəfər vətəndaşın müraciəti dinlənilib, onların qaldırdığı problemlərin həll olunması üçün lazımi tədbirlər görülüb. 2018-ci ildə rayonun qəsəbə və kəndlərində 8 min nəfərdən çox sakinin iştirak etdiyi 35 səyyar qəbul-görüş keçirilib. Qəbullarda qaldırılan məsələlərlə bağlı tədbirlər planı tərtib edilərək aidiyyəti müəssisə və təşkilatlarla birlikdə icrası ciddi nəzarətə götürülüb.

İclasda rayon üzrə maliyyə idarəsinin rəisi Faiq Şirəliyevin, Məşğulluq Mərkəzinin direktoru Elmir Quliyevin, ağsaqqal Arif Sadıqovun, tələbə Günel Salahovanın və sahibkar Fuad Bəşirovun da çıxışları maraqla qarşılandı. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Habil Əzənmədov ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətdən söz açdı, islahatların bütün sahələrdə inkişafa böyük təkan verdiyini dedi. Daha sonra rayonun sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafında səmərəli fəaliyyətlərinə və əldə etdikləri nailiyyətlərə görə "Bolluq LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti, sahibkar Gülməmməd Babayev və 700 balla Bakı Ali Neft Məktəbinə qəbul olmuş Rüstəm Qarayev, sərbəst güləş üzrə Dünya çempionu, 3 qat Avropa çempionu, Azərbaycanın ən gənc əməkdar məşqçisi, Beynəlxalq dərəcəli hakim Tural Əliyev rayon icra hakimiyyətinin fəxri fərmanı ilə təltif olundular. Yekunda şura iclasının iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edildi.

Bir daha qeyd edildi ki, Abşeronda bütün sahələrdə vəziyyət ürəkaçandır. Bunlar isə onu deməyə əsas verir ki, rayon 2019-cu ili də yüksək nailiyyətlərlə başa vuracaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***









# Tarix İnstitutu beynəlxalq əlaqələrini genişləndirir

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutu beynəlxalq əlaqələrini getdikcə genişləndirir. Bu günlərdə institutun direktoru, akademik Yaqub Mahmudovun başçılıq etdiyi nümayəndə heyətinin Misir Ərəb Respublikasına səfəri çərçivəsində keçirilən tədbirlər buna aydın misaldır. Bu tədbirlər Azərbaycanın Misir Ərəb Respublikasındakı səfirliyi tərəfindən təşkil olunub.







Tarix İnstitutundan bildiriblər ki, Azərbaycan nümayəndə heyətinin iştirakı ilə Misirdə institutun ərəb dilindəki nəşrlərinin təqdimatı keçirilib. Tədbirdə eləcə də Misirin nüfuzlu elm və ictimai xadimləri, azərbaycanlı və misirli tələbələr iştirak ediblər.

Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, ölkəmizin Misirdəki səfiri Tural Rzayev, Misir-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, professor Usamə Əl-Əbd və başqaları tədbirdə çıxış ediblər.

Yaqub Mahmudov iştirakçılara ərəb dilindəki nəşrlər - “İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi”, “Real tarix və “böyük Ermənistan” uydurması”, “İrəvan xanlığı: İrəvan qalası - qəhrəmanlıq qalası”, “İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi İrəvan məscidləri”, “Çuxursəd hakimləri və İrəvan xanları” və “İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi Xan sarayı” kitabları barədə ətraflı məlumat verib.

Daha sonra professor Usamə Əl-Əbdə Tarix İnstitutunun fəxri doktoru diplomu təqdim olunub.

Akademik Y.Mahmudovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizin Misirdəki səfirliyində eləcə də azərbaycanlı və misirli tələbələrlə görüşüb. Görüşdə azərbaycanlı tələbələr və Azərbaycan dilini öyrənən bir qrup misirli tələbə iştirak edib.

Sonda tələbələrə Tarix İnstitutunun ərəb dilindəki nəşrləri təqdim olunub.

Nümayəndə heyəti və ölkəmizin Misirdəki səfirliyinin məsul əməkdaşları Misirin tarixi abidələr nazirinin müavini Mustafa Amin Mustafa ilə görüşərək danışıqlar aparıblar.

Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov Azərbaycanın Misir kimi qədim sivilizasiya mərkəzi olduğunu bildirərək, nazir müavininə Azıx mağarası, Qobustanın qayaüstü rəsmləri, Nuh tufanı - Naxçıvan və s. haqqında məlumat verib.

Mustafa Amin Mustafa qeyd edib ki, onlar Azərbaycan abidələrinin, o cümlədən işğal altında olan və tarixi Azərbaycan torpaqlarında yerləşən mədəni memarlıq irsinin Misirdə, Misir abidələrinin isə Azərbaycanda təbliğinə hazırdırlar.

Tarix İnstitutu və Misirin tarixi abidələr nazirliyi birgə konfransların keçirilməsi və əsərlərin nəşri barədə razılığa gəliblər.

Daha sonra Y.Mahmudovun rəhbərlik etdiyi nümayəndə heyəti Misir Elmi Araşdırmalar Akademiyasının vitse-prezidenti Samih Hamdi Surur ilə görüşüb.

Görüşdə akademik bildirib ki, azərbaycanlı alimlər bütün islam dünyasına yayılıb və olduqları yerlərdə mədəniyyətin inkişafına töhfə veriblər. Bunun nəticəsidir ki, İbrahim Gülşəninin qəbri Qahirədə, İmadəddin Nəsiminin qəbri Hələbdə, Məhəmməd Füzulinin qəbri Kərbəlada, Nəsirəddin Tusinin qəbri isə Bağdaddadır. O həmçinin qeyd edib ki, Səlahəddin Əyyubi Azərbaycan və Misirin ortaq qəhrəmanıdır: “O, əslən Azərbaycandandır”.

Tarix İnstitutu ilə Misir Elmi Araşdırmalar Akademiyası arasında elmi əməkdaşlıq müqaviləsinin imzalanması barədə razılıq əldə olunub.

Akademik Misirin tarixi abidələr nazirliyinə və Misir Elmi Araşdırmalar Akademiyasına Tarix İnstitutunun ərəb dilindəki sözügedən nəşrlərini təqdim edib.

Tarix İnstitutunun nümayəndə heyəti və ölkəmizin Misirdəki səfirliyinin məsul əməkdaşları Qahirə Universitetində də olublar.

Nümayəndə heyəti universitetin Humanitar elmlər fakültəsinin dekanı, professor Əhməd Əş-Şərbini Əs-Seyd, Şərq dilləri departamentinin rəhbəri, doktor Cəlal Əs-Səid əl-Həfnəvi və digər alimlər ilə görüşlər keçirib.

Görüşün əvvəlində Yaqub Mahmudov Qahirədə baş vermiş terror hadisəsi ilə bağlı kədərləndiyini bildirərək, nümayəndə heyəti adından Misir xalqına dərin hüznlə başsağlığı verib. Azərbaycan və Misir əlaqələrinin tarixindən danışan akademik deyib ki, tarixinə sahib çıxan xalq yenilməzdir: “Hər iki ölkənin tədqiqatçıları üçün ortaq tarixi əlaqələr və mədəni dəyərlərin araşdırılması çox mühümdür. Ərəb xilafəti dövründən etibarən başlanan qarşılıqlı münasibətlərimiz indi daha da genişlənib”.

Yaqub Mahmudov erməni təcavüzkarlarının müstəqil Azərbaycana qarşı işğalçılıq siyasətindən, xalqımıza qarşı törədilən soyqırımlarından, xüsusilə Xocalı soyqırımından bəhs edib: “BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə baxmayaraq, Ermənistan Azərbaycan torpaqlarını hələ də işğal altında saxlamaqda davam edir. Tarixi Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində və ölkəmizin işğal olunmuş Qarabağ torpaqlarında yüzlərlə tarixi abidə, müsəlman irsi məhv edilir və tarix saxtalaşdırılır. Bu vandalizmə qarşı elmi müstəvidə birləşməliyik”.

Professor Əhməd Əş-Şərbini hər zaman Azərbaycanın haqlı davasına dəstək olacaqlarını bildirib. Doktor Cəlal əl-Səid əl-Həfnəvi isə qeyd edib ki, universitetdə yüzdən artıq tələbəyə xarici dil kimi Azərbaycan dili tədris edilir.

Yaqub Mahmudov və Əhməd Əş-Şərbini Azərbaycan həqiqətlərinin Misirdə daha geniş yayılması üçün yaxın zamanlarda Qahirə Universitetində Azərbaycanşünaslıq Mərkəzinin yaradılması barədə razılığa gəliblər.

Akademik görüşün sonunda universitetə Tarix İnstitutunun ərəb dilindəki nəşrlərini təqdim edib.

Akademik Yaqub Mahmudovun rəhbərlik etdiyi nümayəndə heyəti Misir Ərəb Respublikasının İsgəndəriyyə Kitabxanasında olub.

İsgəndəriyyə Kitabxanası ilə tanışlıq zamanı Yaqub Mahmudova kitabxananın tarixi, oxu zalları və fondları barədə geniş məlumat verilib. O, Azərbaycan, Qafqaz, Orta Asiya ilə bağlı kitab fondlarının mövcudluğu ilə yaxından maraqlanıb, əlyazmalar fondunda Əl-Məsudi, İbn Fədlan və başqa ərəb coğrafiyaşünasların əsərləri ilə yaxından tanış olub.

Kitabxananın xarici əlaqələr və protokol şöbəsinin müdiri Şərif Riyadla görüş zamanı qarşılıqlı əlaqələrin perspektivləri müzakirə edilib. Azərbaycan və Misir əlaqələrinin tarixindən danışan akademik qeyd edib ki, ölkəmizin islam mədəniyyəti tarixində mühüm rolu var. O bildirib ki, kitabxananın əvvəlki direktoru İsmayıl Serageldin Tarix İnstitutunun fəxri doktorudur. 2015-ci ildə İsgəndəriyyə Kitabxanasında Azərbaycanın böyük şairi Nizami Gəncəviyə həsr olunmuş beynəlxalq konfrans və dahi mütəfəkkirin büstünün açılış mərasimi keçirilib.

Yaqub Mahmudov Şərif Riyada ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi və xalqımıza qarşı törədilən soyqırımları barədə ətraflı məlumat verib. Akademik görüşün sonunda İsgəndəriyyə Kitabxanasına Tarix İnstitutunun ərəb dilindəki nəşrlərini - “İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi”, “Real tarix və “Böyük Ermənistan” uydurması” kitablarını və İrəvan xanlığı ilə bağlı broşürləri təqdim edib.

Şərif Riyad nəşrlərin tarixi həqiqətlərə işıq salacağını və kitabxana üçün vacibliyini bildirib. O deyib ki, ermənilər cinayətlərini gizlətmək üçün bütün dünyada qondarma “erməni soyqırımı”nı təbliğ edirlər.

Ş.Riyad isə instituta İsgəndəriyyə Kitabxanası haqqında məlumat kitabı və “Rozetta daşı” adlı nəşri təqdim edib.

Azərbaycan nümayəndə heyətinin İsgəndəriyyə səfəri Məmlük sultanları dövrünə aid Qayıtbəy qalasını (1477-ci il) ziyarət etməklə sona çatıb.

*“Azərbaycan”*

# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Sabirabad rayonunda Sabirabad, Saatlı, Hacıqabul rayonlarının və Şirvan şəhərinin sakinlərini fərdi qaydada qəbul edib.

Qəbul zamanı vətəndaşlar əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl şəkildə mühüm addımların atıldığına, həssas əhali qruplarına dövlət qayğısının əhəmiyyətli dərəcədə artdığına görə dövlət başçısı İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Görüşdə vətəndaşların sosial təminat, məşğulluq, aktiv məşğulluq tədbirlərinə və özünüməşğulluq proqramına cəlbolunma, tibbi-sosial reabilitasiya, əmək hüquqlarının müdafiəsi və s. məsələlərlə bağlı müraciətləri dinlənilib. Sorğu xarakterli müraciətlərlə əlaqədar vətəndaşlara hüquqi izahatlar verilib.

Bir sıra müraciətlərdə qaldırılan məsələlər nazirliyin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə yerindəcə araşdırılıb, uyğun tədbirlərin görülməsi üçün aidiyyəti üzrə tapşırıqlar verilib. Eləcə də ayrı-ayrı şəxslər işlə təmin edilmək üçün göndərişlə təmin olunub, kiçik ailə təsərrüfatını yaratmaq üçün potensialı olan işsiz şəxslər bu il özünüməşğulluq proqramına cəlb edilmək üçün qeydiyyata alınıblar.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

AZƏRTAC xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 27-də Hacıqabulda Şirvan şəhər, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar və Cəbrayıl rayonlarının sakinlərini qəbul edib.

Hacıqabuldakı Heydər Əliyev Mərkəzində keçirilən qəbulda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

***

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev fevralın 27-də Goranboy rayonunda vətəndaşları qəbul edib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, qəbulda Goranboy, Gəncə, Naftalan, Şəmkir rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər iştirak ediblər. Müraciətlər, əsasən, mənzil, məşğulluq, vahid aylıq müavinət, statusun verilməsi və digər məsələlərlə bağlı olub. Vətəndaşların müraciətləri dinlənilib, onlara geniş izahat verilib.

Qəbulda iştirak edən vətəndaşların müraciətlərinin bir qismi yerində həll edilib.

Dövlət komitəsinin sədri müraciətlərdə qaldırılan məsələlərin qısa müddətdə araşdırılacağını və müvafiq tədbirlərin görüləcəyini bildirib.

# BİLDİRİŞ

“Azərbaycan” qəzetinin 24 yanvar və 7 fevral 2019-cu il tarixli nömrələrində “Azərsu” ASC daxili vəsaiti hesabına mal-materialların satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 14 mart 2019-cu il saat 16.00-a, təkliflərin açılışı isə 15 mart 2019-cu il saat 16.00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - təchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +994124314767(2249).

*Tender komissiyası*

bp

## BP operator olaraq elan edir ki, D230 bloku üzrə kəşfiyyat işləri proqramı çərçivəsində planlaşdırılan seysmik tədqiqat işlərinin Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirinin Qiymətləndirilməsi sənədinin layihə variantını müzakirə etmək üçün ictimaiyyətlə görüş keçiriləcək

BP bütün maraqlı tərəfləri bu görüşdə iştirak etməyə dəvət edir

Görüş **5 mart 2019-cu il tarixində saat 10:00-12:00-dək “HOLIDAY INN” mehmanxanasının (ünvan: Bakı, Kövkəb Səfərəliyeva küçəsi 5), “Bakı 2” iclas zalında** keçiriləcək.

**Həmin sənədin nüsxələri və müvafiq rəy formaları 1 fevral 2019-cu il tarixindən ictimaiyyətin tanış olması və istifadəsi üçün aşağıdakı ünvanlarda da yerləşdirilib:**

- BP-nin Xəzər Mərkəzi ofisinin qəbul şöbəsi: Neftçilər prospekti 153
- M.F.Axundov adına Milli Kitabxana: Xaqani küçəsi 29
- Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası: Hüseyn Cavid küçəsi 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası: Azadlıq prospekti 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi: Bəhram Ağayev küçəsi 100a
- Bakı Kitab Mərkəzi: Üzeyir Hacıbəyli küçəsi 5; Qoqol küçəsi 2
- Libraff kitab mağazası: Hüseyn Cavid prospekti 186 (Mirvari Park kompleksi, D Bloku)
- Bakı Ali Neft Məktəbinin kitabxanası: Yeni Salyan şosesi 3-cü km (Bakı Ali Neft Məktəbinin Kampusu)

Bundan əlavə, sənədin tam layihə versiyası və qısa xülasəsi (Azərbaycan və ingilis dillərində) BP-nin vebsaytında yerləşdirilib:
https://www.bp.com/en_az/caspian/sustainability/environment/env-and-social-documentation.html.

BP həmçinin ictimaiyyətin nümayəndələrini sənədin layihə versiyası ilə bağlı şərh və rəylər təqdim etməyə dəvət edir. Şərhlər həm görüş zamanı, həm də www.bp.com/caspian vebsaytına daxil olmaqla və ya esiafeedback@bp.com elektron ünvanına məktub göndərməklə təqdim oluna bilər.

Əlavə məlumat üçün BP-nin tələblərə riayət və icazələr üzrə qrup rəhbəri Səadət Qafarova ilə əlaqə saxlamağınız xahiş olunur:
e-poçt: esiafeedback@bp.com; telefon: (012) 404-69-19 və ya (055) 225-90-13

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi 2019-cu ildə Bakı şəhərində və regionlarda dövlət bayramlarına, bölgələrin yaradıcılığına həsr olunmuş festival, bayram, müsabiqə və tədbirlərin, eləcə də uşaq və gənclər arasında incəsənətin növləri üzrə respublika müsabiqə və festivalların təşkili işlərinin satın alınması ilə əlaqədar**

## *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**2019-cu ildə Bakı şəhərində və regionlarda dövlət bayramlarına, bölgələrin yaradıcılığına həsr olunmuş festival, bayram, müsabiqə və tədbirlərin, eləcə də uşaq və gənclər arasında incəsənətin növləri üzrə respublika müsabiqə və festivalların təşkili işlərinin satın alınması ilə əlaqədar**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **AZ1000, Bakı şəhəri, Hökümət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanından (Əlaqələndirici şəxs Qılıncov Bəxtiyar, telefon 012 498 97 81, bgilinjov@gmail.com)** ala bilərlər.

**İştirak haqqı: 150 manat**
**Hesab: AZ78CTRE00000000000002178501**
**VÖEN: 1700015381**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu : 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10.04.2019, saat 17:00** tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **18.04.2019, saat 17:00-a** qədər, **AZ1000, Bakı şəhəri, Hökümət Evi, Ü.Hacıbəyli küçəsi, 84** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **19.04.2019 saat 14:00** tarixində **AZ1000, Bakı şəhəri, Hökümət Evi, Ü.Hacıbəyli küçəsi, 84** ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

# XİN: Polşa vətəndaşının adı arzuolunmaz şəxslər siyahısından çıxarılıb

Polşa Respublikasının vətəndaşı Karol Malolepşı Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının “Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısı”ndan çıxarılmasını xahiş edib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Məktubunda o, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə, eləcə də qanun və qaydalarına tam hörmət etdiyini qeyd edib. Səfərinə görə üzr istəyən Karol Malolepşı gələcəkdə ölkəmizə səfər etməsi üçün icazə verilməsini xahiş edib.

K.Malolepşının müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul olunub.

“Azərbaycan”a cavab verirlər

# Qəzetlərin satışına diqqət və nəzarət artırılacaq

Bakı Şəhər İcra Hakimiyyəti qəzetimizin 26 yanvar 2019-cu il tarixli nömrəsində dərc olunmuş “Qəzetsiz qəzet köşkləri” adlı məqaləsi ilə bağlı redaksiyamıza cavab məktubu göndərmişdir.

Xatırladaq ki, məqalədə əsas vəzifəsi dövri mətbuatın satışı olan qəzet köşklərinin daha çox kiçik ticarət obyekti kimi fəaliyyət göstərmələrindən və bunun qəzet yayımına mənfi təsirlərindən bəhs olunmuşdur.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar ƏZİZOVUN imzaladığı məktubda yazılır:

“Azərbaycan” qəzetinin 26 yanvar 2019-cu il tarixli nömrəsində çap olunmuş “Qəzetsiz qəzet köşkləri” məqaləsində qaldırılan məsələlərlə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə ünvanladığınız 25 saylı 29.01.2019-cu il tarixli məktubunuza tərəfimizdən baxılmışdır.

Bildiririk ki, hazırda Bakı şəhərində əhaliyə dövri mətbuatın satışı qəzet redaksiyalarının özləri və müxtəlif mətbuat yayımı firmalarının təchizatı əsasında Bakı Şəhər Ticarət və Xidmət Departamentinin balansında olan təsərrüfat hesablı köşklər tərəfindən həyata keçirilir.

Məsələ ilə bağlı departamentin rəhbərliyinə onun balansında olan təsərrüfat hesablı köşklərdə dövri mətbuatın satışı məsələlərinə diqqət və nəzarətin artırılması, burada qəzet və jurnalların, o cümlədən “Azərbaycan” qəzetinin satışının maksimum səviyyədə təşkil edilməsinə kömək göstərilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir”.

Sosial məsələyə siyasi baxış

# Uşaqpulu haqqında uşaq söhbəti

Azərbaycanda uşaqpulunun verilib-verilməməsi həssas və həssas olduğu qədər də vacib məsələdir. Əgər bu həssaslıq əhalinin, xüsusən yeni doğulan və yeniyetmə yaşına çatmayan uşaqlı ailələrin sayının az olmaması ilə bağlıdırsa, vacibliyi sözügedən məsələnin birbaşa ölkənin gələcək demoqrafik vəziyyəti ilə əlaqədardır. Birincidə söhbət uşaqlı gənc cütlüklərin sosial müdafiəsindən, ikincidə bütünlükdə ölkənin iqtisadi inkişafının etibarlı təminatı üçün sınaqdan çıxmış yolların birindən (əhali artımını nəzarətdə saxlamaqdan) gedir.

Allah qoysa, bu il Azərbaycanın 10 milyonuncu vətəndaşının dünyaya gəlməsi gözlənilir və sözsüz ki, hamımız həmin hadisəni sevinclə qeyd edəcəyik. Özlüyündə adi yuvarlaq demoqrafik statistika olacaq həmin gözləntimiz əslində, bir çox sosial mətləblərdən soraq verir. O mətləblərin ən önəmlisi odur ki, Azərbaycanda bir çox yaxın və uzaq ölkələrdə olduğu kimi, əhalinin azalma problemi yoxdur. Ölkəmizdə artıq neçə zamandır hər il əhalinin sayı 80-100 min nəfər artır. Təkcə ötən il həmin artım 83,3 min nəfərdən çox olmuşdur. Bu isə Azərbaycanın orta statistik bir rayonunun əhalisi qədərdir.

Hər il əhali sarıdan “yeni” bir rayonun əmələ gəlməsinin dövlət, onun sosial-iqtisadi öhdəlikləri üçün nə demək olduğunu bilirsinizmi? Bax, bu bildiklərimiz və bilmədiklərimiz digər mətləblərdir. Onlarınsa öhdəsindən gəlmək hətta mənəm deyən ölkələr üçün bəzən asan olmur. Bu baxımdan Azərbaycan tək ölkədir ki, işğalçı qonşusu ilə hərb vəziyyətində olmasına, həmin üzdən yüz minlərlə qaçqın və məcburi köçkün soydaşlarımızın problemləri ilə təkbətək qalmasına baxmayaraq, son 25 ildə təxminən 3 milyonluq əhali artımının yaratdığı sosial gərginliyi qarşılaya bilmişdir. Səbəbi ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin praqmativliyi, o cümlədən qəbul edilən regional inkişaf dövlət proqramlarındakı vəzifələrin vaxtında icra olunmasıdır.

Amma bütün ölkələr kimi, Azərbaycanın da nəzarətdən çıxan sayda əhalinin sosial problemlərini yoluna qoymaq üçün imkan və potensialı hədsiz deyil. Xüsusən də söhbət yola verməkdən yox, yoluna qoymaqdan gedirsə. Bəli, bu gün Azərbaycan vətəndaşının tələbatı, dövlətdən umacağı 20-25 il öncəki deyil, tamam fərqlidir. İndi hamı yaxşı yaşamaq istəyir. Bunun üçünsə, ilk növbədə, müasir səviyyəli təhsil və yüksək ödənişli iş yerləri lazımdır. Onlar olarsa, digər zəruri tələbatlar özlüyündə ödəniləcək.

Lakin bundan ötrü dövlətin imkanı lazımdır və o imkan ölkə əhalisinin sayı ilə birbaşa bağlıdır. Əgər artım normal sayda və proqnozlaşdırılan çərçivədə saxlanılarsa, ölkənin iqtisadi inkişafı və bu inkişafın verdiyi imkan həmin tələbatları qarşılamaq üçün yetərli olacaq. Yox, əgər əhalinin artımı kortəbii surətdə kritik həddə çatarsa, onda heç bir inkişaf və imkan bu səbəbdən yaranan sosial problemləri aradan qaldırmağa bəs etməyəcək. Misal üçün, bəzi Şərq ölkələrini götürək. Uzun illərdir Çin, Hindistan, Pakistan, Banqladeş kimi ölkələr əhalinin arzuolunmaz sayda artmasından əziyyət çəkirlər və bunun qarşısını almaq üçün ağla gəlməyən tədbirlərə əl atırlar. Bu gün hətta Çin və Hindistanın iqtisadi cəhətdən sürətli inkişafı əhalinin artıqlığı üzündən yaranan sosial problemləri istənilən səviyyədə həll etməyə imkan vermir. Beynəlxalq Valyuta Fondunun 2017-ci ilin nəticələrinə istinadən yaydığı hesabata görə, adambaşına düşən ÜDM istehsalına görə Çin 79-cu, Hindistan 122-ci yerdədir. Həmin göstəriciyə əsasən 140-cı olan Banqladeş və 136-cı yerdə qərar tutan Pakistandan isə danışmağa dəyməz. Təbii ki, bu və təxminən eyni “dərd”də olan digər ölkələrin iqtisadi inkişafın əsas göstəricisinə görə geridə olmalarının bir, bəlkə də birinci səbəbi məhz əhalinin kortəbii artımının qarşısının vaxtında alınmamasıdır.

İndi isə gələk əhalinin çoxluğu sarıdan hələlik adlarını qeyd etdiyimiz ölkələrin gününə düşməyən, amma bundan “korluq” da çəkməyən ölkəmizə. O ölkəmizə ki, bu gün əhalinin artımına hesablanan tədbirlərə qətiyyən ehtiyacı yoxdur. Biz mövzunu təsadüfən bu səmtə yönəltmədik. Məsələ burasındadır ki, xüsusən son vaxtlar bəzi siyasiləşmiş iqtisadçılar Azərbaycanda bu cür tədbirləri, xüsusən uşaqpulu məsələsini tez-tez qabardır və ondan öz məlum məqsədləri üçün istifadə etməyə çalışırlar. Beləlləri yaxşı bilirlər ki, yapışdıqları məsələ əhalinin zəif yeri və sosial müdafiənin kövrək tərəfidir. Kimsə eşidəndə ki, məsələn, yaxın Rusiyada, yaxud uzaq Avropa və Şimali Amerikanın bəzi ölkələrində doğulan körpələrə və 18 yaşına qədər olan uşaqlara görə valideynlərə müxtəlif məbləğlərdə vəsait ödənilir, mahiyyətinə varmadan hökuməti ən azından qınamağa başlayır. Daha fikirləşmir ki, əhali artımını stimullaşdıran həmin ölkələrdə buna ehtiyac var. Alimlər hesablayıblar ki, Rusiyada demoqrafik vəziyyət tezliklə həll olunmasa, ölkə əhalisinin sayı yaxın 30 il ərzində 40-45 milyon nəfər azala bilər. Avropa ölkələrində vəziyyət daha gərgindir. Orada yerli əhalinin kəskin azalması fonunda gəlmələrin sayı sürətlə artır. Belə olan hallarda isə əhali artımının stimullaşdırılması başadüşüləndir. Başa düşülməyən bu sahədə həmin ölkələrin Azərbaycanla müqayisə olunmasıdır.

Bu müqayisənin xalqın qayğısına qalmaqdan yox, qərəzdən irəli gəldiyinə əmin olmaq üçün “siyasi iqtisadçı”ların Azərbaycana “nümunə” kimi göstərdikləri ölkələrin siyahısına nəzər salmaq kifayətdir. Bəli, aralarında inkişaf etmiş dövlətlər də olan həmin siyahıda əhali artımı sarıdan problem yaşamayan bir ölkə belə yoxdur! Ümumiyyətlə, indi hətta uşaqlara da məlumdur ki, ailələrə yüksək məbləğlərdə uşaqpulunun verilməsi hansı zərurətdən irəli gəlir. Elə isə Azərbaycanda bu sahədəki reallıqdan, yəni məlum zərurətin olmaması səbəbindən doğan vəziyyəti “fakt”a çevirib hökumətin əleyhinə aparılan siyasi təbliğatda yersiz qabartmağın yeri varmı?!

Bu gün Azərbaycan dövlətinin qarşısında prioritet vəzifə kimi əhali artımını birbaşa stimullaşdırmaq deyil, ümumilikdə ölkə vətəndaşlarının sosial müdafiəsini daha da gücləndirmək durur. Hər il əməkhaqlarının, pensiyaların, təqaüdlərin, digər sosial ödənişlərin, *o cümlədən uşağın anadan olmasına görə verilən müavinətin həcminin artırılması (Prezidentin “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” 25 fevral 2019-cu il sərəncamı ilə bu məbləğ 200 manata çatdırılmışdır),* normal yaşamı təmin edən infrastrukturun yaradılması, təhsilin və səhiyyə xidmətlərinin keyfiyyətinin qabaqcıl dünya standartlarına çatdırılması, eləcə də yeni iş yerlərinin açılması, sahibkarlığa geniş meydan verilməsi və s. tədbirlər məhz bu məqsədə xidmət edir. Belə bir şəraitdə isə stimullaşdırıcı tədbirlərsiz də qeyd etdiyimiz kimi, ölkəmiz əhali artımı baxımından problem yaşamır. Bu isə o deməkdir ki, əhalinin güzəranını, dolanışığını yaxşılaşdırmaq üçün görülən tədbirlər müxalifətin son vaxtlar əlində bayraq etdiyi, mitinqlərdə şüara çevirdiyi uşaqpulundan daha effektlidir. Bəs onda uşaqpulu haqqında uşaq söhbəti nəyə gərək?

***Raqif MƏMMƏDOV, “Azərbaycan”***

# İsmayıllıda sahibkarlığın vəziyyəti müzakirə olunub

İsmayıllı rayonunda sahibkarlığın vəziyyəti, probblemlər və qarşıda duran vəzifələrlə əlaqədar Mədəniyyət Mərkəzində tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov rayonda sahibkarlıq sahəsində görülən işlərdən, ölkə rəhbərliyinin sahibkarlara göstərdiyi diqqət və qayğıdan ətraflı danışıb.





Tədbirdə İsmayıllı Rayon İcra Hakimiyyəti başçısı aparatının sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Şahin Hüseynov çıxış edib. O, rayonda sahibkarlıq fəaliyyətini təhlil edərək qarşıda duran vəzifələrdən bəhs edib.

Sonra rayon sahibkarlarına söz verilib. “Sandal” firmasının rəhbəri Rüstəm Əhmədov, “İsmayıllı Quşçuluq” ASC-nin idarə heyətinin sədri Zahid Qardaşov, tikiş fabrikinin drektoru Lətifə Əliyeva, “Xoşbəxt X” kiçik müəssisənin sahibi Ruhiyyə Süleymanova və digərləri görülən işlərdən, sahibkarları maraqlandıran problemlərdən danışıblar.

Tədbirə dəvət olunan Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin rəis müavini Əmir Əmirli, Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti Vüqar Camalov, İqtisadiyyat Nazirliyinin Şirvan Regional bölməsinin müdiri Azər Qasımov, 10 saylı Ərazi Regional Vergilər İdarəsinin rəisi Cavid Kəngərli çıxış edərək ölkə rəhbərinin sahibkarlığın inkişafına göstərdiyi qayğıdan, kreditləşmə mexanizmlərindən, vergi qanunvericiliyindən və sahibkarlıq sahəsində həyata keçirilən digər məsələlərdən danışıblar.

Tədbirdə rayon Sahibkarlar İctimai Birliyinin yeni tərkibi formalaşdırılıb. Könüllülük əsasında birliyə 9 nəfərdən ibarət üzv seçilib.

***“Azərbaycan”***

# Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin Ağdam rayonuna və Naftalan şəhərinə səfərləri həyata keçirilir

Azərbaycanın bölgələrinin sosial-iqtisadi inkişafı, turizm potensialı, turizm-xidmət sahələrinin müasir vəziyyəti ilə yaxından tanış olmaq məqsədilə fevralın 27-28-də ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun rəhbərlərinin Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə Ağdam rayonuna və Naftalan şəhərinə səfərləri həyata keçirilir.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfərdə ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun 70-ə yaxın nümayəndəsi iştirak edir.

Səfər çərçivəsində xarici diplomatların Ağdam rayonunda fəaliyyət göstərən muzey, müəssisə, mərkəzlər, o cümlədən “Ağdam Xalçaçılıq” müəssisəsi, “Qarabağ Atçılıq” kompleksi, “Muğam Mərkəzi”, “Bayraq Muzeyi”, eləcə də “Bənövşələr” qəsəbəsi ilə tanış olması, növbəti gün isə Naftalan şəhərinin turizm potensialı ilə yaxından tanışlığı nəzərdə tutulur.

# Yelkənçilərimizin növbəti beynəlxalq uğuru

## Yığmamız Omanda keçirilən yarışdan qələbə ilə qayıdıb





**Azərbaycanda idman yüksək sürətlə inkişaf edir və ildən-ilə daha uca zirvələrə yüksəlir. Sevindirici haldır ki, son illərdə ölkəmizi beynəlxalq arenada uğurla təmsil edən idmançılar sırasında yelkənçilərimiz də var. Yelkənli idman növündə qazanılan nailiyyətlər ölkəmizdə böyük sevinclə qarşılanır.**

Azərbaycan Yelkənli İdman Federasiyasının rəhbərliyinin məqsədyönlü və əzmkar fəaliyyəti nəticəsində yelkənli idman növünə olan münasibət istər ölkə daxilində, istərsə də dünyada əsaslı şəkildə dəyişməkdədir. Federasiya tərəfindən qabaqcıl Avropa şirkətlərindən yelkənli idman üzrə qayıqların gətirilməsi, eyni zamanda, qısa müddət ərzində beynəlxalq səviyyəli məşqçilərin Azərbaycana dəvət edilməsi bu sahədə uğurların qazanılmasını təmin edib.





### 23 ölkə, 156 idmançı

Ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil edən Azərbaycan Yelkənli İdman Federasiyasının yığma komandası Omanda “Optimist” və “Laser” sinifləri üzrə təşkil olunan “Mussanah Race Week 2019” turnirində mükafatçılar sırasına düşməklə növbəti dəfə onlara göstərilən etimadı doğruldublar.

Yarışda Azərbaycanı “Optimist” sinfi üzrə Ayla Babayeva, Fidan Ağazadə, Kristina Kərimova, Səxavət Əzimov, “Laser” sinfi üzrə Murad Allahverdi, İsmayıl Kərimov və Cavid Kərimov təmsil ediblər. Heyətin rəhbəri Burcu Algon Giorgianni, “Optimist” sinfi üzrə baş məşqçi Seyhun Yıldız, “Laser” sinfi üzrə məşqçi Tuğçə Subaşı olub.

23 ölkənin qatıldığı və 156 peşəkar idmançının iştirak etdiyi yarışda Azərbaycan Yelkənli İdman Federasiyasının yelkənçiləri bacarıqlarını layiqincə nümayiş etdiriblər. 12 yaşlı qızlar arasında 68 nəfərin apardığı maraqlı və gərgin mübarizədə “Optimist” sinfi üzrə Azərbaycanı təmsil edən Fidan Ağazadə 3-cü yerin qalibi olub.

Qeyd edək ki, peşəkarlar arasında 3-cü yerin qalibi adını qazanmaq Azərbaycan Yelkənli İdman Federasiyasının gənc üzvünün böyük uğuru kimi qiymətləndirilib.

Bir məqamı da vurğulayaq ki, Azərbaycan yelkənçilərinin ağır şərtlərlə pis hava şəraitində məşq və yarışlarda peşəkarlıq nümayiş etdirməsi beynəlxalq məşqçilərin hesabatlarında xüsusi qeyd olunub.





### Yelkənçilərimizə xüsusi dəvət

Əlavə edək ki, tanınmış, beynəlxalq səviyyəli məşqçi Draqan Qasiçin də iştirak etdiyi yarışa Azərbaycan Yelkənli İdman Federasiyasının yelkənçiləri xüsusi olaraq dəvət edilmişdilər.

Xatırladaq ki, ötən ilin 31 may-3 iyun tarixlərində Yelkənli İdman Federasiyasının komandasının hazırlığı, o cümlədən yerli məşqçilərin təcrübə qazanması məqsədi ilə təlim düşərgəsi təşkil olunmuşdu. Məşqlərin yüksək keyfiyyətli olması və bu istiqamətdə peşəkarlığın artırılması məqsədilə beynəlxalq səviyyəli məşqçi Draqan Qasiç Yelkənli İdman Federasiyası tərəfindən təlimə cəlb edilmişdi. 30 il məşqçi kimi fəaliyyət göstərən, altıqat dünya və dördqat Avropa çempionu olan Draqan Qasiç məşq prosesindən və idmançılarımızın hazırlığından razı qalmışdı.

Beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edən yelkənçilərimiz dəfələrlə ölkə xaricində təşkil olunan təlim - məşq düşərgələrində iştirak ediblər. Toplanışlarda iştirakın əsas məqsədi idmançılarımızın beynəlxalq yarışlara hazırlıqlarının təkmilləşdirilməsi, onların taktiki biliklərinin artırılması və müxtəlif hava şəraitində yarış təcrübələrinin daha da gücləndirilməsidir.

### Uğurlar davamlıdır

Yelkənçilərimizin uğurları Omanda qazanılan yüksək göstəricələrlə yekunlaşmır. Xatırladaq ki, ötən il Qazaxıstanın Aktau şəhərində keçirilən “Beynəlxalq Xəzər Kuboku” yarışında da idmançılarımız vətənə medallarla qayıdıblar. Turnirdə Azərbaycan idmançıları ilə yanaşı, Qazaxıstan və Özbəkistan təmsilçiləri də mübarizə aparıblar. Beynəlxalq turnirdə kişi idmançılarımız birinci və üçüncü yerlərdə, qızlarımız isə fəxri kürsünün hər üç pilləsində qərarlaşaraq medallara sahib olublar. Hər üç əyarlı medalın hamısına sahib olan yelkənçilərimizin yarışda qazandıqları parlaq qələbələr əcnəbi məşqçilərin də diqqətini cəlb edib, onların uğuru böyük rəğbətlə qarşılanıb.

Yarışda Azərbaycanı Murad Hacızadə, Kristina Kərimova, Ayla Babayeva, Fidan Ağazadə, Səxavət Əzimov, Nicat Şükürov, İsmayıl Həmidov, heyətin rəhbəri Burcu Algon Giorgianni, “Optimist” sinfi üzrə baş məşqçi Seyhun Yıldız, köməkçi məşqçi Aleksandr Knyazev təmsil ediblər.

Vurğulayaq ki, Yelkənli İdman Federasiyasının gənc yelkənçisi Kristina Kərimova Sloveniyada keçirilən “Easter Regatta” adlı beynəlxalq yarışda 139 idmançı arasından 4-cü yerdə qərarlaşaraq yüksək nəticə göstərmişdi.

Aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi hər zaman bu sahədə maddi texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, komandaya yeni idmançıları cəlb etmək olub. Azərbaycan Yelkənli İdman Federasiyasında hazırda “Optimist” və “Laser” sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə ayrı-ayrılıqda, xaricdən dəvət edilən iki baş məşqçi fəaliyyət göstərir. Məhz xaricdən dəvət edilən idman menecerlərinin, yüksək göstəricilərə malik mütəxəssislərin köməyi ilə komandaların davamlı məşqləri keçirilir.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# ÜÇ DƏNİZİN ƏFSANƏSİ-BTC

## Azərbaycandan beynəlxalq enerji aləminə açılan qapı



Bir zamanlar nağıla bənzədilən, “Üç dənizin əfsanəsi” adlandırılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri tam reallığa çevrilərək 13 ildir ahəngdar və təhlükəsiz fəaliyyət göstərir. Bu, BTC-nin uzaqgörənliklə, düzgün seçilmiş layihə olduğunu bir daha təsdiq edir. Öz memarının - ümummilli lider Heydər Əliyevin adını şərəflə daşıyan, üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan kəmər ümidləri doğruldur və onun əhəmiyyəti getdikcə artır.

BTC-nin tikilməsi zərurəti “Əsrin müqaviləsi”nin real nəticələrindən irəli gəlirdi. 1997-ci ilin noyabrında “Çıraq” platformasından ilkin neft alınmışdı. Qarşıda “Azəri”, “Dərinsulu Günəşli” yataqlarının işlənməsi dayanırdı və hasilatın ildən-ilə artacağı yəqin idi. Odur ki, fəaliyyətdə olan Bakı-Novorossiysk və Bakı-Supsa ixrac sistemlərinin gücü get-gedə artan həcmlər üçün kifayət deyildi. Daha qlobal bir boru xəttinin çəkilməsi vacib idi. Bununla bağlı ulu öndər Heydər Əliyev hələ keçən əsrin 90-cı illərinin ortalarında özünün düzgün və uzaqgörən qərarını verdi. Bu, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası idi.

BTC uzun və mürəkkəb bir yol keçib. Onun yaranma tarixində xüsusi əhəmiyyət kəsb edən hadisələr çoxdur. Bunlardan biri 1998-ci il oktyabrın 19-da kəmərin tikintisi ilə bağlı “Ankara bəyannaməsi”nin imzalanması oldu. 1999-cu il noyabrın 18-də isə ATƏT-in İstanbul zirvə toplantısında “Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair” saziş imzalandı. Bu sənədə sözügedən üç ölkənin dövlət başçıları ilə yanaşı, ABŞ və Qazaxıstan prezidentləri də imza atdılar. BTC-nin tikintisi qarşısında yaşıl işıq yandıran bu saziş “Əsrin müqaviləsi”ndən sonra Azərbaycan üçün mühüm tarixi əhəmiyyət kəsb edən ikinci sənəd idi.

2002-ci il sentyabrın 18-də Səngəçal terminalında BTC-nin təməlqoyma mərasimi keçirildi. Tədbirdə ümummilli lider Heydər Əliyev çıxış edərək demişdir: “Bakı-Tbilisi-Ceyhan boru xəttinin əleyhinə çıxanlar çox vaxt belə söyləyirdilər ki, bu, xəyaldır, mümkün deyil. Azərbaycanda o qədər neft yoxdur, olmayacaqdır. Belə danışıqlar çox idi. Zaman çox keçdiyinə görə, bu danışıqlara inanırdılar. Ancaq bunların hamısı əsassız oldu. Biz öz işimizi gördük. Bu yaxın vaxtlarda İstanbulda “Üç dənizin əfsanəsi” adlı konfrans keçirildi. Orada əfsanə haqqında söhbət gedirdi. Mən orada nitq söylədim, dedim, siz burada əfsanədən danışırsınız, amma mən sizə demək istəyirəm ki, bu, xəyal deyil, üç dəniz - Xəzər dənizi, Qara dəniz və Aralıq dənizi birləşəcəkdir. Bunu birləşdirən də Türkiyə, Gürcüstan, Azərbaycan, onların həyata keçirdikləri bu layihə və Amerika Birləşmiş Ştatlarının bu məsələyə daimi dəstəyi olmuşdur. Ona görə indi xəyaldan gerçəkliyə gəlib çatmışıq”.

Dünya miqyaslı bu layihənin təməli qoyulandan sonra güman etmək olardı ki, işlər artıq rəvan gedəcək. Lakin belə olmadı. Ölkəmizin xaricində və daxilində BTC-nin bədxahları yenə də rahatlıq tapa bilmir, layihənin gerçəkləşməsinə hər vasitə ilə əngəl törətmək istəyirdilər. Bu dəfə onlar beynəlxalq qurumların ofisləri qarşısında toplaşdılar. Növbəti uydurmaları bu idi ki, BTC ətraf mühitə zərbə vuracaq. Lakin layihənin ƏMSSTQ (Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi) sənədlərində ekologiya ilə bağlı bütün məqamlar nəzərə alınmışdı.

BTC-nin maliyyələşdirilməsi kəskin bir problem kimi ortaya çıxanda bu müşkülü də ümummilli lider Heydər Əliyevin dünyadakı böyük siyasi nüfuzu həll etdi. 2003-cü ilin fevralında ABŞ-da keçirilən “Şərq-Qərb enerji dəhlizi reallıqdır” beynəlxalq konfransında iştirak edən ulu öndər maliyyə qurumlarının rəhbərləri ilə söhbətlər apardı və məsələnin müsbət həllinə nail oldu.

2004-cü ilin fevralında Bakıda, “Gülüstan” sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC-nin maliyyələşdirilməsinə aid son sənədlər imzalandı. Bununla da kəmərin maliyyələşdirilməsi məsələləri bitdi.

2005-ci ilin əvvəlində “Azəri” yatağından ilkin neft alındı və bir neçə ay sonra BTC Səngəçal terminalında həmin neftdən özünün birinci yükünü götürdü. Bir il yol gedən Azərbaycan nefti Ceyhan terminalına 2006-cı il mayın 28-də çatdı. İyunun 4-də BTC-nin gətirdiyi neftlə yüklənmiş ilk tanker dünya bazarlarına yola salındı. İyulun 13-də isə Ceyhan şəhərində kəmərin tam bir sistem kimi işə düşməsi münasibətilə təntənəli mərasim keçirildi. Həmin vaxtdan bəri dünya bazarlarına göndərilən tankerlərin sayı 4000-i ötüb.

BTC həm də yeni-yeni layihələrə yol açdı. Azərbaycanda 2 milyard ton neft hasil olunması münasibətilə keçirilən təntənəli mərasimdə Prezident İlham Əliyevin dediyi kimi: “1990-cı illərdə neft sənayesi ilə bağlı bir çox tarixi hadisələr baş verdi. Mən xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsini qeyd etməliyəm. Ulu öndər Heydər Əliyev öz əlləri ilə bu kəmərin təməlini qoydu və 2006-cı ildə biz bu kəməri istifadəyə verdik. 2007-ci ildən Bakı-Tbilisi-Ərzurum qaz kəməri işə düşdü ki, bu gün bizim qaz ixracımızın əsas infrastruktur layihəsidir və bu kəmər əsasında bu gün “Cənub qaz dəhlizi” layihəsi icra edilir”.

Kəmər bu gün də ahəngdar işləyərək təkcə ölkəmizə deyil, ərazisindən keçdiyi Gürcüstan və Türkiyəyə də gəlirlər gətirir. Lakin məsələ təkcə iqtisadi əhəmiyyətdən ibarət deyil. BTC həmçinin böyük siyasi rol oynayır. O, bir polad kəmər kimi regionun dövlətlərini, layihədə iştirak edən bütün ölkələri bir-birinə daha sıx bağlayır. Xəzərin sahilindən Avropaya uzanan enerji dəhlizinin möhkəm bünövrəsi kimi daha böyük əhəmiyyət kəsb edir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Üçüncü minilliyin nəhəng mühəndis qurğusu



BTC-nin uzunluğu 1768 kilometrdir. Kəmər Azərbaycanda 443, Gürcüstanda 249 və Türkiyədə 1076 kilometr məsafə qət edir.

Azərbaycanda və Türkiyədə marşrutun əksər yerlərində kəmərin diametri 42, Gürcüstanda isə 46 düymdür. Türkiyədə Ceyhan dəniz terminalınadək olan sonuncu enişdə borular 34 düymə qədər daralır.

BTC-nin bir sıra yerüstü obyektləri də var. Onun 8 nasos stansiyasının 2-si Azərbaycanda, 2-si Gürcüstanda və 4-ü Türkiyədədir. Bundan əlavə, kəmər iki aralıq ərsinburaxma və bir təzyiqazaltma stansiyasına, 101 siyirtmə məntəqəsinə malikdir.

Kəmərin ötürmə gücü 2006-cı ildən 2009-cu ilin mart ayına qədər gündə 1 milyon barel olub. 2009-cu ilin mart ayından isə 1,2 milyon barelədək artırılıb.

BTC Azərbaycanın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçir. Gürcüstanda kəmərin keçdiyi rayonların sayı 7-dir. Bunlar Qardabani, Marneuli, Tetritskaro, Tsalka, Borjomi, Axaltsixe və Agideni rayonlarıdır. BTC-nin Türkiyədəki marşrutuna isə Ərdahan, Qars, Ərzurum, Ərzincan, Sivas, Kayseri, Qəhrəman Maraş, Osmaniyyə və Adana rayonları daxildir.

BTC seysmik cəhətdən fəal olan 13 qırılma xəttindən keçir.

## Tam təhlükəsiz kəmər



Müasir dövrdə karbohidrogenlərin nəqli üçün ən təhlükəsiz vasitə boru kəmərləri sayılır. Ələlxüsus da borular torpaq altında basdırılırsa. BTC məhz belə kəmərdir. Onun boruları ən azı bir metr dərinlikdə torpağa basdırılıb.

Borular korroziyanın qarşısının alınması məqsədilə xaricdən üçqat örtükləmə sistemi ilə izlolyasiya edilib.

Kəmərin marşrutu üç ölkənin hökuməti ilə razılaşdırılıb və 11 mindən çox səhifədən ibarət ƏMSSTQ - Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (Türkiyədə isə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi) sənədində göstərilən şərtlərə riayət edilərək tikilib.

Boru kəmərinin həssas ətraf mühit və mədəniyyət abidələrindən yan keçməsi üçün marşrut 100 dəfə dəyişdirilib. Belə ki, borular Azərbaycanda Qobustan Mədəniyyət Qoruğu, Gürcüstanda Ktsia-Tabatskuri Qoruğu və Borjomi Milli Parkında yardımçı ərazi, Türkiyədə Ərzurum düzənliyi və Posof bölgəsindən keçərkən bu sahələrə xüsusi qayğı göstərilib və əlavə tədbirlər görülüb.

Geoloji təhlükələr (məsələn, seysmik qırılma xətləri və çaylar) üçün xüsusi dizayn verilib.

Korroziya əleyhinə katod mühafizə sistemi sutka boyu fəaliyyətdədir, eləcə də kəmərin kompüter əsasında monitorinq sistemi 24 saat ərzində əməliyyatlara nəzarət edir.

## BTC-nin salnaməsindən



- Avqust 2002-ci il - səhmdar şirkətlər tərəfindən layihəyə sanksiya verilmiş və BTC Ko şirkəti yaradılmışdır
- Aprel 2003-cü il - Bakı yaxınlığındakı Səngəçal qəsəbəsinin ərazisində kəmərin tikintisinə start verilmişdir
- İyul 2003-cü il - Azərbaycanda kəmərin borularının düzülməsinə başlanmışdır
- Sentyabr 2004-cü il - Azərbaycanda boru kəmərinin tikintisi bütünlüklə başa çatmışdır
- Oktyabar 2004-cü il - kəmərin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsinə həsr olunmuş təntənəli “Qızıl qaynaq” mərasimi keçirilmişdir
- May 2005-ci il - Səngəçal terminalından BTC-nin neftlə doldurulmasına başlanmışdır
- Avqust 2005-ci il - neft Azərbaycan-Gürcüstan sərhədini keçmişdir
- Oktyabr 2005-ci il - kəmərin Gürcüstan hissəsinin tamamlanması münasibətilə bu ölkədə rəsmi açılış mərasimi olmuşdur
- Noyabr 2005-ci il - BTC-yə vurulan neft Türkiyəyə çatmışdır
- May 2006-cı il - neft Ceyhan terminalına daxil olmuşdur
- İyun 2006-cı il - ilk tanker Ceyhandan yola salınmışdır
- Fevral 2007-ci il - Ceyhan limanından 100-cü tanker yola düşmüşdür
- Aprel 2007-c il - Ceyhanda 100 milyonuncu barel neft tankerə yüklənmişdir
- Dekabr 2009-cu il - dünya bazarlarına 1000-ci tanker yola salınmışdır...

Beləcə, BTC-nin uğurlu salnaməsi davam edir. 2018-ci ilin iyul ayında BTC ilə artıq 3 milyardıncı barel neft ixrac olunmuşdur.

## BTC-nin səhmdarları

BP (Böyük Britaniya) - 30,1 faiz, həm də layihənin operatorudur

AzBTC (Azərbaycan) - 25 faiz

“Şevron” (ABŞ) - 8,9 faiz

“Ekvinor” (Norveç) - 8,71 faiz

TPAO (Türkiyə) - 6,53 faiz

“Eni” (İtaliya) - 5 faiz

“Total” (Fransa) - 5 faiz

“İtoçu” (Yaponiya) - 3,4 faiz

“İnpeks” (Yaponiya) - 2,5 faiz

“EksonMobil” (ABŞ) - 2,5 faiz

ONGC (BTC) Limited (Hindistan) - 2,36 faiz

## Boru xətti haqqında nə bilirik




- BTC nəqliyyat baxımından onsuz da izdihamlı olan Dardanel və Bosfor boğazlarında tankerlərin hərəkət sıxlığını artırmadan neft ixrac etməyə imkan verir.
- Dünya miqyasında dövrün ən böyük və mürəkkəb mühəndis-texniki qurğularından olan BTC-nin tikintisinin tamamlanması üçün 4 il vaxt tələb olunub - layihə 2002-ci ilin ortalarında təsdiqlənərək 2006-cı ilin ortalarına qədər davam edib.
- BTC Türkiyədə eni 500 metrə çatan Ceyhan çayının yerləşdiyi ərazidəki keçid də daxil olmaqla öz marşrutu boyu 1500-dən çox çayla kəsişir.
- Boru kəməri bir neçə dağ silsiləsindən keçdikdən sonra 2830 metr səviyyəsində özünün ən yüksək nöqtəsinə çatır. Bundan sonra kəmər Ceyhanda yenidən dəniz səviyyəsinə enir.
- Kəmər 3 min yol, dəmir yolu, həm yeraltı, həm də yerüstü kommunikasiya xətlərindən keçir.
- Tikintinin ən qızğın dövründə işə 22 min nəfər cəlb olunub. Onların 80 faizə qədərini yerli sakinlər - hər ölkədə tikinti meydançalarına yaxın ərazilərdə yaşayan insanlar təşkil edib.
- Tikinti işlərinə 110 milyondan artıq adam-saat sərf edilib. 200 milyon kilometrdən çox məsafə qət olunub ki, bu da Yer kürəsi ətrafında 10 dövrəyə bərabərdir.
- BTC çəkilərkən 220 min boru qaynaq edilib.

## 4085 tanker neft

2018-ci ildə BTC-nin əməliyyat xərclərinə təqribən 116 milyon dollar, əsaslı xərclərinə 41 milyon dollara yaxın vəsait xərclənib. Bu barədə kəmərin operatoru olan BP şirkəti məlumat verib.

2006-cı ilin iyun ayında istismara veriləndən 2018-ci ilin sonunadək bu boru kəməri vasitəsilə ümumilikdə 417 milyon tondan artıq (3,12 milyard bareldən çox) xam neft nəql edilib və Ceyhanda 4085 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Keçən il ərzində isə BTC vasitəsilə 34 milyon tondan çox (təqribən 255 milyon barel) xam neft ixrac olunub və bu neft Ceyhanda 327 tankerə yüklənib.

Hazırda BTC əsasən “Azəri-Çıraq-Günəşli” neftini və “Şahdəniz” kondensatını ixrac edir. Bundan əlavə, kəmər vasitəsilə digər xam neft və kondensat həcmləri, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti də nəql olunur.



# REGİONLAR



# Əhalinin təmiz su ilə təminatı diqqət mərkəzindədir

Son illər müşahidə olunan qlobal istiləşmə və quraqlıq su mənbələrinin azalmasına birbaşa təsir edir. Xüsusilə, yay aylarında respublikamızın bir sıra bölgələrində əhalinin içməli suya olan tələbatının ödənilməsində çətinliklər yaranır.





Bu səbəbdən artıq bir neçə ildir ki, ölkəmizdə alternativ su mənbələrinin yaradılması layihəsinin icrasına başlanılmışdır. Prezident İlham Əliyevin keçən ilin mart ayında imzaladığı sərəncama əsasən, Tovuz rayonunda da bu istiqamətdə işlərə start verilmişdir. Hazırda iki layihə üzrə başlanan işlər icra olunur. Bu layihələr başa çatdıqdan sonra rayon mərkəzi dayanıqlı içməli su ilə təmin ediləcək.

Tovuz şəhərində yeni su təchizatı infrastrukturunun yaradılması məqsədilə dövlət büdcəsindən ayrılan vəsait hesabına Zəyəmçay su mənbəyinin yenidən qurulması və oradan rayon mərkəzinə magistral kəmərin çəkilməsi nəzərdə tutulur. Layihəyə əsasən, Zəyəmçayda üfüqi suqəbuledici qurğu inşa edilir. Buradan saniyədə 80-100 litr su götürüləcək. Onun Tovuz şəhərinə özüaxımlı rejimdə çatdırılması məqsədilə 530 millimetrlik polad borularla 26 kilometr uzunluğunda magistral su xətti çəkiləcək. Artıq magistral kəmərin çox hissəsi insa edilib. Tikinti-quraşdırma işlərinin cari ilin sonunadək tam başa çatdırılması planlaşdırılır.

Hazırda Zəyəm çayının yatağında 8-10 metr dərinlikdə üfüqi suqəbuledici qurğunun tikintisi ilə yanaşı, boruların xəndəyə döşənmə prosesi gedir.

Onu da qeyd edək ki, Tovuz şəhərinin su təchizatı sisteminin yenidən qurulması layihəsi 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla 28 min nəfərin içməli su təminatının yaxşılaşdırılmasına hesablanmışdır. Şəhərin içməli su ilə təchiz edilməsi üçün Qazıqulu kəndi ərazisində 7 subartezian quyusu qazılmış, hər birinin tutumu 200 kubmetr olan 2 su anbarı və nasosxana tikilmiş, anbardan Tovuz şəhərinə 2,5 kilometr uzunluğunda magistral su xətti çəkilmişdir. Həmçinin layihə çərçivəsində Aşağı Öysüzlü kəndinin ərazisində hər birinin tutumu 2500 kubmetr olan 2 su anbarı, xlorator və laboratoriya binaları inşa olunmuş, 95,5 kilometr uzunluğunda şəhərdaxili su şəbəkəsi yaradılmışdır.

Bütün bu işlərlə yanaşı, rayonun Qədirli, Xatınlı, Cilovdarlı, Əlimərdanlı və Qaraxanlı kəndlərinin içməli su təminatı həll edilmişdir. Layihəyə əsasən, kəndləri keyfiyyətli içməli su ilə təmin etmək üçün 2 subartezian quyusu qazılmış, 40 kilometr su xətti çəkildikdən sonra əhalinin ümumi istifadəsi üçün 175 bulaq inşa edilmişdir. Hazırda həmin sudan 12 mindən çox sakin faydalanır.

Əhalinin içməli su təchizatının yenilənməsi istiqamətində həyata keçirilən layihələr bütün sakinlər arasında razılıqla qarşılanır. Tovuz şəhər sakinləri Ramin Quliyev və Fərmayil Cəfərovla söhbət zamanı dedilər ki, uzun illərdir içməli suyu kənardan gətirirlər. İndi isə saf və ekoloji cəhətdən təmiz olan içməli su ilə təmin olunacaqları günü səbirsizliklə gözləyirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***






Bir il əvvələdək Qobustanda rayonun ucqar kəndlərindən söz düşəndə Poladlının da adı çəkilərdi. Bu, məsafənin uzaqlığı ilə yox, gediş-gəlişin çətinliyi ilə bağlı idi. Rayon icra hakimiyyəti başçısının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Məharət Əkbərovla həmin kəndə getmək üçün 25 dəqiqə vaxt sərf etdik. Kəndə çatanda dedi ki, əvvəllər 14,5 kilometrlik bu yolu bir saata, saatyarıma gedirdilər.

# Daha ucqar demirlər





Poladlı kəndində ilk həmsöhbətimiz ərazi inzibati dairəsinin nümayəndəsi Teymur Ağayev oldu. O bildirdi ki, kəndin 1800 nəfər əhalisi var. Bağçılıq, heyvandarlıq və taxılçılıq sakinlərin əsas məşğuliyyət sahəsidir. Son illər narçılığa da maraq artıb. Kənddə yetişdirilən nar əsasən Rusiyaya ixrac olunur. Su, işıq, qaz və yol sarıdan heç bir problem yoxdur. Kəndə gələn yol dövlətin dəstəyi sayəsində yenidən qurulduqdan sonra əhali yetişdirdiyi məhsulları çox rahat şəkildə istədikləri yerə apara bilir.

Ömrünün 50 ilini ədəbiyyat müəllimi işləmiş, hazırda təqaüddə olan Qurban İsmayılov kənddə milli-mənəvi dəyərlərin qorunmasından söz açdı. Dedi ki, kəndin yetirmələri fizika-riyaziyyat elmləri doktoru, professor Seyidəli Haxıyev, professor Seyidəli Əmrahov, coğrafiyaçı-alim Nurəddin Bəndəliyev, neft üzrə mütəxəssis Nüsrət Əliyev yetirmələrə nümunə göstərilir. Rayon rəhbərliyi vaxtaşırı kəndimizə gəlir, problemlərimizlə maraqlanır, sakinlərin qaldırdıqları məsələlərə həssaslıqla yanaşr.

Kənd sakini Əbil Hüseynov dedi ki, atamdan eşitmişəm ki, 1951-ci ilədək bu kənddə cəmi 30-a yaxın ev olub. Həmin illərdə yaxınlıqdakı Girdə ərazisində yaşayan kolanlı camaatı buraya köçüb. Poladlılılar oturaq, kolanlılar köçəri həyat sürüblər.

Kəndin digər sakinləri, o cümlədən həmsöhbət olduğumuz Sərkər Fərəcov və Tofiq İsmayılov təzə çəkilən yolun dövlətin poladlılılara olan diqqətinin nəticəsi kimi dəyərləndirdiklərini bildirərək dedilər ki, indi rahat şəkildə rayon mərkəzinə gedib-gələ bilirlər. Bu yol təkcə onların kəndlərinə yox, həmin yolun üzərində olan digər kəndlərin sakinlərini də rahatlığa qovuşdurub.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Bələdiyyə təşəbbüskar olanda












Səmədabad kəndi Biləsuvar-Bəhrəmtəpə şose yolunun üstündə yerləşir. Sovetlər dövründə kənd respublikanın ən iri qoyunçuluq təsərrüfatlarından sayılırdı. Keçən əsrin ortalarına kimi buranın adı rəsmi sənədlərdə qoyunçuluq sovxozu yazılardı.

Unudulmaz şair Səməd Vurğun o vaxtlar ova gələndə bu yerlərdə olar, çobanlarla, habelə digər zəhmət adamları ilə görüşüb hal-əhval tutar, gün-güzəranları ilə maraqlanar, lazım gələndə kömək göstərərdi. Elə buna görə də sonralar bu yerə onun şərəfinə Səmədabad adı verilmişdir.

Keçən əsrin əvvəllərində burada və ətraf ərazidə Rusiyadan sürgün edilmiş malakanlar məskunlaşmışlar. Kəndin yaşlı sakinləri mənbəyini Arazdan götürən və bu yerlərin yeganə su təminatçısı olan, sovetlər zamanı Əzizbəyov, indi Cənubi Muğan adlanan kanalın əsasının hələ çar Nikolayın dövründə qoyulduğunu, həmin vaxt onun əllə qazıldığını, çəkilişində iştirak edənlərə hər metr üçün bir qızıl onluq verildiyini, zaman keçdikcə kanalın genişləndirilərək indiki səviyyəyə gətirildiyini söyləyirlər. Bu kanalın suyu ilə hazırda İmişli və Biləsuvar rayonlarının min hektarlarla torpaqlarında bol məhsul yetişdirilir.

Bu gün Biləsuvarda kənd təsərrüfatı sürətlə inkişaf edir. Taxıl, pambıq və digər məhsulların istehsalı ildən-ilə artır. Hər bir fermer, torpaq mülkiyyətçisi əkinçiliyin intensiv metodlarından istifadə etməyə, məhsuldarlığı artırmağa səy göstərir. Bu işlərin icrasında yerli bələdiyyələrin də üzərinə mühüm vəzifələr düşür. Bu baxımdan Səmədabad bələdiyyəsi işini müasir tələblər səviyyəsində qura bilmişdir.

Səmədabad və Arazbarı kəndlərini əhatə edən bələdiyyə ərazisində 616 təsərrüfat var. Əhalisinin sayı isə 3,4 min nəfərdir. Kənd bələdiyyəsinin sədri Hidayət Həsənov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını bitirib. Həmişə yeniliyə can atır, ərazidə tikinti-quruculuq, abadlıq işlərini diqqət mərkəzində saxlayır, doğulub boya-başa çatdığı kənddə hər bir işin nümunəvi olmasına çalışır. İnvestorların işə cəlb olunmasında da onun təşəbbüskarlığı mühüm rol oynayır.

Hazırda bələdiyyənin torpaqlarında 5 sahibkarlıq subyekti fəaliyyət göstərir. "Aqrolizinq" MMC onlardan biridir. MMC-nin rəhbəri Pərviz Cahangirov qabaqcıl texnologiyaları tətbiq etməklə əkinçilik mədəniyyətinin yüksəldilməsinə diqqət yetirir. Əkdiyi taxıl, pambıq, kartof sahələrində pilot suvarma sistemindən istifadə edir. Bunun üçün xarici ölkə istehsalı olan avadanlıqlar quraşdırmışdır. Yetişdirilən kartofun saxlanmasından ötrü 3 min tonluq soyuducu kamera tikdirmişdir.

"Muğan Düyü" MMC-nin rəhbəri isə Tələt Məmmədovdur. Təsərrüfatın 1100 hektar əkin sahəsi var. Keçən təsərrüfat ilində həmin sahənin 700 hektarında çəltik, 300 hektarında arpa, 100 hektarında pambıq əkilmişdir.

"Səmədabad Aqro" adlanan təsərrüfata gəldikdə, burada 500 hektar torpaq sahəsinin 300 hektarında keçən ilin payızında taxıl səpini aparılıb. Qalan 200 hektarda yazda qarğıdalı əkiləcək. Burada arpası biçiləcək sahəyə də qarğıdalı əkilməsi planlaşdırılmışdır.

Biləsuvar Kənd Təsərrüfatı Məhsulları İstehsalı Müəssisəsi isə icarəyə götürdüyü 1500 hektarda taxıl, pambıq, qarğıdalı, yonca və digər bitkilər əkib-becərir.

"Biləsuvar-Süd" MMC təsərrüfatı da burada yerləşir. Adından göründüyü kimi, MMC əsasən heyvandarlıq məhsulları istehsalı ilə məşğuldur. Hazırda təsərrüfatın 160-dan çox cins heyvanı var. 800 hektar sahədə əkilən arpa, buğda, qarğıdalı, yonca hesabına onlar üçün möhkəm yem bazası yaradılır.

Təsərrüfatlarda əsasən Səmədabad və Arazbarı kəndlərinin adamları işləyirlər və yaxşı əməkhaqqı alırlar. Yerli əhali eyni zamanda öz təsərrüfatı ilə məşğul olur. Bələdiyyə ərazisində mövcud olan 616 fərdi təsərrüfatda hazırda 1,3 min baş qara mal, 10,5 min baş davar bəslənilir.

Adları çəkilən təsərrüfatlardan gələn gəlirlər hesabına Səmədabad bələdiyyəsi əhali üçün zəruri olan məsələlərin həlli ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz kənddə olarkən buradakı həkim məntəqəsində təmir işləri yekunlaşırdı. 15 kilometrlik kəndarası yolların təmiri də başa çatmışdır. Hazırda bələdiyyə ərazisində tam və ümumtəhsil məktəbləri, bağça, poçt, həkim məntəqəsi, yanacaqdoldurma mərkəzi, quşçuluq fabriki, pambıqtəmizləmə zavodu, Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə məntəqəsi, elektrik yarımstansiyası və s. obyektlər var. Kənd bələdiyyəsinin üzvləri müntəzəm olaraq həmin təşkilatlara baş çəkir, lazımi kömək göstərirlər.

Bələdiyyə ərazisində 7 sudurulducu qurğu var. Hər iki kəndin sakinləri artıq bir neçə ildir ki, təmiz sudan istifadə edirlər. Bağ-bağçaların suvarılmasında isə Cənubi Muğan kanalından borular vasitəsilə çəkilən bir neçə xətt köməklərinə çatır. Hər bir evdə bu gün "mavi alov" şölələnir. Burada bütün evlərə telefon xətti çəkilmişdir. Son 5 ildə ərazidə 40-dan çox yaraşıqlı fərdi ev tikilib. Bələdiyyə ərazisindəki Heydər Əliyev parkı kənd əhalisinin ən çox xoşladığı yerdir. Yaşıllığa bürünmüş parkda işıqlandırma sistemi quraşdırılmış, oturacaqlar qoyulmuşdur.

Pambıqçılığa diqqətin artırılması nəticəsində burada kənd adamlarının pul gəlirləri son illər xeyli artmışdır. Onlar ev tikir, oğul evləndirir, qız köçürür, minik maşını alır, digər işlərini yola verirlər. Bunlar isə kənd adamlarını indən belə daha yaxşı işləyib çox qazanc əldə etməyə ruhlandırır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Yeni məktəb binalarının tikintisi davam etdirilir



Paytaxtla yanaşı, regionlarda da yeni təhsil, sənaye və digər binaların tikintisi geniş vüsət alıb. Bunların içərisində tədris müəssisələrinin tikintisi xüsusi yer tutur.

Qubada həm Azərbaycan, həm də rus bölmələri olan təhsil müəssisələrindən biri də Alekseyevka kənd tam orta məktəbidir. Hazırda burada 840 şagird təhsil alır. Halbuki 1950-ci illərdə inşa olunmuş bu tədris ocağı 240 şagird yerlikdir. Uzun illər idi ki, məktəbin pedaqoji kollektivi, kənd sakinləri burada yeni təhsil ocağının tikintisi ilə bağlı əlaqədar təşkilatlara müraciətlər edirdilər. Nəhayət ki, ötən il oktyabr ayının 11-də Prezident İlham Əliyevin Qubaya səfəri çərçivəsində bu məsələ də həllini tapdı. Elə həmin gün dövlət başçısının sərəncamı ilə Alekseyevka kəndində 960 şagird yerlik ümumtəhsil məktəbinin tikintisi üçün ilkin olaraq Təhsil Nazirliyinə 3 milyon manat vəsait ayrıldı. Qısa müddətdə layihələndirmə işləri başa çatdırılaraq məktəbin tikintisinə başlanıldı.

Podratçı təşkilat "UNİKO" MMC obyektdə inşaat işlərini vaxtında və keyfiyyətlə başa çatdırmaq üçün bütün imkanlardan istifadə edir. Hazırda məktəb binasının tikintisində 60 nəfərə yaxın inşaatçı çalışır. Üçmərtəbəli binada 40 sinif otağı, 6 laboratoriya, bağlı idman zalı, 540 yerlik akt zalı, 234 nəfərlik yeməkxana, 2 kömpüter otağı, ehtiyat su anbarları, istilik sistemi üçün qazanxana və sair inşa olunacaq. Artıq zirzəminin tikintisi başa çatmaq üzrədir. Yer səthindən 1,5 metr hündürlükdə olan zirzəmi fövqəladə hallar üçün nəzərdə tutulub.

Məktəbin kollektivi yeni inşa edilən binanın tədrisin inkişafında mühüm rol oynayacağına əmindirlər. Bildirildi ki, kənddə yeni məktəb binasının tikintisi sakinlərin sevincinə səbəb olub. 150 nəfərdən çox alekseyevkalı darısqallıq üzündən rayonun başqa məktəblərində təhsil alır. Növbəti tədris ili kənd sakinlərinə böyük töhfə olacaqdır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# MADE IN AZERBAIJAN

◆ Müəllifi İlham Əliyevdir



■ Uzunluğu 141, eni 16,9, hündürlüyü 6 metrdir;
■ 1,200 kW gücə malik mühərriklərlə təchiz edilib;
■ 10 uzellə hərəkət edir;
■ Ümumi tutumu 9212 kubmetr olan 6 yük tankına malikdir;
■ 11 nəfərlik heyətlə idarə olunur.

# Azərbaycanın ilk neftdaşıyan tankeri

**Strateji ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkanlardan biri olan Azərbaycanın tranzit potensialının gücləndirilməsi istiqamətində mühüm layihələr həyata keçirilir.**



Son illərdə xüsusən gəmiçiliyin inkişafında yeni-yeni nailiyyətlər qazanılır. Elə ötən həftə ilk neftdaşıyan tankerin tikintisinin növbəti mərhələsi üçün suya buraxılması uğurların tərkib hissəsidir.

## Gövdə hissəsinin tikintisi 100 faiz tamamlanıb

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin sifarişi əsasında inşa olunan "Laçın" neftdaşıyan tankerinin gövdə hissəsinin tikintisi 100 faiz tamamlanıb. Qalan tikinti və quraşdırma işləri Gəmiqayırma Zavodunun yanalma körpüsündə davam etdiriləcək.

Bu məqsədlə "Laçın" tankeri, zavodun tikinti-quraşdırma sahəsindən üzən dok üzərindən hidravlik arabacıqlar vasitəsilə suya salınıb. Gəminin inşası tam başa çatdırıldıqdan sonra dəniz-istismar sınaqlarına başlanacaq. Bütövlükdə "Laçın" tankerinin bu ilin iyununda istismara təhvili planlaşdırılır.

## Son 5 ildə 20 gəmi istismara verilib

Bu tip yeni nəsil tankerlərin uzunluğu 141 metr, eni 16,9 metr, hündürlüyü isə 6 metrdir. Dedveyti dənizdə 7,875 T və çayda 5,447 T olan tankerlər iki ədəd hər biri 1,200 kW gücə malik "Wartsila" istehsalı mühərriklərlə təchiz edilib. 11 nəfərlik heyətlə idarə olunan bu gəmilər 10 uzellə hərəkət edir. Tankerlərin hər biri xam neft və neft məhsullarının daşınması üçün ümumi tutumu 9212 kubmetr olan 6 yük tankına malikdir. Unikallığı ilə seçilən bu üzən vasitələrin layihəsini Odessa Dəniz Mühəndisliyi Bürosu hazırlayıb.

Onu da əlavə edək ki, həmin mərasimdən sonra "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilə "Bakı Gəmiqayırma Zavodu" MMC arasında eyni tipli daha iki tankerin tikintisi üçün yeni müqavilə imzalanıb.

Hazırda isə Bakı Gəmiqayırma Zavodunda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" (ASCO) QSC üçün iki RST12C tipli yeni nəsil tanker, iki unikal "Ro-Pax" tipli (CNF-18C) gəmi-bərə tikilir. İnşası qrafikə uyğun davam etdirilən bu gəmilər növbə ilə 2020-ci ilin sonuna kimi təhvil veriləcək. ASCO tərəfindən son 5 ildə 20 müxtəlif təyinatlı gəmi alınaraq istismara verilib. Gəmiçiliyin donanmasının yenilənməsi planı çərçivəsində növbəti 10 ildə 70-dən çox gəminin alınması və Bakı Gəmiqayırma Zavodunda tikintisi planlaşdırılır. Bura tanker, quru yük, bərə, kran, sərnişin, dalğıc, təchizat-yedək, yedək, yanğınsöndürən, torpaqqazan, dibdərinləşdirən gəmilər daxildir.

## Daha iki yeni tanker tikiləcək

Gəminin suya salınması mərasimində iştirak edən iqtisadiyyat naziri Şahin Mustafayev vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan layihələr tranzit və logistika sahəsində Azərbaycanın regionda mövqeyini daha da gücləndirir. Bu siyasətin əsas istiqamətlərindən biri ölkənin coğrafi mövqeyindən istifadə etməklə onun nəqliyyat qovşağına çevrilməsidir.

Nazirin sözlərinə görə, ölkədə istehsal olunmuş ilk neft tankeri "Laçın" Xəzər Dəniz Gəmiçiliyi və Gəmiqayırma Zavodu arasında imzalanmış müqaviləyə uyğun olaraq tikintisi nəzərdə tutulan 4 gəmidən birincisidir.

Ümumiyyətlə, saziş Ro-Pax tipli iki gəmi və iki tankerin tikintisini nəzərdə tutur. Artıq tankerlərdən biri suya endirilib və onun tikinti işlərinin 90 faizi başa çatdırılıb. Tanker bu ilin iyun ayında tam hazır olacaq. Daha bir Ro-Prax tipli gəmi bu il istismara veriləcək, 2020-ci ildə isə növbəti gəmi tankerlə birlikdə istismara hazır olacaq. İmzalanan yeni sazişə əsasən isə hökumətin dəstəyi ilə daha iki yeni tanker tikiləcək. Onlar da 2021-ci ildə istifadəyə veriləcək.

## Gəmilərinin sayına görə Xəzərdə ən böyük ticarət donanması

Bu reallıqlar sayəsində Azərbaycan donanması daha da güclənəcək və bu, əldə olunan üstünlüyün qorunmasına imkan verəcək. Gəmilərinin sayına görə, Azərbaycanın ticarət donanması Xəzərdə ən böyük ticarət donanmasıdır. Aparılan işlərin əsas məqsədi Azərbaycan üzərindən daşınan yüklərin daha da artırılmasıdır.

Yeni tankerin inşasını əhəmiyyətli hadisə adlandıran nazir vurğulayıb ki, hər il Türkmənistan, Rusiya, Qazaxıstan və Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Aralıq dənizi hövzəsinə 5 milyon ton neft nəql olunur. Azərbaycanın bu sahədə mövqeyini qoruyub saxlamaq üçün yeni tankerlərin tikintisi vacibdir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin sədri Rauf Vəliyev isə bu il 5 yeni gəminin alınacağını söyləyib. Bu gəmilərdən 2-si Bakı Gəmiqayırma Zavodundan, 3-ü isə kənar təşkilatlardan alınacaq. Son 5 ildə isə 20 müxtəlif təyinatlı gəmi alınaraq istismara verilib.

Bütün bunlar Azərbaycanın beynəlxalq nəqliyyat-tranzit imkanlarının daha da genişlənməsinə xidmət edir. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında həyata keçirilən belə uğurlu layihələr Azərbaycana böyük iqtisadi dvidendlər qazandıracaq.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# 30 şirkət, 328 çeşiddə məhsul




■ 2018-ci il iyulun 22-də açılıb;
■ Sahəsi 300 kvadratmetrdir;
■ 30 şirkətin məhsulu nümayiş olunur;
■ 85 çeşiddə şərab;
■ 26 çeşiddə konyak;
■ 37 çeşiddə çay;
■ 30-dan çox çeşiddə meyvə şirəsi və kompotlar;
■ 150 çeşiddən çox digər məhsullar sərgilənir.

## Ukraynadakı "Azərbaycan Ticarət Evi" böyük market şəbəkələrində məhsullarımızın satışa çıxarılmasında mühüm rol oynayır

**Getdikcə dünya bazarında həm keyfiyyətinə, həm də etibarlılığına görə maraq doğuran Azərbaycan məhsullarının ixrac coğrafiyası böyüyür. "Made in Azerbaijan" brendi ilə ölkədən ixrac olunan məhsulların çeşidinin və həcminin hər keçən il artması bunu deməyə əsas verir.**

Bu istiqamətdə atılan addımlardan biri də xaricdə "Azərbaycan Ticarət Evi"nin yaradılmasıdır. 2018-ci ildə 5 xarici ölkədə Azərbaycanın ticarət evi açılıb. Onlardan biri də Ukraynanın paytaxtı Kiyev şəhərində iyunun 22-də açılış mərasimi keçirilən ticarət mərkəzidir.

İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış "Azərbaycan Ticarət Evi"nin ümumi sahəsi 300 kvadratmetrə yaxındır. Ticarət evi "Made in Azerbaijan" brendinin Ukrayna bazarında daha çox tanıdılması, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsi sahəsində fəaliyyət göstərib, Ukraynada satışı təşkil edir, bu sahədə əlaqələndirməni həyata keçirir.

Ticarət evinin daimi fəaliyyət göstərən sərgisində 30-a yaxın Azərbaycan şirkətinin istehsal etdiyi müxtəlif məhsullar (meyvə şirəsi və kompotlar, mineral sular, zeytun, çay, meyvə və tərəvəz, qənnadı məmulatları, spirtli içkilər, Naftalan yağı, toxuculuq və kosmetika məhsulları və s.) nümayiş olunur. Ümumilikdə, "Azərbaycan Ticarət Evi"ndə 85 çeşiddə şərab, 26 çeşiddə konyak, 37 çeşiddə çay, 30-dan çox çeşiddə meyvə şirəsi və kompotlar, 150 çeşiddən çox digər məhsullar sərgilənir.

Açılış mərasimində çıxış edən İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, iki ölkə arasındakı siyasi və iqtisadi münasibətlər daim inkişaf etməkdədir. Azərbaycan və Ukraynanın dövlət başçılarının yüksək siyasi iradəsi nəticəsində bu gün ölkələrimiz arasında münasibətlər strateji səviyyəyə yüksəlib, müqavilələr bağlanıb, möhkəm müqavilə-hüquqi baza yaradılıb. Azərbaycanın Ukrayna ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu qeyd edən nazir ticarət evinin iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı, biznes təşəbbüslərinin stimullaşdırılması və keyfiyyətli Azərbaycan məhsullarının "Made in Azerbaijan" brendi ilə Ukrayna bazarında təşviqi baxımından əhəmiyyətli olacağını bildirib.

Qeyd edək ki, açılışından bir müddət sonra "Azərbaycan Ticarət Evi" ölkəmizdə istehsal olunan kənd təsərrüfatı, şərab və digər yerli məhsulların satışını təmin etmək üçün Ukraynanın müvafiq qurumlarından sertifikat və lisenziya da alıb. Artıq Azərbaycan məhsulları Ukraynanın ən böyük market şəbəkələrində satışa çıxarılıb. Bu da Ukraynada Azərbaycan məhsullarına marağı daha da artırıb. Ticarət evi ölkəmizdə istehsal olunan məhsulların ticarət dövriyyəsini artırmaq üçün Ukraynanın böyük vilayət və şəhərlərinin market şəbəkələri ilə müqavilə imzalayıb.

Ümumiyyətlə, ticarət evləri "Made in Azerbaijan" brendi ilə məhsullarımızın xaricə çıxışının asanlaşdırılması və təbliğ olunması, məhsulun heç bir vasitəçi olmadan ixracına imkan yaradılması prosesində körpü rolunu oynayır. Ticarət mərkəzinin uğurlu fəaliyyəti xarici iş adamlarını Azərbaycan məhsulları ilə yaxından tanış etməklə, ölkəmizə investisiyaların cəlb olunmasına şərait yaradır və ölkələr arasında iqtisadi əlaqələrin daha da genişlənməsinə, əməkdaşlığın yeni istiqamətlərinin müəyyən olunmasına stimul verir.

***R.BAXŞƏLİYEV, "Azərbaycan"***

## "KOB Dostu" artıq Abşeronda

**İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin mikro, kiçik və orta sahibkarlıq subyektlərinə önəmli dəstək mexanizmlərindən olan "Kiçik və Orta Biznesin Dostu" ("KOB Dostu") artıq Abşeron rayonunda fəaliyyətə başlayıb.**



Bu, Abşeron rayonu üzrə ilk "KOB Dostu"dur və ətraf rayon, şəhərlərdə fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlara da xidmət göstərəcək.

Xatırladaq ki, hazırda Lənkəran, Quba-Xaçmaz, Aran, Gəncə-Qazax, Şəki-Zaqatala və Abşeron iqtisadi rayonlarının 10 rayon və şəhərində 13 "KOB Dostu" fəaliyyət göstərir.

Xırdalan şəhərində Heydər Əliyev Mərkəzində yerləşən yeni "KOB Dostu"nun ofisində də sahibkarlara agentliyin çoxsaylı xidmətlərinin göstərilməsi üçün hər cür şərait yaradılıb, ofis lazımi avadanlıqlar və maarifləndirici materiallarla təchiz edilib. "KOB Dostu" ilə birgə ofisdə "KOB könüllüləri" də fəaliyyət göstərəcək.

## Gürcüstanla 1 ayda ticarət dövriyyəsi 98 milyon dollar olub

**Bu ilin yanvar ayında Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsi 97,7 milyon dollar olub. Bu göstərici ilə Azərbaycan qonşu ölkənin xarici ticarət tərəfdaşları sırasında ikinci yerdədir.**

Bu barədə Gürcüstanın Mili Statistika Xidməti məlumat yayıb. Bildirilir ki, yanvarda Gürcüstan Azərbaycana 34,5 milyon dollarlıq məhsul ixrac edib. Ötən ay Azərbaycandan bu ölkəyə 63,2 milyon dollarlıq məhsul göndərilib.

## Bu il ölkədə 39 istehsal, emal müəssisəsi açılacaq

**2018-ci ildə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu müvəkkil kredit təşkilatları vasitəsilə sahibkarlara ümumi dəyəri 617,8 milyon manat olan 999 investisiya layihəsinin maliyyələşdirilməsinə 160,2 milyon manat güzəştli kredit verib.**



Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 9000-dək yeni iş yerinin açılmasına imkan yaradır.

Verilmiş kreditlərin 64,3 faizi respublikanın regionlarının, 35,7 faizi isə Bakı şəhərinin qəsəbələrinin payına düşür. Son illər fond tərəfindən maliyyələşdirilən 35 istehsal, emal və infrastruktur müəssisəsi 2018-ci ildə fəaliyyətə başlayıb. 2019-cu ildə daha 39 müəssisənin açılması gözlənilir.

# Hədəf Avropa bazarıdır

## Balakəndə istehsal olunan meyvə şirələri və quru meyvələr MDB ölkələrində böyük rəğbət qazanıb

**Ölkəmizdə qeyri-neft sektorunun inkişafı və bu sahəyə investisiya qoyuluşunun təmin edilməsi Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biridir. Şübhəsiz ki, qeyri-neft sektorunun inkişafına səbəb olan amillərdən biri də kənd təsərrüfatının davamlı inkişafıdır.**

Bu baxımdan son illər Balakən rayonunda kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafı, torpaqlardan səmərəli istifadə olunması, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir.

### Fərqli mürəbbə, kampot, cem və sair məhsullar...

Təsadüfi deyil ki, hazırda rayonda kənd təsərrüfatının bütün sahələrində, o cümlədən meyvəçilikdə dinamik inkişaf var. Sahibkarlar və təsərrüfatçılar üçün yaradılan əlverişli şərait rayonda meyvə bağlarının sahəsinin gündən-günə genişlənməsinə səbəb olub. Cəlbedici məqamlardan biri də Balakəndə istehsal olunan meyvələrin emal olunaraq hazır məhsul şəklində istehlakçılara çatdırılması istiqamətində mühüm addımların atılmasıdır.

Belə müəssisələrdən biri də uzun illər bu məkanda fəaliyyət göstərmiş Balakən Konserv zavodu idi. Artıq 11 ildir ki, zavodun ərazisində fəaliyyətini tam müasir tələblər səviyyəsində quran "Balacans" MMC yaradılıb. Müəssisənin açılışı 2008-ci ilin sentyabr ayının 19-da dövlət başçısı İlham Əliyev tərəfindən həyata keçirilib.

Zavodun direktor müavini Vahid Kosayev deyir ki, müəssisə sırf meyvə şirələri istehsalı ilə məşğuldur. Burada fərqli mürəbbə, kampot, cem və sair məhsullar istehsal olunur. Müəssisənin alma, albalı, gavalı bağları da var.

Müəssisə özünün "WELL" adlanan brendini də yaradıb. Həmin brend altında təbii meyvə şirələri istehsal olunur. "Balacans" MMC fəaliyyətinin ilk başlanğıcından beynəlxalq bazarlara çıxışı hədəf seçdiyi üçün fəaliyyətində keyfiyyət faktorunu əsas götürüb.

### Məhsullar əsasən MDB ölkələrinə ixrac olunur

Mövsümi işlər zamanı müəssisədə təxminən 250 nəfər işlə təmin olunur. Qış mövsümünə keçid dövründə isə burada orta hesabla 70-80 nəfər işləyir. Burada məhsulların keyfiyyətinin təmini ilə bağlı ayrıca laboratoriya da fəaliyyət göstərir. Orada çalışan mütəxəssislər xəttə şirə verilməyə başlayan andan hər 15 dəqiqədən bir xətdən 3-4 ədəd paket şirə götürərək yoxlayırlar. Bu zaman paketin və şirənin keyfiyyəti sınaqdan keçirilir. Əlavə olaraq xüsusi laboratoriya şəraitində laborantlar emala gedən məhsulu əkir və 3-4 gün qaldıqdan sonra tərkibində bakteriya olub-olmamasını yoxlayırlar.









Emal prosesində istifadə olunan su isə müəssisənin xüsusi istismar etdiyi kəhrizdən çıxır. Arteziandan gələn su ərazidəki hər biri 2 ton olan iki xüsusi çənə tökülür, orada filtrdən və membranlardan keçdikdən sonra 50 tonluq çənə vurulur. Beləliklə də tam təmizlənmə gedir. Bütün qeyd olunanlara baxmayaraq təhlükəsizlik meyarlarına əsaslanmaqla həmin su ildə iki dəfə Almaniyaya ixtisaslaşdırılmış laboratoriyaya göndərilir və orada sınaqdan keçirilir. Burada istehsal olunan məhsullar əsasən MDB ölkələrinə ixrac olunur

### Almaniya və Dubaya məhsul nümunələri aparılıb

Burada əlavə olaraq "Balakans Foods" müəssisəsi də yaradılıb. Bu müəssisə əsasən meyvələrin qurudulması ilə məşğuldur. Müəssisənin yaradılması nəticəsində rayonda meyvəçiliyə maraq yenidən artıb. Burada əsasən yerli meyvələrdən istifadə olunur. Üstünlük xurma qurusuna verilir. Əlavə olaraq alma, şaftalı, albalı, gilas və sair məhsullar qurudulur. Həmin məhsullar Rusiya Federasiyası və yerli bazara realizə olunur. Paralel olaraq Ukrayna da alıcı ölkələr sırasındadır.

Ümumilikdə, müəssisə heç də mövcud bazarlarla qənaətlənmək fikrində deyil. Strateji inkişaf planına uyğun olaraq yaxın gələcəkdə Avropa ölkələrinə də məhsul ixrac ediləcək. Hazırda bu istiqamətdə danışıqlar aparılır. Artıq Almaniyaya, yaxın şərq ölkələrindən isə Dubaya məhsul nümunələri aparılıb və orada bəyənilib. Əlavə olaraq İsraildən də məhsullarla maraqlananlar var.

Hazırda burada 13 növ meyvənin qurudulması həyata keçirilir. Gələcəkdə isə çeşidlərin daha da artırılması nəzərdə tutulur.

***Əli SƏLİMOV, "Azərbaycan"***

## İlin ilk ixrac missiyası Çinə təşkil olunub

**İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə bu ilin ilk ixrac missiyası fevralın 25-də Çin Xalq Respublikasının Pekin şəhərinə təşkil edilib.**




Missiyaya qida, şərab və digər spirtli içki istehsalı sahəsində fəaliyyət göstərən 16 Azərbaycan şirkəti daxildir. Səfər çərçivəsində Azərbaycanın iş adamları Çin şirkətləri ilə məhsulların ixracına dair müzakirələr aparacaq, potensial alıcılarla görüşəcəklər. Bununla yanaşı, Çin və Azərbaycan şirkətlərinin iştirakı ilə "dəyirmi masa" və Azərbaycan şərablarının dequstasiyası təşkil olunacaq.

İxrac missiyası 1 mart tarixinədək davam edəcək.

## İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşı olaraq qalır

**İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır və ixracda birinci yerdədir. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 10 faiz artaraq 6,2 mlrd. dollar təşkil edib. Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda İtaliyanın iştirakı ilə tvinninq layihələri icra olunur.**

İtaliya şirkətləri ölkəmizdə uğurla fəaliyyət göstərir. Xatırladaq ki, bir neçə gün öncə İtaliyanın "Maire Tecnimont" şirkətinin podratçısı olduğu "SOCAR-Polymer" zavodunun açılışı olub.

## Bir ayda Azərbaycan 660 min dollarlıq çay ixrac edib

**2019-cu ilin yanvar ayında Azərbaycan 660 min dollar dəyərində 107,9 ton çay ixrac edib. Bu, həcm baxımından ötən ilin yanvar ayının göstəriciləri ilə müqayisədə 51,3 ton çoxdur. Məbləğ baxımından isə illik nisbətdə 288,75 min dollar çoxdur.**




Eyni zamanda, bu ilin ilk ayında Azərbaycan 2,455 mln. dollar dəyərində 708,8 ton çay idxal edib. Bu, həcm baxımından ötən ilin yanvar ayının göstəriciləri ilə müqayisədə 360,6 ton, məbləğ baxımından isə illik nisbətdə 1,7 mln. dollar azdır.

Ay ərzində çay ixracı Azərbaycanın ümumi ixracının 0,05 faizini, çay idxalı isə ölkənin ümumi idxalının 0,2 faizini təşkil edib. İdxal ixracı 6,6 dəfə üstələyib.

## Sumqayıt hadisələrindən 31 il keçir

# Böyük terrorun başlanğıcı

Sovetlər birliyində münaqişələr dəfələrlə müxtəlif formalarda özünü göstərib. Lakin SSRİ rəhbərliyi bunun qarşısını ala bilmişdi. Qorbaçov hakimiyyətə gəldikdən sonra isə demokratiya pərdəsi altında kommunist rejiminin həllini tapmadığı məsələlər yenidən qabardı. Bundan istifadə edən ermənilər öz məkrli planlarını həyata keçirmyə başladılar.

1988-ci ilin fevralında Xankəndidə erməni millətçiləri kütləvi mitinqlər keçirib SSRİ rəhbərliyindən Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə qatılmasını tələb edirdilər. Mitinqlərdə azərbaycanlıların "cinayətlərindən" söz açır, əl altında qaldıqlarını iddia edirdilər. Dağlıq Qarabağın ətraf rayonlarından ermənilər mitinqlərə axışır, oradan təlimatlandırılırdılar. Həmin hadisələrdən sonra belə bir fikir dolaşırdı ki, ermənilər əvvəlcə Gəncəni iğtişaşların mərkəzi kimi qəbul ediblər. Amma sonradan ermənilərin daha çox yaşadıqları Sumqayıtı seçdilər.

Bu il 70 yaşını qeyd edəcək Sumqayıt zəhmətkeşlərin şəhəridir. Yaranışından diqqəti cəlb edən bu şəhər beynəlmiləl xüsusiyyətləri ilə də fərqlənirdi. Vaxtilə "dostluq" şəhəri adlanan, özündə 82 millətin və etnik qrupun nümayəndəsini birləşdirən, daşı daş üzərinə qoyub böyük və nəhəng bir şəhər salan, beynəlmiləl bir ailədə yaşayan insanlar 1988-ci ilin fevral ayının 28-də bir qrup ekstremistin əli ilə Sumqayıtda qanlı aksiyanın törədilməsinə necə rəvac görə bilərdi? Hadisələrə təkan verən, təlimatlandıran, maddi vəsait ayıran qüvvələr kimlər idi? Təbii ki, "böyük Ermənistan" yaratmaq xülyasında olan Ermənistan Respublikasının rəhbərliyi, millətçi qüvvələr, daşnak partiyasının fəalları. Onlar Ermənistanın xüsusi xidmət orqanları və xaricdə yaşayan erməni lobbisinin ssenarisi əsasında Sumqayıtda qanlı aksiya törətdilər.

Həmin illərdə Qorbaçovun siyasi məsələlər üzrə köməkçisi Şahnazaryan, iqtisadi məsələlər üzrə köməkçisi A.Aqanbekyan və digərləri SSRİ kimi böyük bir dövlətin xarici və daxili siyasətini maraq və ambisiyalarına uyğun istiqamətləndirə bildilər. Nəticədə Qarabağda və Ermənistanda fasiləsiz mitinqlərə start verildi, həmin ərazilərdə yaşayan azərbaycanlılara qarşı təzyiqlər, hücumlar gücləndi. Beləcə qaçqınların ilk böyük dalğası Sumqayıtı silkələdi.

Öz doğma yurdlarında min illərlə yaşayan insanlar Sumqayıta pənah gətirdilər. Çünki ermənistanlı azərbaycanlıların çox hissəsinin Sumqayıtda qohum-əqrəbası yaşayırdı. Eyni zamanda, həmin dövrdə dolaşan fikirlərdən biri də qaçqınların Qarabağda yerləşdirilməsi idi. Bunun qarşısını almaq üçün növbəti bir saxta "genosid" aktı hazırlamaq iddiası ermənilər tərəfindən düşünüldü.

Tarixdən bəllidir ki, erməni millətçiləri müxtəlif dönəmlərdə Azərbaycan xalqına qarşı törətdikləri çoxsaylı cinayətlərin müəllifidirlər. Artıq 1905, 1918-ci illərin təcrübəsi vardı. Qarşılarına qoyduqları məkrli niyyətlərə yetmək üçün hər cür vəhşilikdən, terrordan, insanlığa sığmayan cinayətlərdən, hətta günahsız ermənilərin qanını tökməkdən belə çəkinməyiblər. İftira və yalanlardan "əzabkeş erməni xalqına" ağı deyib təəssübkeşlərində özlərinə mərhəmət, müsəlmanlara nifrət oyatmaq istəyən erməni faşistləri törətdikləri cinayətləri tarixən türklərin və azərbaycanlıların adına yazmağa cəhd ediblər.

1988-ci il fevralın əvvəllərində ermənilər Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın dağlıq hissəsini qoparıb Ermənistana birləşdirmək üçün açıq fəaliyyətə başladılar. Separatçı "Qarabağ" və "Krunk" komitələri dünyanın hər yerində yaşayan ermənilərə müraciət qəbul edərək onları "böyük Ermənistan" arzularının reallaşacağı gün uğrunda mübarizəyə səslədilər.



Zərərçəkən Mejlumyan istintaqda onu zorlamış Eduard Qriqoryanı göstərir.

Sumqayıt hadisələri ərəfəsində Ermənistandan və Dağlıq Qarabağdan Sumqayıta və Bakıya milliyyətcə erməni olan şübhəli şəxslər gəlmişdi. Azərbaycan dilini mükəmməl bilən həmin adamlar xəritə əsasında bütün küçə və dövlət orqanlarını qeydiyyata almış, xüsusi terror planı hazırlamışdılar. Şəhərdə gizlin fəaliyyət göstərən "Krunk" daşnak təşkilatının üzvləri ilə görüşən təxribatçı qrup erməni ailələrinin siyahısı əsasında niyyət və məramlarını bölüşmüşlər. Həmin şəxslər Sumqayıtda ermənilərin gur yaşadığı ərazilərdə çoxsaylı gizli görüşlər keçirmiş, onları gələcək hadisələrlə bağlı təlimatlandırmış, şəhərin dörd bir tərəfində yaşayan ermənilərin ünvanlarını hazırladıqdan sonra iğtişaşlar zamanı kiminlə necə hərəkət edəcəklərini də onlara anlatmışlar.

Həmin günlərdə şəhəri tərk edən imkanlı erməni ailələri isə hadisələr ərəfəsində bankda olan pullarını çıxardaraq özləri ilə aparmışdılar. Onlar evlərinin bahalı mebellərini, bəziləri hətta evlərini də satmışdılar. Bütün bunlar hüquq mühafizə orqanlarının gözü qarşısında baş verib. Sumqayıtda baş vermiş kütləvi iğtişaşlardan dərhal sonra isə həmin qrup yoxa çıxmışdır. Bu da həmin hadisələrin Kremlin dəstəyi ilə ermənilərin törətdiyini tam sübuta yetirir.

Fevralın 28-29-da ermənilər məkrli planlarını həyata keçirməyə başladılar. Onlar hətta qətlə yetirəcəkləri adamların siyahısını talan törədəcək komitə üzvlərinə də paylamışdılar. Bir neçə gün əvvəl ermənilər yaşayan evlər xüsusi adamlar tərəfindən işarələnmişdi. Fevralın 28-29-da Sumqayıtda iğtişaşlar törədilir, ermənilər öz millətlərindən olan insanları qəsdən qətlə yetirir, lakin SSRİ-nin ovaxtkı hərbi prokuroru Katuşev Bakıda ola-ola baş verənlərin qarşısını almağa tələsmirdi. Ona hər dəqiqə məlumat verilsə də, bütün bunlara biganə yanaşırdı.

Sumqayıtdakı kütləvi iğtişaşların əvvəlcədən təşkil edilmiş aksiya olmasını sübut edən faktlardan biri də talançıların hərəkət etdikləri marşrut üzrə bütün hərəkətlərin videoçəkilişinin aparılması idi. Həmin kadrlar Qərb ölkələrinin televiziya kanallarında operativ şəkildə göstərilmişdir. Şübhəsiz ki, çəkiliş aparan şəxslər talançıların planları haqqında əvvəlcədən məlumatlı idilər. Çünki çəkilişləri aparanlar şəhəri tərk etdikdən sonra heç bir fakt lentə alınmamışdır. Bu da çəkilişlərin planlı olduğunu bildirir. Hadisələrdən sonra o da üzə çıxdı ki, Sumqayıtda qətlə yetirilənlərin demək olar ki, hamısı əslən dağlıq qarabağlıdır.

Dövlət Təhlükəsizlik Komitəsinin arxiv materiallarından məlum olmuşdur ki, Dağlıq Qarabağ separatçılarının emissarları, SSRİ DTK-nın agentləri olan Sarkisyan, Osipov (Osipyan) və digərləri Sumqayıt hadisələrində fəal iştirak etmiş və həmin hadisələrdən dərhal sonra Orta Asiya respublikalarına ezam olunmuşlar. Bu agentlərin izləri sonradan Özbəkistan və Qırğızıstandakı hadisələr zamanı da aşkar olunmuşdur.

Bu hadisələrdə guya azərbaycanlılardan ölənlərin olmaması "fakt"ından istifadə edən ermənilər bu iddialarını indi də davam etdirirlər. Halbuki həmin hadisələr zamanı öldürülənlərin 6-sı azərbaycanlı idi.

İstintaqın ilkin mərhələsində 1050 nəfər şübhəli şəxs qismində tutulmuş, onlardan bir hissəsi inzibati, bir hissəsi isə cinayət məsuliyyətinə cəlb edilmişdi. 97 nəfər barəsində 55 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmişdi. Onlardan 92 nəfəri azərbaycanlı, 2 nəfəri rus, 2 nəfəri ləzgi, 1 nəfəri erməni idi. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 183 nəfər barəsində, o cümlədən qəsdən adam öldürməyə görə 38 nəfər, zorlamaya görə isə təqsirləndirilən şəxs qismində cəlb edilmiş 42 nəfər barəsində əməllərində cinayət tərkibi və ya cinayət hadisəsi olmadığından işin icraatına xitam verilmişdir.

Hadisələrlə bağlı saxlanılanlar arasında müxtəlif millətlərdən olan adamlar - azərbaycanlılar, ermənilər, ruslar, yəhudilər və başqaları var idi. Sumqayıtda quldurluq edənlərin arasında ermənilər tərəfindən satın alınmış ekstremist qruplar, cinayətkarlar, terrorçular, təxribatçılar, narkomanlar və spirtli içki düşkünləri var idi.

İstintaq materiallarında göstərilir ki, 444 adam məhkəmə qarşısında cavab vermiş, onlardan 400 nəfəri 10-15 sutka təcridxanalarda saxlanılmışdır. Bir neçəsi uzunmüddətli həbs cəzasına, Əhməd İman oğlu Əhmədov isə ölüm cəzasına məhkum olunmuşdur. Təəccüblüsü odur ki, Əhməd Əhmədovun işinə Moskvada tələsik baxıldı və onu Sumqayıtda baş verən hadisələrin "təşkilatçısı" kimi qələmə verdilər. 1988-ci ilin oktyabr ayının 18-də SSRİ Ali Məhkəməsi Əhmədovun, Cəfərovun, İsmayılovun məhkəmə prosesinə başladı. Məhkəmə prosesi başlayan gün "Ostankino" telekanalının "Xəbərlər" proqramında bütün dünyaya xəbər verdilər ki, Sumqayıt hadisələrində "başkəsən" üç nəfərin məhkəmə işinə başlanılır. Ertəsi gün Moskvada nəşr olunan kütləvi informasiya vasitələri də bu barədə ictimaiyyətə məlumat çatdırdılar. Moskvada, SSRİ Ali Məhkəməsinin binasında Sumqayıtda kütləvi iğtişaşların baş verməsində müqəssir bilinən şəxslərin mühakiməsi başlandı. Müttəhimlər kürsüsündə əyləşən Ə.Əhmədov, T.İsmayılov, Q.Cəfərov talanlar, yanğınlar, qətllərlə nəticələnən kütləvi iğtişaşların təşkilində və yaxından iştirakında təqsirləndirilirdilər.

Məhkəmə prosesinə SSRİ Ali Məhkəməsinin üzvü R.K.Brize sədrlik edirdi. Məhkəmənin tərkibinə SSRİ Ali Məhkəməsinin xalq iclasçıları V.A.Kuznetsov və S.Smirnov daxil idilər. Dövlət ittihamçısı, SSRİ Baş Prokurorunun köməkçisi D.Kozlovski idi.

O dövrdə SSRİ Ali Məhkəməsinin sədri V.Terebilovun "Novoye vremya" jurnalında müsahibəsi çap olundu. Terebilov məhkəmə proseslərinə yuxarıdan, xüsusilə Kommunist Partiyası Mərkəzi Komitəsi aparatından təzyiqlər olduğundan şikayətlənirdi. Tələb edirdi ki, məhkəmə müstəqil olmalıdır. Terebilov daha sonra qeyd edirdi ki, hazırda SSRİ Ali Məhkəməsi Əhmədovun, Cəfərovun, İsmayılovun məhkəmə prosesinə baxır. Məhz yuxarıların təzyiqi nəticəsində məhkəmə heyəti obyektivliyini, humanizmini bir tərəfə qoyub, Əhmədovun timsalında, nəyin bahasına olursa-olsun, "təşkilatçı" obrazı yaratmaq niyyətinə düşür.

Əslində isə hadisələrin təşkilatçısı olan 1959-cu il təvəllüdlü, əvvəllər 3 dəfə məhkum olunmuş üst-üstə 9 il 2 ay 13 gün azadlıqdan məhrumetmə cəzası çəkmiş qatı cinayətkar, milliyyətcə erməni olan "Paşa" ləqəbli Eduard Qriqoryan idi. O, Albert və Ernis adlı iki qardaşı ilə camaata soyuq silah kimi istifadə olunan armatur parçaları da paylamışdı.

Eduard Qriqoryan ətrafına topladığı özü kimi cinayət meyilli qonşuları ilə ümumi dil taparaq onlara spirtli içki və insanda aqressivlik yaradan xüsusi həblər paylayıb, quldurluq və soyğunçuluq etmək üçün yaxşı şansın yarandığını deyib və onları öz arxasınca dinc mitinqin keçirildiyi meydana aparıb. Orada özünü Qafandan gəlmiş azərbaycanlı kimi təqdim edərək, ermənilərin guya Qafanda dinc azərbaycanlı əhalini qırdıqlarını, özlərinin isə bir maşın meyit gətirdiklərini mitinq iştirakçılarına danışaraq ermənilərdən intiqam almağa çağırıb. Özü də burada yaşayan ermənilərin siyahısını verərək ünvanlarını göstərib, ona qoşulmuş 100 nəfərə yaxın yeniyetmə və müxtəlif cinayətkar ünsürləri "Qarabağ bizimdir!", "Erməniləri qırın!" kimi şüar və çağırışlarla "Qarabağ" və "Krunk" cəmiyyətləri təşkilatlarına pul verməkdən imtina etmiş ermənilərin yaşadıqları mənzillərə istiqamətləndirib, talan və digər cinayətlərdə fəal iştirak edib. Eduard özü 6 ermənini qətlə yetirib. O, hadisələr zamanı Marina və Karina Mejlumyanlar adlı erməni qızlarını da zorlayıb.

Bütün bunlar məhkəmə istintaqı zamanı sübut olunsa da, SSRİ Prokurorluğu əsl həqiqəti ört-basdır edib. Kütləvi iğtişaşlarda iştirak, zorlama, qətl, qarət, milli ədavətin qızışdırılması ittihamları ilə mühakimə olunan E.Qriqoryana cəmi 12 il cəza verilib.

6 nəfərin qətlində iştirak etmiş Eduard Qriqoryanın məsuliyyətdən azad edilməsi üçün erməni millətçi təşkilatçıları və xüsusi-xidmət orqanları çox çalışıblar. Təsadüfi deyil ki, bu qədər cinayət törətməsinə baxmayaraq, Qriqoryan Ermənistana göndərilib, sonra da azadlığa buraxılıb. Həmin dövrdə "Novoye vremya" jurnalı, "Moskovskiye novosti" qəzeti və digər mətbu orqanlar Sumqayıt hadisələri ilə bağlı öz səslərini qaldırsalar da, bir nəticə olmayıb. Yazılarda istintaqın düzgün aparılmadığı, cinayətin kim tərəfindən törədilməsinin aşkar edilmədiyi vurğulanırdı.

Sumqayıt hadisləri də başvermə xüsusiyyətinə görə böyük bir terrorun başlanğıcı oldu. Məhz bu saxta "genosid"dən sonra minlərlə azərbaycanlı qətlə yetirildi, ərazimizin 20 faizi işğal edildi.

Yalnız 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev mənfur erməni məkrinin, neçə-neçə terror aktının qarşısını aldı.

Bu gün ermənilərə layiqli cavab verilir. Prezident İlham Əliyevin beynəlxalq aləmdə nüfuzu, torpaqların azad edilməsinə hazır olan ordunun yaradılması ondan xəbər verir ki, tezliklə işğalda olan ərazilər azad ediləcək.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2019-cu İLİN MART AYINDA VƏTƏNDAŞLARIN QƏBULU C Ə D V Ə L İ

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 6 |
| **Bahar Əvəz qızı MURADOVA** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqları komitəsinin sədri | 11 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 27 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 1 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 4 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 1 |
| **Hadi Musa oğlu RƏCƏBLİ** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 13 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 28 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 14 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 18 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 7 |
| **Ülvi Zahid oğlu QULİYEV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 27 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 28 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 12 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 12 |
| **Səfa Abbas oğlu MİRZƏYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 1 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 5 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 15 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 19 |
| **Nizami Abdulla oğlu SƏFƏROV** Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 14 |
| **Adilə Ziyat qızı ABASOVA** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 29 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 5 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

| | |
|---|---|
| **Qəbula yazılma vaxtı:** | saat 9:00-dan 18.00-dək |
| **Qəbul vaxtı:** | saat 14:00-dan başlayır |
| **Qəbul günü qəbula yazılma:** | saat 12:00-da dayandırılır. |

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır. Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

**Telefonlar:** (012) 510-99-38
(012) 510-89-14
(012) 492-74-05

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

# Milli həmrəyliyin nümunəsi

Paytaxt Bakı, eləcə də bütün Azərbaycan 27 il bundan əvvəl - fevralın 25-dən 26-na keçən gecə erməni terror dəstələri və Dağlıq Qarabağda yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı sakinlərinə qarşı törədilən dəhşətli soyqırımının ildönümünü milli həmrəyliyin hüznlü təntənəsi, böyük ürək ağrısı ilə yad etdi.

İnsanlar matəm ab-havası ilə istər Bakıda, istərsə də bölgələrdə, ən ucqar kəndlərdə Xocalıda həmin gecə ermənilər tərəfindən yurdu dağılmış 70 min insanı yada saldılar, amansızlıqla qətlə yetirilən o müdhiş gecədə şəhid olanların ruhuna dualar oxudular, sağ qalan xocalılılara Allahtəaladan səbr və sağlamlıq dilədilər. Və bütün diləklərin sonunda insanlar dünya ictimaiyyətinə, dünya birliyinə belə bir mesaj verdilər: "Ey tərəqqipərvər bəşəriyyət, Xocalı soyqırımını tanı!"

Fevralın 26-da soyqırımın 27-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşündə milli mənsubiyyətindən asılı olmayaraq, minlərlə insan iştirak edirdi. Dünya xalqlarının diqqətini özünə çəkən bu yürüşün önündə Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva və ailə üzvləri, eləcə də hökumət üzvləri gedirdi. Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri abidənin önünə güllər düzdülər.

Ümumxalq yürüşündə döşlərinə qara lent taxmış, əllərində "Xocalıya ədalət!", "Xocalı - XX əsrin soyqırımı", "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir", "Cinayətkarlar mütləq cəzalandırılmalıdır" və s. bu kimi transporantlar və şüarlar tutmuş minlərlə insan bu yürüşə qatılmaqla Prezidentin ətrafında sıx birləşdiklərini, onun siyasətini ürəkdən dəstəklədiklərini nümayiş etdirdilər. Xalq dövlət başçısı İlham Əliyevin hakimiyyətə gəldiyi ilk gündən Ermənistanın dinc azərbaycanlılara qarşı törətdiyi cinayətlərin, o cümlədən Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün apardığı məqsədyönlü siyasəti dəstəklədiyini daim nümayiş etdirib. Dünən bir daha paytaxtın Azadlıq meydanından Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətdə olan on minlərlə insan ümumxalq yürüşünə qatılmaqla Xocalı faciəsi qurbanlarının xatirəsini yad etdilər, erməni vandalları tərəfindən törədilmiş bu cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırdılar.

Həmin tarixdə diqqət çəkən məqamlardan biri də populizm xəstəsi, mifomaniya kimi ağır sindroma düçar olan Əli Kərimlinin etdiyi hərəkətlər, yenə də əsl mahiyyətini ortaya qoyması oldu.

"Ana harayı" abidə kompleksinə günortadan sonra gələn Əli Kərimlini cangüdənlər müşayiət edib. Görəsən, o, kimdən qorxur? Xalqdanmı?.. Sual olunur: Əli Kərimlini bu insan izdihamına qoşularaq abidə kompleksini ziyarət etməyə nə mane olurdu. Heç bir yerdə rəsmən çalışmayan təşkilat rəhbərinin bu cangüdənləri hansı maliyyə hesabına saxlaması məsələsi digər bir müzakirə predmetidir.

Bir sözlə, Əli Kərimlinin "arxamızca on minlər gəlir" iddiası növbəti dəfə ifşa olundu. Anım tədbirində Prezident İlham Əliyevin ardınca böyük insan izdihamının "Ana harayı" abidəsini ziyarət etməsi şəhidlərimizin ruhuna hörmət olmaqla tədbirin məhz belə axarda keçməsini labüd edir. Deməк ki, insanlar əsl liderinin arxasınca gedirlər.

Bu gün soyqırımı haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində ölkə başçısı, Heydər Əliyev Fondu tərəfindən məqsədyönlü addımlar atılır, tədbirlər, görüşlər keçirilir. Bununla da BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini çatdırmaqla beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırır. Xocalı həqiqətlərinin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna xidmətləri danılmazdır. Ailəsi ilə birlikdə yürüş iştirakçılarının önündə dayanan Mehriban xanım Əliyevanın gərgin əməyi sayəsində dünya ölkələri erməni qəsbkarlarının insanlığa sığmayan qətlləri haqqında dolğun şəkildə məlumatlandırılır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə başlayan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində dünyanın bir çox ölkəsində diplomatik nümayəndəliklərimiz və diaspor təşkilatlarımız tərəfindən müxtəlif tədbirlərin həyata keçirilməsi isə bu faciənin dünyada soyqırımı aktı kimi tanınmasına xidmət edir. Xocalı soyqırımının 27-ci ildönümü ərəfəsində Belçika Krallığının Brüssel şəhərində izdihamlı mitinqin keçirilməsində əsas məqsəd azərbaycanlıların Qarabağ həqiqətlərinin və Xocalı soyqırımının tanıdılması olub. Kütləvi informasiya vasitələrində, eləcə də sosial şəbəkələrdə geniş işıqlandırılan mitinqdə çıxış edən Azərbaycan diaspor təşkilatları nümayəndələrinin Avropa Parlamentinə, beynəlxalq təşkilatlara çağırışlarında 27 il əvvəl Ermənistan tərəfindən törədilən Xocalı soyqırımına beynəlxalq miqyasda hüquqi-siyasi qiymət verilməsi, torpaqlarımızın geri qaytarılması üçün işğalçı dövlətə təzyiq göstərilməsi, yurdlarından didərgin düşən azərbaycanlıların pozulmuş hüquqlarının bərpa olunması, Dilqəm Əsgərov və Şahbaz Quliyev də daxil olmaqla bütün azərbaycanlı əsir və girovların azad edilməsi, münaqişə ilə bağlı beynəlxalq təşkilatların qəbul etdikləri məlum qərar və qətnamələrə Ermənistan tərəfinin riayət etməsi kimi tələblər öz ifadəsini tapıb.

Xatırladaq ki, Azərbaycan Prezidentinin xarici siyasətinin əsas istiqamətlərindən biri olan Xocalı soyqırımının dünyaya tanıdılması coğrafiyası ildən-ilə genişlənir. Təsadüfi deyil ki, bu gün 11 dövlət tərəfindən Xocalı soyqırımı rəsmən tanınmışdır. Artıq bir çox ölkələrdə "Xocalıya ədalət!" devizi ilə xalqımızın haqq səsini dəstəkləyən tərəfdaşların sayı çoxalmaqdadır. Azərbaycandan kənarda bu cür tədbirlərin keçirilməsi bir daha dünyaya bəyan edir ki, Ermənistan illərdir terrorçuluq və işğalçılıq siyasəti yürüdür.

Prezident İlham Əliyevin öndərliyi ilə milli həmrəyliyin hüznlü təntənəsinə çevrilən bu ümumxalq yürüşündə beynəlxalq aləmə bir daha çatdırıldı ki, BMT kimi mötəbər bir təşkilatın dörd qətnamə qəbul etməsinə baxmayaraq, beynəlxalq ictimaiyyət tərəfindən hələ də Ermənistana güclü təzyiq göstərilmir.

İldönümü günü Azərbaycanın hər yerindən insanlar Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəyə yürüş ediblər. Minlərlə insan 27 il əvvəl görünməmiş vəhşiliyin qurbanı olmuş dinc həmvətənlərini "Ana fəryadı" abidəsinin önünə çiçək qoymaqla yad etmişlər. Bütün bunlar həm də onu deməyə əsas verir ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin tərəfindədir və onun siyasətini ürəkdən dəstəkləyir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Ermənistan ordusu iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 29 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Kəngərli, Sarıcalı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Milli Aviasiya Akademiyasında illik "Fevral məruzələri" başlayıb

Milli Aviasiya Akademiyasında (MAA) illik "Fevral məruzələri" başlayıb. AZƏRTAC xəbər verir ki, fevralın 27-də akademiyanın Tələbə-Tədris Mərkəzində "Aviakosmik məsələlərin həllində gənclərin yaradıcı potensialı" ("Fevral məruzələri-2019") mövzusunda IV beynəlxalq elmi-praktik gənclər konfransı öz işinə başlayıb.

Təhsil Nazirliyi, "Azərbaycan Hava Yolları" QSC, Milli Aviasiya Akademiyası, Azərbaycan Mühəndislik Akademiyası və "Azərkosmos" ASC-nin təşkilatçılığı ilə keçirilən konfransda ABŞ, Türkiyə, Almaniya, Rusiya və Azərbaycandan olan nümayəndələr iştirak edib.

Tədbir iştirakçıları əvvəlcə MAA-nın tələbələrinin əl işlərindən ibarət "Aviamodelizm" sərgisinə və akademiyanın "CanSat" komandasının beynəlxalq müsabiqələrdə qazandığı uğurları əks etdirən stendlərə baxış keçirib.

Konfransın açılışında MAA-nın prorektoru Ədalət Səmədov Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevin konfrans iştirakçılarına təbrikini oxuyub.

O bildirib ki, konfransın fevralda keçirilməsi, ilk növbədə, Azərbaycanın ilk telekommunikasiya peyki olan "Azerspace-1"in 2013-cü ilin fevralın 8-də orbitə buraxılması ilə bağlıdır. Fevralda eyni zamanda, Azərbaycan Gəncləri Günü də qeyd olunur: "Bu həm də onunla əlamətdardır ki, yanvarın 10-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" sərəncam imzalayıb. Bu sərəncam elmi nailiyyətlərə əsaslanan məhsulun, xidmətlərin, proseslərin və həllərin, o cümlədən startapların hazırlanması, təqdimatı və istifadəsi başlanğıcları da daxil olmaqla, məhsulların, xidmətlərin, texnologiyaların, proseslərin və həllərin hazırlanmasını, təqdimatını və istifadə edilməsini nəzərdə tutur. Bu baxımdan, hesab edirik ki, konfrans gənclərin elmi-tədqiqat işlərinə cəlb edilməsi baxımından olduqca vacibdir. Sevindirici haldır ki, keçən il sentyabrın 26-da Azərbaycanın sayca üçüncü peyki olan "Azerspace-2" telekommunikasiya peyki orbitə çıxarılıb və artıq kommersiya fəaliyyətinə başlayıb".

"Konfransın proqramına ümumilikdə 20 universitet, elmi-tədqiqat institutu və təşkilatdan olan nümayəndələrin məruzəsi daxil edilib. Artıq dördüncü dəfədir keçirilən konfrans gənclərə elmi müzakirələrdə iştirak etməyə, elmi mərkəzlərlə tanış olmağa və yeni əlaqələr qurmağa imkan yaradır. İki gün davam edəcək konfrans çərçivəsində 7 bölmə üzrə mülki aviasiya və kosmik sahənin aktual problemlərinə həsr olunan 87 məruzə dinləniləcək. Konfrans çərçivəsində, həmçinin təyyarəqayırma, mühəndis dizaynı sahəsində müasir informasiya texnologiyaları, elmi-tədqiqat işlərinə gənclərin cəlb edilməsinə müasir yanaşmalar, hava nəqliyyatında təhlükəsizlik sahələrində Rusiya və Azərbaycanın tanınmış alimlərinin iştirakı ilə "dəyirmi masa"lar keçiriləcək" - deyə Ə.Səmədov vurğulayıb.

Plenar iclasda akademik Roald Saqdeyevin "Beynin fəaliyyəti ilə bağlı elmin uğurları", professor Mesud Əfəndiyevin "Sonsuz ölçülü dinamik sistemlərin aktual məsələləri", professor Kərim Allahverdiyevin "Milli Aviasiya Akademiyasında lazer tədqiqatlarının inkişaf perspektivləri" mövzusunda məruzələri dinlənilib.

Konfrans öz işini bölmələrdə davam etdirib.

## Dövlət başçısına minnətdarlıq

### Bizə göstərilən etimadı doğruldacağıq



Möhtərəm cənab Prezident!

Uzun illərdir ki, təhsilə Sizin qayğıkeş münasibətinizin müsbət nəticələri göz önündədir. Bu, onu göstərir ki, Siz ulu öndər Heydər Əliyevin təhsilə olan böyük qayğısını layiqincə davam etdirirsiniz, öz həqiqi təəssübkeşliyinizi göstərirsiniz.

Bildirmək istəyirəm ki, hələ də İsmayıllı rayonunun Lahıc qəsəbəsindəki görüşümüzün təəssüratındayam. Ölkəmizdə təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədilə ali məktəb tələbələri üçün təqaüdün artırılması, Sizin bir daha biz tələbələrə olan diqqətinizin nə qədər yüksək olduğunu təsdiq edir. Mən Sizi əmin edirəm ki, bizə göstərdiyiniz etimadı doğruldacağıq.

Hörmətli cənab Prezident, təhsilə və Azərbaycan gəncinə olan sevginizə, qayğınıza görə öz adımdan və bütün tələbələr adından Sizə dərin minnətdarlığımızı bildirir, ölkəmizin rifahı və xalqımızın xoşbəxtliyi naminə apardığınız müdrik siyasətinizdə uğurlar arzulayıram.

***Vahab CƏBRAYILOV,***
***Bakı Ali Neft Məktəbinin "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisasının 2-ci kurs tələbəsi, 700 bal toplamış Prezident təqaüdçüsü***

### Gənclərə qayğı bizi ruhlandırır

Hörmətli cənab Prezident!

Mən ali təhsil alaraq, ölkəmizin tərəqqisi yolunda çalışmaq arzusunda olan Azərbaycan gənclərindən biriyəm. Yüksək balla Bakı Ali Neft Məktəbinə daxil olmuşam. Arzularımızın həyata keçməsinə Sizin gənclərə göstərdiyiniz diqqət və qayğı təkan verir, bizi daha böyük əzmlə, inamla çalışmağa, təhsilimizdə müvəffəqiyyətlər qazanmağa ruhlandırır.

Sizin 2019-cu il fevralın 14-də imzaladığınız "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" və Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılması ilə bağlı fərmanınız məni və ali məktəbimizin tələbələrini çox sevindirdi. Aylıq təqaüdüm mənə böyük dəstəkdir. Bizə göstərdiyiniz maddi və mənəvi



dəstəyə görə Sizə minnətdarıq. Buna görə şəxsən öz adımdan və Bakı Ali Neft Məktəbi ailəsi adından Sizə ürəkdən təşəkkür edir, minnətdarlığımı bildirirəm.

***Xəyal FƏRZƏLİYEV,***
***Bakı Ali Neft Məktəbinin "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə 1-ci kurs tələbəsi, 700 bal toplamış Prezident təqaüdçüsü***

# Düşmən təmas xəttinə yaxın olan yaşayış məntəqələrini daim atəş altında saxlayır

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster fevralın 27-də Ağdam rayonunda olublar.

AZƏRTAC xəbər verir ki, Ağdam Rayon İcra Hakimiyyətində keçirilən görüşdə ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində yaranan problemlər, cəbhə xəttində yaşayan dinc əhalinin üzləşdiyi çətinliklər barədə məlumat verilib. Ağdam Rayon İcra Hakimiyyəti başçısı Vaqif Həsənov bildirib ki, Ermənistan silahlı birləşmələri rayonun təmas xəttinə



yaxın olan yaşayış məntəqələrini daim atəş altında saxlayır, dinc əhalinin təsərrüfat işləri ilə məşğul olmasına imkan vermirlər.

Diqqətə çatdırılıb ki, sonuncu monitorinqin keçirildiyi oktyabrın 31-dən indiyədək mülki əhalinin yaşadığı ərazilərdə 129 dəfə atəşkəs pozulub. Düşmənin atəşi nəticəsində ötən dövrdə bir mülki şəxs yaralanıb.

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri səmimi qəbul və ətraflı məlumat üçün təşəkkür ediblər.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, fevralın 27-də Ağdam rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika, Oqnyen Yoviç və Saymon Tiller aparıblar.

# "Azercell" 2018-ci ilin nəticələrini açıqlayıb

Azərbaycana bir sıra texnoloji yeniliklər gətirən, innovativ həllər, müasir xidmətlər vasitəsilə abunəçilərin həyatını asanlaşdırmağı və rəqəmsallaşdırmağı qarşısına məqsəd qoyan, Azərbaycanın ilk GSM operatoru "Azercell" ölkə əhalisinin 99,8 faizini, ərazisinin isə 99,1%-ini (işğal olunmuş ərazilər xaric) əhatə edərək, ölkənin telekommunikasiya sektorunda 49 faiz bazar payı ilə lider mobil operator mövqeyində qərarlaşmağa davam edir.

Ölkənin qeyri-neft sektorunun ən iri vergi ödəyicisi kimi Azərbaycan iqtisadiyyatına hər zaman öz töhfəsini verən "Azercell" şirkəti 2018-ci ildə dövlət büdcəsinə 94,5 milyon manat, 22 il ərzində isə 1 milyard 732,3 milyon manat həcmində vəsait ödəyib. "Azercell" ölkədə telekommunikasiyanın inkişafına ötən il 59,5 milyon ABŞ dolları, 22 il ərzində 1 milyard 527 milyon ABŞ dollarından artıq sərmayə yatırıb. Şirkət 2018-ci ildə insan qaynaqlarının inkişafına 880 000 ABŞ dollarına yaxın, sosial layihələrə isə 266 000 ABŞ dollarından çox vəsait xərcləyib.

### 4G istifadəçilərinin sayı 1 milyonu keçib

Abunəçiləri yüksək keyfiyyətli rabitə xidmətləri ilə təmin etmək, rəqəmsal dünyanın ən son yeniliklərinin ölkədə tətbiqinə hazır olmaq üçün şəbəkənin gücləndirilməsi, əhatə dairəsinin genişləndirilməsi və internet xidmətinin sürətinin daha da artırılması istiqamətində bir sıra mühüm təkmilləşdirmə layihələri müvəffəqiyyətlə icra olunub. Nəticə olaraq, ötən il "Azercell" şəbəkəsi üzərindən mobil internet trafikinin istifadəsi 2017-ci il ilə müqayisədə artaraq, 13 petabayta çatıb. İl ərzində 3 dəfə artan "Azercell"in 4G istifadəçilərinin sayı 1 milyonu keçib.

Rominq siyahısını daha da genişləndirərək, ötən il "Azercell" 19 yeni ölkə ilə saziş bağlayıb. Eyni zamanda, mobil internet xidmətini ölkə hüdudlarından kənarda daha münasib və əlçatan etmək üçün səyahət edən müştərilərə rominqdə istifadəyə nəzərdə tutulan xüsusi internet paketləri təqdim olunub. Bu paketlər 50 ölkədə fəaliyyət göstərən 70-dən çox operatorun şəbəkəsində istifadə edilə bilər.

### Müştərilər tərəfindən ən çox tövsiyə olunan operator

Hər zaman abunəçilərinin rahatlığını düşünən şirkət 2018-ci ildə 16 yeni konsepsiyalı "Azercell Eksklüziv" mağazalarını istifadəyə verib. İl ərzində ümumilikdə 6 milyona yaxın abunəçiyə xidmət göstərilib. Qeyd edək ki, ötən il "Azercell"in 24/7 rejimində xidmət göstərən peşəkar Telefon Mərkəzi fəaliyyətinin 20 illiyini qeyd edib. 20 il ərzində Telefon Mərkəzi tərəfindən 50 milyondan artıq abunəçi müraciəti qəbul olunub.

Təsadüfi deyil ki, ötən il müştəri loyallığını ölçən NPS indeksinin ölkə üzrə ən yüksək göstəricisi - 82 faiz "Azercell"ə məxsus olub. Şirkətin Müştəri Məmnuniyyəti Sorğusunda əldə etdiyi nəticə 93 faizə bərabər olub.

### Müasir texnologiyalar insan həyatının keyfiyyətini artırmaq üçündür

"Azercell"in Korporativ Sosial Məsuliyyət (KSM) strategiyasının əsasını yeni texnologiyalar və mobil telekommunikasiya xidmətləri vasitəsilə insan həyatının keyfiyyətinin artırılması, gündəlik həyatın asanlaşdırılması ideyası təşkil edir.

"Azercell" internetdən istifadə arealının genişlənməsi nəticəsində uşaqların üzləşə biləcəyi təhlükələri aradan qaldırmaq uğrunda "Internet Təhlükəsizliyi və Rəqəmsal Vətəndaşlıq" kimi mühüm əhəmiyyət kəsb edən bir layihə icra edir. Təhsil Nazirliyinin dəstəyi ilə Bakı və regionların orta təhsil müəssisələrində "Azərbaycan Müəllim İnkişafı Mərkəzi"nin mütəxəssisləri tərəfindən 400-dən çox şagird, müəllim və valideyn bu mövzuda bilgiləndirilib.

Ölkədə onlayn mütaliə mədəniyyətini ilk tətbiq edən şirkət məhz "Azercell" olmuşdur. "Azercell" müştəriləri arasında istifadəçi sayı 18 mini keçən və 1 milyona yaxın kitabı mobil cihaza sığdırmış Bookmate tətbiqi indi daha zəngin oldu. Noyabr ayında "Azercell" Bookmate tətbiqi çərçivəsində Audio kitab xidmətini mütaliəsevərlərin istifadəsinə verdi. Qısa müddət ərzində istifadəçi sayı 5000 nəfərə çatan bu xidmət ilkin olaraq 60 klassik əsəri Azərbaycan dilində səsləndirdi. İl boyu doğma dilimizdə səsləndirilən kitabların sayı artırılacaq.

KSM proqramlarının daimi təşəbbüskarı və iştirakçısı olan "Azercell"in Azərbaycan əhalisi arasında pulsuz müayinə təklifindən minlərlə insan yararlanıb. 2018-ci il ərzində "Azercell" "Mobil Göz Klinikası"nda 1368 nəfər müayinədən keçib, "Mobil Diş Klinikası"nda isə 628 nəfər pulsuz diş müayinəsi və müalicə alıb. "Azercell"in "Mobil Qan Klinikası" "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyasında məskunlaşan uşaqları pulsuz müayinə edib.

Tələbələrin fərdi və akademik inkişafına hər zaman öz töhfəsini verən "Azercell"in ötən il elan etdiyi Tələbə Təqaüdü proqramına 1400-ə yaxın müraciət qeydə alınıb və onların arasından 25 qalib seçilib. "Azercell" Akademiyası tərəfindən il boyunca ümumilikdə 30 təlimçi tərəfindən aparılan 231 təlim sessiyası təşkil olunub.

### Rəqəmsal sahibkarlığın inkişafına dəstək

Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində il ərzində texnoloji, qrup çalışmaları, forumlar, təlimlər, görüşlər, müsabiqələri əhatə edən 80 tədbir və 5 beynəlxalq toplantı keçirilib. Bölgələrdə və ali məktəblərin nəzdində Barama mərkəzlərinin filialları açılıb. Mərkəz tərəfindən 20 startap layihəsi dəstəklənib.

"Azercell Telekom" MMC müxtəlif dövlət qurumları və biznes təşkilatları ilə birlikdə bir sıra layihələrə, təlimlərə dəstək verib, tərəfdaş qismində iştirak edib. Bunlar sırasında Heydər Əliyev Fondu tərəfindən təşkil olunan və 18 min nəfəri bir araya gətirən "Bakı Marafonu" yarışmasını, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin həyata keçirdiyi və regionlardakı gənc sahibkarları üzə çıxaran "İdeyadan Biznesə- İ2B" layihəsini, "Global İnfluencer Day" tədbirini, "Science via Media" layihəsini, Buktreyler Festivalını, "Əlilliyi olan tələbə və məzunların birinci əmək yarmarkasını", "Barama Hackathon 2018" və "Seedstars World" müsabiqələrini, "A'Startap Sammiti 2018" intensiv seminarını və digər tədbirləri qeyd etmək olar.

### MDB məkanında Qızıl IIP sertifikatı alan yeganə şirkət

Ötən il "Azercell Telekom" MMC güclü liderliyin, korporativ mədəniyyətin və insan resurslarının idarə olunması təcrübəsinin davamlı inkişafının göstəricisi olaraq "Investors in People" (IIP) - İnsana Sərmayə Standartının tələbləri üzrə dəyərləndirilərək QIZIL sertifikatını qazandı. "Azercell" ölkəmizdə Qızıl sertifikat qazanan ilk şirkət olmaqla yanaşı, MDB məkanında belə bir uğura imza atan yeganə telekommunikasiya şirkətidir.

"Azercell" beynəlxalq aləmdə nüfuz qazanan "Stevie" Beynəlxalq Biznes Mükafatında "İlin Telekommunikasiya Şirkəti" və "İlin Korporativ Sosial Məsuliyyət Proqramı (Avropa üzrə)" nominasiyalarında Bürünc "Stevie" mükafatına layiq görülüb. Həmçinin qürurverici haldır ki, ötən il bu mükafatlar siyahısına "İnsanların Seçimi üzrə Stevie Mükafatı" da əlavə olunub. 2018-ci ildə ölkəmizdə mobil rabitənin keyfiyyətinin yüksəldilməsi, regionlarda 4G şəbəkəsinin genişləndirilməsi, ölkənin bütün bölgələrində abunəçilərin sürətli internetə çıxışının təmin olunması, müasir xidmətlərin, eləcə də yeni biznes həllərinin tətbiq edilməsi, abunəçi xidmətlərinin modernləşdirilməsi, həmçinin mobil texnologiyalar vasitəsilə həyatın asanlaşdırılması istiqamətində keçirilən layihə və bir sıra digər təşəbbüslər "Azercell"ə telekommunikasiya sahəsi üzrə "İlin Ən Sevilən Şirkəti" adını qazanmağa əsas verdi.

"Azercell"in nailiyyətləri bununla bitməyib. Belə ki, Azercell "Qlobal Liderlər Klubu" tərəfindən Azərbaycanda idarəetmə və dayanıqlı inkişaf sahəsində "Ən yaxşı şirkət", Vahid Mürsəliyev isə "İlin rəhbəri" kimi mükafatlandırılıb.

***"Azərbaycan"***

## Gəncə Şəhər Səhiyyə İdarəsi

### *açıq tenderə dəvət edir*

**Tender 3 LOT üzrə keçirilir:**
**LOT 1 - Cari təmir işlərinin görülməsi**
**LOT 2 -Yumşaq inventarların alınması**
**LOT 3- Əsaslı təmir işlərinin görülməsi**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Gəncə, Nizami pr. 412 (Əlaqələndirici şəxs: Abbasova Gülnaz Əkbər qızı, telefon: (022) 266-55-33) ünvanından ala bilərlər .

**İştirak haqqı**
**LOT 1 -100 manat**
**LOT 2 - 150 manat**
**LOT 3 - 200 manat**
**Hesab: AZ92CTRE00000000000002120631**
**Təsnifat kodu 142340**
**Səviyyə kodu 7Y**
**VÖEN 2300213451**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003941**
**S.W.İ.F.T: CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər:*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 22.04.2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə - 06.05.2019-cu il saat 17:00-a qədər Gəncə şəhəri, Nizami pr., 412 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 07.05. 2019-cu il LOT.1 - 10:00; LOT.2 - 11:00; LOT.3 - 12:00 tarixdə Gəncə şəhəri Nizami prospekti, 412 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

**"Azərbaycan İnvestisiya Şirkəti" ASC Hacıqabul Sənaye Məhəlləsinin ərazisində bilbord və istiqamət göstərici lövhələrin hazırlanması və quraşdırılması işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.**

Maraqlanan şirkətlər 012 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 04.03.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

**"Azərbaycan İnvestisiya Şirkəti" ASC 2017-ci il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən tərtib olunmuş maliyyə hesabatlarının Beynəlxalq Audit Standartlarına uyğun olaraq müstəqil auditinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.**

Maraqlanan şirkətlər 012 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 05.03.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Şəki Şəhər İcra Hakimiyyəti

### 2019-cu ildə Şəki şəhərində tikiləcək 48 mənzilli yaşayış binasının tikinti işlərinin satın alınması ilə əlaqədar

## *açıq tender elan edir*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə qalmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikası vergilər və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (forma-1 və forma-2);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *analoji işlərdə təcrübəsi, iddiaçının potensial, texniki və kadr imkanları haqqında rəsmi məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət Satınalmaları haqqında" qanuna uyğun keçirilməlidir.

Tikinti işləri ilin sonunadək yerinə yetirilib başa çatdırılmalıdır.

Tenderdə iştirak etmək üçün iddiaçılar 150 (yüz əlli) manat məbləğində pul vəsaitini aşağıdakı hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu 11 mart 2019-cu il tarixdən Tender komissiyasından ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanır.

**Təşkilat: Şəki Y.X.O**
**Hesab: AZ03AIIB32051019447000201170**
**VÖEN: 3000104011**
**VÖEN: 3000072051-İcra Hakimiyyəti**
**Bank: "Kapital Bank" Şəki filialı**
**Kodu: 200703**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT BİK: AIIBAZ2x**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: mövcud qanunvericiliyə uyğun olaraq ən səmərəli tender təklifinə, *yüksək keyfiyyətə, analoji işlər üzrə təcrübəsinə, kadr potensialına, maliyyə və texniki imkanlarına.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (Tender təklifi və bank təminatı istisna olmaqla) 27 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatı isə möhürlənmiş ikiqat zərfdə 16 aprel 2019-cu il saat 17:00-a qədər Şəki Şəhər İcra Hakimiyyətinə (20 Yanvar, 8) təqdim edilməlidir.

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender proseduru keçirildiyi tarixdən ən azı 60 bank günü qüvvədə olmaqla təkliflər sorğusu təklifi ilə birlikdə təqdim olunur. Bank təminatını tender təklifi zərfində təqdim etməyən iddiaçının tender təklifi etibarsız sayılır və qiymətləndirilməyə buraxılmır.

İddiaçıların zərfləri 17 aprel 2019-cu il saat 11:00-da Şəki Şəhər İcra Hakimiyyətində (3-cü mərtəbə, 1-ci otaq) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilər.

Tender haqqında məlumatları aşağıdakı ünvandan almaq olar:
Şəki Şəhər İcra Hakimiyyətinin Tender komissiyası.
Əlaqələndirici şəxs: Taleh Saleh oğlu Alxasov.
Əlaqə telefonu: 02424-4-28-70

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT 1 "Public Wi-Fi" layihəsi üzrə simsiz internet şəbəkəsinin genişləndirilməsi və təkmilləşdirilməsi məqsədi ilə aktiv avadanlıqların və xidmətlərin satın alınmasına dair.**

**LOT 2 "Public Wi-Fi" layihəsi üzrə simsiz internet şəbəkəsinin genişləndirilməsi və təkmilləşdirilməsi məqsədi ilə passiv avadanlıqların satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**LOT 1. 200 (iki yüz ) manat iştirak haqqını**
**LOT 2. 200 (iki yüz) manat iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasından tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **29 mart 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faizi bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **08 aprel 2019-cu il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **09 aprel 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs:
**Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

*Təkrar*

## Lənkəran Dövlət Universiteti

## *açıq tenderə dəvət edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir:**
**LOT 1.** Dəftərxana və təsərrüfat xərcləri.
**LOT 2.** Cari təmir işləri.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhər H.Aslanov xiyabanı, 50 nömrəli ünvandan ala bilərlər.

İştirak haqqı: 1-ci LOT üzrə 150 (bir yüz əlli) manat və 2-ci LOT üzrə 150 (bir yüz əlli) manat.

Əlaqələndirici şəxs: Samir Müseyib oğlu Alxasov, telefon: (025) 255-14-80.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

**Lənkəran Dövlət Universiteti**
**Hesab № AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT BIK: AIIBAZ2X**

Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50, faks: (025) 255 27 86;
www.lsu.edu.az:office@lsu.edu.az

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **28 mart 2019-cu il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **09 aprel 2019-cu il saat 17:00-a** qədər Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **10 aprel 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Sumqayıt Şəhər İcra Hakimiyyəti

### 2019-cu ildə 263 çoxmənzilli yaşayış binasının dam örtüyünün təmirinin satın alınması ilə əlaqədar

## *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.**

**LOT 1** - 263 çoxmənzilli yaşayış binasının dam örtüyünün təmiri

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun yuxarıda qeyd olunan lotlar üzrə öz yazılı tender təkliflərini imzalanmış və möhürlənmiş şəkildə ikiqat zərfdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, analoji işlərdə təcrübə müqavilənin vaxtında yerinə yetirilməsi, maliyyə vəziyyəti.

Tenderdə iştirak etmək istəyənlər LOT üçün 1000 (bir min) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Tender komissiyasından ala bilərlər. Əlaqələndirici şəxs: Rəhimdil Qılınc oğlu Əhmədov, telefon: (018) 655-14-48.

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab № AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y İqtisadi təsnifat 142340**
**VÖEN: 2900054881**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədlər (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) **27 mart 2019-cu il saat 17:00-a** qədər, tender təklifi və bank zəmanəti isə möhürlənmiş ikiqat zərfdə **03 aprel 2019-cu il saat 17:00-a** qədər Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanında yerləşən Sumqayıt Şəhər İcra Hakimiyyətinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **04 aprel 2019-cu il saat 15:00-da** Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanında yerləşən Sumqayıt Şəhər İcra Hakimiyyətinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 09 yanvar 2019-cu il tarixdə müxtəlif tipli sayğacların satın alınması məqsədilə keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarına əsasən, qalib elan olunmuş "GATDİGİTAL" QSC və "Sensemi DMCC OF DUBAİ" şirkətləri ilə satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparatında mühasibat uçotunun avtomatlaşdırılması məqsədilə 1C mühasibatlıq proqramının (büdcə təşkilatları üçün) kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 5 mart 2019-cu il saat 15:00 tarixədək qəbul olunur.

Ünvan: Bakı şəhəri, Salatın Əsgərova 85.

***Tender komissiyası***

### İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 9 saylı Beynəlxalq Maliyyə Hesabatları Standartının tətbiq edilməsi ilə bağlı məsləhət xidmətinin satın alınması məqsədilə

## *kotirovka sorğusu elan edir*

İddiaçılar satın alma prosedurunun predmetinə uyğun hazırlanmış əsas şərtlər toplusunu İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalı və 11 mart 2019-cu il saat 15:00-dək Sahibkarlığın İnkişafı Fonduna təqdim edilməlidir.

Ətraflı məlumat almaq üçün əlaqələndirici şəxs: Əyyub Abdullayev.

**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi, 172**
**Telefon: (012) 310 23 02. Fax: (012) 432 37 17**
**e-mail: info@edf.gov.az**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Elvin Hüseynova atası

**ELBRUS HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Oğuzdan Yusif Naxçıvanski 5 saylı kliniki xəstəxananın baş həkimi Fazil Alməmmədova qardaşı

**FƏZAİLİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı

**RÖVŞƏN İBRAHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Günay Sığorta" ASC rəhbərliyi və kollektivi "Günay Sığorta" ASC-nin Satış şöbəsinin müdiri Ramin İsmayılova atası

**SALMAN MÜRSƏL OĞLU İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8554
Sifariş 699
Qiyməti 40 qəpik